Akif AŞIRLI

# TÜRKÜN XOCALI SOYQIRIMI



T3(2A)
A 94

*Akif Aşırlı*

# Türkün Xocalı soyqırımı

232350

Nurlan
Bakı -2005

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Azərbaycan Milli Kitabxanası

**Redaktor:**
**Əli Həsənov,**
tarix elmləri doktoru

**Akif Aşırlı. Türkün Xocalı soyqırımı**
**Bakı, "Nurlan", 2005. – 152 səh. (+24 səh. şəkil)**

"Türkün Xocalı soyqırımı" kitabı XX əsrdə Azərbaycan türklərinə və eləcə də bütün bəşəriyyətə qarşı törədilmiş ən ağır cinayətlər sırasında dayanan Xocalı soyqırımından bəhs edir. Erməni və keçmiş sovet hərbçilərinin 1992-ci ilin 26 fevral gecəsi Xocalıda dinc sakinlərə qarşı həyata keçirdikləri soyqırım aktının dəhşətləri burada əhatəli şəkildə öz əksini tapıb. Publisistika janrında işlənmiş kitab sənədli xarakter daşıyır. Burada irəli sürülən mülahizələr faciənin ayrı-ayrı məqamlarına dair zəngin fakt materialları ilə müşayiət olunub. Kitab geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

$A\frac{4702000000}{N-098-2005}$

© "Nurlan", 2005

**Xalqımızın qəhrəmanları, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid olublar. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətən sədaqətliliyi nümunəsidir, ikinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır - vəhşiliyin görünməmiş bir təzahürüdür. Bütün bunlara görə də biz Xocalı faciəsinin ildönümünü hər il qeyd edirik.**

**Heydər Əliyev**

Azərbaycan Milli Kitabxanası

**...Biz müsəlmanlar bu halətdə davam etməyəcəyik və aşkar deyirik ki, hərgah işlər belə gedərsə, nə qədər Qafqazda bir elə terror dəstələri hökm edərsə, Qafqazda asayiş bərpa olunmayacaqdır. Qafqazda olan mənsəb sahibləri və hakimlərin çoxu erməni terrorundan qorxub ədalət və insaf ilə iş görmürlər. Asayiş və dinclik olması üçün hər nə təşəbbüs və tədbir görülsə, bu qulluqçular qorxularından bir əlac etməyib ancaq bir barədə zülm və cəbr edəcəklər və buna görə də heç vaxt asayiş olmayacaqdır.**

**Əhməd bəy Ağayev**

*"Azərbaycanlıların səciyyəvi xüsusiyyəti bu millətin hədsiz təvazökarlığıdır ki, bu da onların özlərini reklama doğru atıla biləcək hər bir addımının qarşısını alır. Azərbaycanlılar özlərini gözə soxmağı, başqalarına nisbətən onların payına daha çox düşən dərd və fəlakətləri uca səslə elan etməyi, hamıya çatdırmağı öyrənməlidirlər. Bütün bu dərd və fəlakətləri onlar səslərini çıxarmadan, mətbuat vasitəsilə dünyaya car çəkmədən, millətlərə və dövlətlərə müraciətlə ağlayıb-sıqqamadan öz içlərində çəkirlər".* İqtibas gətirdiyimiz bu fikirlər Azərbaycanın görkəmli dövlət xadimi, milli düşüncəli publisist, Xalq Cümhuriyyətinin qurucularından olan Əlimərdan bəy Topçubaşova məxsusdur. Bu deyimdən 85 il keçsə də, fikir daşıdığı məna yükünü bu gün də qoruyub saxlayır. Xalqın gen yaddaşı, ruhu dəyişilməzdir qanunundan doğan bu mühakimə indi yeni dünya düzənində, yeni siyasi sistemlərin qovşağında reallıqlara, tarixi faktlara münasibətdə yeni prinsiplər doğurur. Təbii ki, təvazökarlıq yaxşı amildir, ancaq baxır bu keyfiyyət hansı ölçüdə ortaya qoyulur. Artıq iki əsrdən çoxdur ki, ermənilər türk dünyasına qarşı fiziki terror-



la paralel mənəvi terrorla da məşğuldurlar. Yalançı, hay-həşir təbliğatı aparılır, tarixi faktlar, gerçəkliklər dünyadakı həmmillətlərinin iştirakı ilə təhrif olunur. Bütün bunların qarşısını almaq üçün, xalqımızın başına gətirilən faciələri olduğu kimi təqdim etməliyik. Əgər bu işi görə bilməsək, dünya bizi tarixi faciələrimizin fonunda olduğumuz kimi tanımayacaq. Ermənilərin, rus və fars imperiyalarının Azərbaycan xalqının taleyində oynadıqları faciələrin ssenarilərini, arxivlərdə hələ də qan izlərini itirməyən sənədləri aşkarlamaq, üzə çıxarmaq lazımdır.

Ermənilərin 1905-1907, 1917-1920, 1948-1953, 1988-ci ildən ta bu günədək ardıcıl və düşünülmüş şəkildə dünya ictimaiyyətinin rəyini çaşdırmaqla xalqımıza qarşı törətdikləri cinayətləri, soyqırım faktlarını dünyaya olduğu kimi təqdim etməliyik.

Erməni daşnaklarının rus hərbi birləşmələrinə arxalanaraq, Azərbaycanda törətdikləri faciələr, qırğın və qətllər, insanların yurd-yuvalarından deportasiyası mahiyyətcə bir-birinə bağlıdır və məkrli məqsəd daşıyır. Bu addımların mərkəzində vəhşiliklər törətməklə Azərbaycanın tarixi torpaqlarını erməniləşdirmək və "Böyük Ermənistan" xülyasını gerçəkliyə çevirmək məqsədi dayanır. İstəklərinə çatmaq üçün terror üsullarından yararlanmağı üstün tutan separatçılar təkcə Azərbaycana qarşı deyil, Türkiyəyə, Gürcüstana və bir çox dövlətlərə qarşı da ərazi iddiaları irəli sürməkdədirlər. Onlar özlərinə qondarma tarix yaratdıqları kimi, "Dənizdən dənizə Böyük Ermənistan" xülyası ilə vətəndaşı olduqları dövlətlərə və ətraf qonşularına qarşı gizli və açıq təxribatlar törətməkdən çəkinmirlər.

Erməni terrorunun bəşəriyyətə, insan həyatına qarşı çevrildiyi hələ 1906-cı ildə Tiflisdə Qafqaz canişinliyində erməni və müsəlman nümayəndə heyətinin danışıqlarında da müzakirə edilib. M.S.Ordubadinin "Qanlı illər" əsərində bu barədə Əhməd bəy Ağayevin, Əlimərdan bəy Topçubaşovun erməni terrorunun xalqların dinc yanaşı yaşama prinsiplərinə qarşı olduğunu, Qaf-



Azərbaycan Milli Kitabxanası

qazda qeyri-sabitliyin əsasının qoyulduğunu söyləmələri, əsrin sonlarında da dünya siyasətçilərinin müzakirə mövzularındandır. Deməli, aradan keçən on illər, yüz illər belə ermənilərin düşüncələrinə təsir etməyib.

Ermənilərin türk dünyasına qarşı həyata keçirdikləri terror hərəkətləri, soyuq müharibələr eyni metod və üsulla Azərbaycan türklərinə qarşı da yönəlib ki, onlar bu gün də öz qanlı fəaliyyətlərinə ara vermək fikrində deyillər. 1988-ci ilin fevral ayının 13-dən millətçi ermənilərin Xankəndində başlanan siyasi aksiyaları terror hərəkətlərinə, soyqırım faktlarına çevrildi. Həmin dövrdə Qarabağın azərbaycanlılar yaşayan kəndləri talan edilir, insanlar vəhşi üsullarla qətlə yetirilir, dinc əhaliyə mənəvi-psixoloji təzyiqlər göstərilirdi ki, bu da Ermənistan tərəfindən Azərbaycana qarşı elan olunmamış müharibəyə gətirib çıxardı. Erməni vəhşiliyi 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə Xocalıda törədilən soyqırımla yüzlərlə insanın, ahılların, qadınların, köməksiz əhalinin həyatına son qoydu. Şəhər yerlə-yeksan edildi, yer üzündən silindi. Bu qanlı cinayət XX əsrdə mülki əhaliyə qarşı törədilən terrorizmin ən dəhşətli nümunəsidir. Xocalı faciəsi sıralarında 106 qadın və 23 uşaq olmaqla 613 nəfərin qətli ilə nəticələndi. 487 nəfər əlil oldu, 1275 nəfər erməni girovluğunun dəhşətli səhnələrini yaşadı. 150 nəfərin taleyindən indiyə kimi də bir xəbər yoxdur. Xocalı soyqırımını erməni terrorçu dəstələri, tərkibi erməni gizir və zabitlərindən ibarət olan keçmiş sovet ordusunun 366-cı alayı ilə birgə törətdilər. Bu faciə zamanı törədilən vəhşilikləri sözlə təsvir etmək mümkün deyil. Bütöv ailələrin məhv edilməsi, insanların diri-diri yandırılması, öldürülən azərbaycanlıların cəsədlərinin belə təhqir olunması, insanların qulaqlarının kəsilməsi, dərisinin soyulması, bir neçə azyaşlı uşağın başının kəsilməsi, hamilə qadınların qarnını süngülərlə deşib, bətnindən körpənin çıxarılması - bu faktlar faşizmin əlamətləridir.



Erməni terror təşkilatı ASALA-nın fəal yaraqlılarından olan Vazgen Sisinyan Xocalıda azərbaycanlı körpələrin öldürülməsində iştirakını etiraf etməkdən belə çəkinməyib. Xocalı soyqırımında iştirakı təsdiqlənən, 1988-ci ilin 18 fevralında Xankəndi ermənilərinin Xocalıya basqınına bilavasitə rəhbərlik edən, terror hərəkətləri nəticəsində Ermənistan Respublikasının prezidenti olan Robert Köçəryan Vazgen Sisinyana Qarabağ müharibəsinin qəhrəmanı adını verib.

Xocalı soyqırımında iştirak etmiş Davud Xeyriyan kitabında yazır: "Martın 2-də erməni "Qaflan" qrupu 100-dən artıq azərbaycanlının meyitini toplayıb, Xocalının təxminən 1 km qərbində yandırdı. Mən maşına daşınan meyitlərin içərisində əlindən və alnından yaralanan 10 yaşlı qızcığazı gördüm. Üzü artıq göyərmiş olan bu uşaq aldığı yaralara, soyuğa və aclığa baxmayaraq hələ sağ idi. O, asta-asta nəfəs alırdı. Mən ölümlə mübarizə aparan bu körpənin gözlərini unuda bilmirəm... Tezliklə Tiqranyan adlı əsgər bu hərəkətsiz qalmış qızcığazı götürərək meyitlərin üstünə atdı. Sonra onları yandırdı. Mənə elə gəlir ki, yanan cəsədlər arasında kimsə qışqırır, xilas üçün kömək istəyirdi. Bundan sonra mən irəli gedə bilmədim".

Bu, erməni Davud Xeyriyanın insanlıq və həqiqət qarşısında dəhşətli etirafıdır. Yüzlərcə belə vəhşiliyin, faktın şahidi olan xocalılar bu gün də o müdhiş gecənin vahiməsindən, təlatümündən xilas ola bilməyib. Çoxu psixoloji sarsıntılara duruş gətirə bilməyərək dünyasını dəyişib, bəziləri ruhi xəstəliyə mübtəla olub, bəziləri isə qarlı gecədə aldıqları gülləri indiyə qədər bədənlərində gəzdirməkdədirlər. Onlar Azərbaycanın 49-dan çox rayonuna dağılıb, pərən-pərən düşüblər.

"Ermənilər ayağımdan vurdular". Bunu güllə yarası almış 4 yaşlı Fuad Gülməmmədov söyləyib. 10 yaşlı Ramil Həsənov erməni basqınından, vəhşiliyindən yaxa qurtararaq, anası ilə üç gün Kətik meşəsində qalandan sonra Ağdama gəlib çıxıb. "Er-



Azərbaycan Milli Kitabxanası

mənilər gələndə anamla meşəyə qaçdım. Üç gün idi ki, ac-susuz qalmışdıq. Susuzluqdan ölürdüm. Çoxlu qar yemişdim" - söyləyən Ramil sonralar psixoloji gərginlikdən, vahimədən özünə gələ bilmirdi. Bu vəhşiliklərə bəşəriyyət, tarix haqq qazandırmaz və qazandırmır da.

MTN-in arxivləri əsasında hazırlanan "Erməni cinayətləri" kitabında vandallar tərəfindən yaradılmış 6 qadın və uşaq əsir düşərgələri haqqında məlumat verilir. Vardanes, Razdan, Xankəndi uşaq düşərgələrində üst-üstə 610 nəfər uşaq, Keçaşin, Çermuk, Kəlbəcər qadın düşərgəsində qadınlar saxlanır. Bu faktlar beynəlxalq hüquq müdafiə təşkilatlarına, sərhədsiz həkim və reportyor birliklərinə təqdim olunsa da, hələlik heç bir tədbir görülməyib. Yenə də erməni hiyləsi öz işini görməkdədir. Düzdür, 1993-cü ildə ABŞ Konqresi Xocalı soyqırımını "İlin faciəsi" kimi qəbul etdi. Onlarca ölkədə erməni lobbisinin təzyiq və hədələrinin özünü göstərməsinə baxmayaraq, bu faciə dünyanı sarsıdan olay kimi diqqətdə saxlandı. "Vaşinqton-Post", "Fayneyşnl Tayms" qəzetləri erməni yaraqlılarının törətdiyi cinayət faktlarına diqqət ayırıb müxtəlif səpkili materiallar çap etdirdilər.

Qanlı olayları gözləriylə görüb lentə alan fransalı Jan-iv-Yunet yazır: "Biz Xocalı faciəsinin şahidi olmuşuq. Yüzlərlə meyit gördük. Onların arasında qadınlar, qocalar, uşaqlar və Xocalının müdafiəsində duran adamlar var idi. Bizim ixtiyarımıza vertolyot verildi. Hündürlüyə qalxaraq havada gördüklərimizi kameraya çəkirdik, Xocalı və onun ətrafını lentə alırdıq. Bu zaman erməni hərbi birləşmələri bizim vertolyotu atəşə tutdular və biz məcburiyyət qarşısında qalaraq, çəkilişi yarımçıq qoyub geri qayıtdıq. Mən müharibə haqqında çox eşitmişəm. Alman faşistlərinin qəddarlığı barədə oxumuşam, ancaq ermənilər dinc əhalini və hətta 5 - 6 yaşlı uşaqları belə öldürməklə vəhşilikdə onları arxada qoymuşdular. Biz xəstəxanada, vaqonlarda, hətta



uşaq bagçaları və məktəb otaqlarında çoxlu sayda yaralılar gördük".

Başları kəsilmiş insan cəsədləri. Bu mənzərəni çalışdığı "İzvestiya" qəzetində V.Bellax belə qələmə alır:

"Zaman-zaman Ağdama meyitlər gətirilirdi. Tarixdə belə şeylər görünməmişdi. Meyitlərin gözləri çıxarılmış, qulaqları və başları kəsilmişdi. Bir neçə meyit zirehli maşınlara qoşularaq sürüklənmişdi. İşgəncələrin həddi-hüdudu yox idi".

Xocalı faciəsi dünya soyqırımları ilə bir sırada dayanan, erməni terrorizminin mahiyyətini bütövlükdə ortaya qoyan beynəlxalq cinayət faktıdır. Bu faktın dünyaya və Azərbaycanın taleyi olan gələcək nəsillərə çatdırılması üçün çox işlər görülməlidir. Dünya Xocalı soyqırımını bu qəbildən olan Xatın, Naqasaki kimi faciələrlə bir sırada qəbul etməlidir.

Xalqımızın başına gətirilən erməni terrorizmi, soyqırım hərəkətləri öyrənilərək gələcək nəsillərə çatdırılmalıdır. Əslində taleyimizlə bağlı bir sıra mühüm məsələlər kimi, əsrlər boyu bizə qarşı törədilmiş soyqırım aktlarının da bütün dünyanın diqqətinə çatdırılması, bu faciələrin gələcək nəsillərin yaddaşına ötürülməsi, onlara dost və düşmənlərimizin nişan verilməsi, erməni mifinin dağıdılması işində çox gecikmişik.

Amma ötən illərdə bu istiqamətdə xeyli işlər görüldü. Xalqımızın tarixində və taleyində yaşanmış faciələrə 85 il gecikəndən sonra nəhayət ki, sahib çıxdıq. Ümummilli lider Heydər Əliyev 1998-ci ildə "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzalayaraq əsrlər boyu Azərbaycan xalqına qarşı törədilmiş cinayətləri ictimai-siyasi fikrin diqqət mərkəzinə gətirdi.

Bu fərmanda da göstərildiyi kimi **"Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna, mənliyinə qarşı yönəlmiş böhtanlar və hərbi təcavüz üçün ideoloji zəmin hazırlanmış, xalqımıza qarşı aparılan soyqırım siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar təhrif olunmuş, icti-**



Azərbaycan Milli Kitabxanası

**mai fikir çaşdırılmışdır. Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhda böyüməlarinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılmışdı. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalmışdır".**

Heç şübhəsiz ki, bütün bunların qarşısını almaq üçün ən düzgün yol lüzumsuz və zərərli təvazökarlığı bir tərəfə atmaq, hər şeyi xalqımıza, həm də bütün dünyaya olduğu kimi çatdırmaqdan ibarətdir.



## *Azərbaycan türklərinin soyqırım salnaməsindən bəzi məqamlar*

**Meydandan /Quba meydanı/ Nikolayevski /İstiqlaliyyət/ küçəsinə qədər Bazar küçəsi /H.Hacıyev/ tamam yandırılmışdı. Uşaq, böyük, arvad, kişi heç kəsə fərq qoyulmadan qətl edirdilər. Müsəlmanların ev, dükan və mağazaları yandırılmışdı. Bir müsəlman həyatinə daxil olub burada 30-dan 40-a qədər uşaq, arvad və kişi meyitləri gördüm"**

**"Azərbaycan" qəzeti**
**1918-ci il aprel ayı**

Azərbaycan torpaqlarına qəsd edən qüvvələr "dənizdən-dənizə böyük Ermənistan" xülyasının gerçəkliyə çevrilməsi üçün iki əsrdən artıqdır ki, türk dünyasına qarşı açıq və gizli soyqırım siyasəti həyata keçirirlər. "Böyük Ermənistan" adlanan bu xülya, erməni utopiyası nəinki Azərbaycana, ümumilikdə türklərə qarşı çevrilmiş məkrli ərazi iddialarıdır.

Erməni daşnakları 1919-cu ildə böyük dövlətlərin Paris konfransına təqdim etdikləri memorandumda gələcəkdə yaranacaq erməni dövlətinin tərkibinə aşağıdakı əraziləri daxil etmişlər: Zaqafqaziya respublikaları /İrəvan quberniyası, Yelizavetpol quberniyasının cənub-qərb hissəsi/, Türkiyənin yeddi vilayəti /Van, Bəhəş, Diyarbəkir, Harberd, Sebastiya, Diyarbəkirin cənubunu və Sebastiyanın qərb hissəsini çıxmaqla, Tranurund/, Klikiyanın dörd hissəsi /Mərki, Sil, Cəlal-Bərəkət, Aleksandrata ilə birlikdə Adana/.

Bir sözlə, onlar Qara dənizdən tutmuş Aralıq dənizinə, Azərbaycanın Qarabağ ərazilərindən ta Səudiyyə Ərəbistanının qumsallıqlarına qədər ərazilərə iddialıdırlar. Bu fikirlər indi də er-



Azərbaycan Milli Kitabxanası

mənilərin beynindədir. Həmin siyahıya günü-gündən yeni ərazilər də əlavə olunur. Separatçılar bütün Şimali Qafqaz xalqlarının torpaqlarını, hətta Moldova dövlətinin Dubosari rayonunu da əlavə edərək Polşada erməni yaşayış məntəqələri axtarırlar. Bu "plan"ın siyasi-ideoloji əsasları 1890-cı ildə yaradılan "Daşnaksütyun" Partiyası tərəfindən işlənib hazırlanıb.

"Daşnaksütyun" Partiyası mahiyyətində terror dayanan proqram və şüarlar arxasında gizlənərək, Türkiyənin erməni vətəndaşlarını üsyan və terrorçu aktlar törətmək yolu ilə "azad etmək, həmçinin böyük torpaqlar ələ keçirmək planlarını reallaşdırmaqla "Böyük Ermənistan" yaratmaq arzusundadırlar. Tarixi sənədlərdən aydın olur ki, 1908-ci ildə bu partiya Rusiya, Türkiyə və dünyanın bir sıra başqa dövlətlərində möhkəmlənərək, öz sıralarında 165 min üzvü birləşdirirdi.

Qafqazın Rusiya imperiyası tərəfindən işğalından və xüsusilə Bakı, Dərbənd, Lənkəran, Gəncə, Qarabağ, Naxçıvan, İrəvan xanlıqlarının ləğvindən sonra əzəli Azərbaycan torpaqlarında ardıcıl olaraq ermənilərin kütləvi yerləşdirilməsi və azərbaycanlıların elliklə qovulması prosesi başlanır. Bu məqsədlə erməni vilayəti deyilən xüsusi inzibati bölgə yaradılır və sonra o, İrəvan quberniyasına çevrilir. Quzey Azərbaycan xalqı isə beş yerə - quberniyalar arasında parçalanaraq əyalət müstəmləkələri çərçivəsində amansız erməni və Çar Rusiyasının zülmü altına düşür.

Tarixi faktlar göstərir ki, yalnız 1828-1829-cu illərdə indiki Ermənistan adlandırılan torpaqlara Yaxın Şərq ölkələrindən 130 min, sonrakı dövrlərdə isə 600 min erməni köçürülmüşdür. Bu yolla diyarın əhalisi 1831-ci ildə 161,7 min nəfərdən 1914-cü ildə 1 milyon 14 min nəfərə çatdırılmışdır. Eyni zamanda həmin ərazidən üst-üstə götürüldükdə 1,5 milyon azərbaycanlı qovulmuşdur.

1905-1907 və 1914-1920-ci illərdə ermənilər tərəfindən qanlı qırğınlar törədilmiş, təxminən yarım milyon insan erməni terrorunun qurbanı olmuşdur.



Tarixi qaynaqlara əsasən demək olar ki, erməni tacirlərinin puluna həvəs göstərən rus məmurları XIX əsrdə Pəmbək bölgəsinin Qarakilsə və Hamamlı rayonlarında 57 Azərbaycan kəndinin 48-də əhali təzyiq və təqiblər yolu ilə tarixi məskənlərindən didərgin salınıb. Bir əsrdən sonra, 1988-ci ildə bu bölgədə yalnız 9 azərbaycanlı kəndi mövcudluğunu qoruyub saxlamışdı ki, bu kəndlərin əhalisini də soyqırıma məruz qoyaraq deportasiya etmişdilər.

1905-ci ildə ermənilərin türklərə qarşı törətdikləri qanlı faciələr demək olar ki, Azərbaycanın hər bir bölgəsini əhatə etmişdi. Vaxtilə Xankəndində doğulub boya-başa çatmış və 1905-ci il qırğınlarının şahidi olmuş Ohanis Apresyan xatirələrində qeyd etmişdir: "Rus kazak birlikləri... qan çıxarmaq üçün alət rolunu oynayır, türklərlə erməniləri bir-birinə qarşı qoyurdular".

Ohanis xatırladır ki, Qarabağda guya sakitliyi bərpa etmək üçün gəzən atlı kazaklar biz ermənilərə deyirdilər ki, gündüz vaxtı biz öz vəzifəmizi yerinə yetiririk. Sizin türklərə hücum etməyinizə göz yuma bilmirik. Amma axşama doğru vəzifəmiz bitir. Evlərdə qonaq oluruq. Sizin bayırda nə iş görməyiniz daha bizi maraqlandırmır. Bu sözdən sonra bizimkilər silahlanaraq türk məhəllələrinə hücum etdilər... Qapılar qırıldı və evlərdəki ən son türk öldürülənə qədər qırğın davam etdi... Fəryad səsindən qulağımı tıxamağa məcbur olmuşdum". Daşnaklar İrəvan quberniyasında bütün Azərbaycan kəndlərini iflic edərək türkdilli əhalinin növbəti deportasiya axınını yaratdılar. 1905-ci ildə soyqırım faktlarından birini nümunə gətiririk. Qusarlı kəndindən qonşu erməni kəndi Zənciyə taxıl almağa gedən 28 nəfəri kənd keşişinin göstərişi ilə öldürüb meyitlərini quyuya doldurmuş, onların araba və öküzlərini mənimsəmişdilər.

Pəmbəkdə azərbaycanlılara hücum etməkdən ehtiyatlanan, pusquda dayanmaqda mahir olan ermənilər yolda, izdə, çöldə, yaylaqda rast gəldikləri müsəlmanları güllələyib qətlə yetirirdi-



Azərbaycan Milli Kitabxanası

lər. Bu minvalla Saraldan 5, Arçutdan 6, Gözəldərədən 7, Hallavardan 12, Pəmbəkdən 16 nəfər azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmişdir. Pəmbək mahalında 1918-ci ildə başlanan soyqırımı aktlarının ardı-arası demək olar ki, kəsilməyib. Qafqaz cəbhəsində rus ordusunun silahlarına sahib olan ermənilər azərbaycanlı kəndlərini ağır artilleriya atəşlərinə məruz qoyur, sakinləri dağlara, qayalıqlara qaçmağa məcbur edirdilər. Arçut kənd sakinlərinin məlumatına görə, ermənilər Arıqölən çökəkliyində 30 südəmər uşağı süngü ilə qətlə yetirmişlər. Qırğınların ən dəhşətlisini ermənilər Pəmbək kəndində həyata keçirmişlər. 1918-ci ilin Novruz bayramı günü gözlənilmədən erməni hərbi yaraqlıları kəndi qəflətən mühasirəyə alaraq iclas adı ilə 13 yaşından yuxarı 411 kişini qoyun yatağına toplamışdılar. Sonra onlar qapı-bacanı bağlamış, əvvəlcə gülləbaran etmiş, sonra isə bacalardan neft töküb od vurmuşlar. 411 nəfər kişidən yalnız 1 nəfər qaçıb canını qurtara bilmişdi. Ümumiyyətlə, Pəmbək mahalında 9 azərbaycanlı kəndində həmin vaxt min nəfərdən çox azərbaycanlı qətlə yetirilmişdir. 1918-20-ci illərdə təkcə Arçut kəndində 60 nəfər həlak olmuşdur. Onlardan 12 nəfərinin başı kəsilmişdir. Həmçinin 1918-ci ilin Novruz bayramı günündə ermənilər Əştərək yaxınlığındakı Gözəldərə kəndinə basqın etmişlər. Kəndin 600 nəfərdən çox sakini qətlə yetirilmiş, kəndi tamam yandırmışlar. Bu facia Xatın və Xocalı soyqırımı ilə müqayisə edilə bilər. Hazırda həmin kənddən xarabalıq nişan qalıb. Kənddən yalnız 3 nəfər qaça bilmişdir. I Dünya müharibəsi dövründə /1914-1918/ indiki Ermənistan ərazisindən elə azərbaycanlı ailəsi tapılmazdı ki, erməni təcavüzünə məruz qalmamış olsun.

1918-ci il martın əvvəlində Bakı artıq barıt çəlləyini xatırladırdı. Partlayış üçün kiçicik bir qığılcım kifayət idi. Belə bir qığılcım köhnə təqvimlə martın 18-də, /martın 29-da/ alışdı. Bakı Soveti keçmiş "Dikaya dviziyanın Lənkərana yola düşməyə hazırlaşan, müsəlmanlardan, əsasən də azərbaycanlılardan ibarət "Evelina" gəmisində 50-yə yaxın əsgərin tərksilah edilməsi əmrini verdi. Bu sərəncam yerli əhalini qəzəbləndirdi. Uzunmüddətli danışıqlardan sonra azərbaycanlı əsgərlər asayişin təmin olunması naminə silahlarını təhvil verdilər. Lakin buna baxmayaraq martın 30-da Bakıda kortəbii mitinqlər başlandı. O zaman da ermənilər tərəfindən hazırlanmış məkrli təxribatların qarşısını almaq mümkün olmadı. Günortaya yaxın Qırmızı ordu patrullarının naməlum şəxslər tərəfindən atəşə tutulması şəhərin azərbaycanlı əhalisi üzərinə hücumun başlanması üçün siqnal rolunu oynadı. Stepan Şaumyan özü etiraf edərək yazırdı: "Biz ilk ələ düşən bəhanədən, atlı dəstəmizin üzərinə ilk basqın cəhdindən istifadə etdik və bütün cəbhə boyu hücuma keçdik. Bizim /yəni Bakı Sovetinin - A.A./ yaxşı silahlanmış 6 min nəfər əsgərimiz vardı. Üstəlik, "Daşnaksütyun"un 3-4 min nəfərlik silahlı milli hissələri də bizim sərəncamımızda idi. Sonuncuların vətəndaş müharibəsində iştirakı bu müharibəyə müəyyən dərəcədə milli qırğın xarakteri verdi. Lakin bu milli qırğından qaçmaq mümkün deyildi. Biz şüurlu şəkildə buna gedirdik. Əgər Bakını ələ keçirsəydilər, şəhəri dərhal Azərbaycanın paytaxtı elan edəcəkdilər".

M.Ə.Rəsulzadə özünün "Azərbaycan Cümhuriyyəti" əsərində Bakı ətrafında yaranan və mart qırğını ilə nəticələnən vəziyyəti xatırlayaraq belə yazırdı: "Bakı türk milliyyətpərvərliyinin mərkəzi idi. Rus partiyası bulunan bolşevik firqəsi bu mərkəzi dağıtmaq istiyordu. Bu xüsusda o, Rusiyanın türklərə qarşı ənənəvi bir müttəfiqi olan erməniləri buluyordu. Həqiqətən, mart hadisələri əsnasında vücudə gələn qətl bir sinif mübarizəsinə qətiyyən bənzəmiyordu. Bu hər hankı bitərəf bir müşahid nəzərində bir surətdə təzciyəsindən başqa bir şey deyildir".

1918-ci ilin 18-21 mart tarixində Bakını ələ keçirən Şaumyanın rəhbərlik etdiyi erməni milli komitəsi və daşnak və bolşe-



Azərbaycan Milli Kitabxanası

viklərin hərbi birliyinin nəticəsində 30 min Azərbaycan türkü qətlə yetirildi. Azərbaycanın faktiki olaraq mərkəzi Bakı ilə yanaşı Şamaxı, Kürdəmir, Lənkəran, Salyan, Quba və Nəvahi qəzalarında da silahsız azərbaycanlılara saysız-hesabsız itkilər yaşatdılar. Təkcə Bakı şəhərinin Dağüstü parkında 18 min nəfər mart soyqırımı qurbanı dəfn edilmişdi.

Daşnakların avantürist "təmizləmə" /türksüzləşdirmə/ siyasəti nəticəsində 1918-ci ildə Ermənistanda yaşayan 575 min azərbaycanlı 1920-ci ildə 11 minədək azalmış, onların 98 faizi qırılmış və qovulmuşdur. Lakin sonrakı illərdə azərbaycanlıların qismən geri qayıtmasına və 1979-cu ildə 161 min nəfərə çatmasına baxmayaraq, bu etnos heç vaxt əvvəlki sayını bərpa edə bilməmiş və əvvəlki sayla müqayisədə 3,5 dəfə azalmışdır. Bunun əksinə, Azərbaycanda gəlmə ermənilər məskunlaşaraq, 1922-ci ildəki 240 mindən 1970-ci ildə 483,5 min nəfərədək, yəni 2 dəfədən çox artmışdır.

1918-1920-ci illərdə bütün Ermənistanda azərbaycanlıların başına olmazın müsibətlər açılmış, günahsız adamlar, qadın və uşaqlar ağlasığmaz işgəncələrlə qətlə yetirilmişlər. Erməni, gürcü, azərbaycanlı və türk mətbuatının etirafına görə, İqdır və Eçmiədzin qəzalarında 60 kənd və onların bütün kişiləri, Göyçə mahalında 22 kənd və 60 min adam, Yeni Bəyaziddə 84 kənd və 15 min ev, İrəvan qəzasında bütün kəndlər, Eçmiədzin və Sürməli qəzalarında 996 kənd və qəsəbə, Zəngəzur qəzasında 115 kənd və 10 minə yaxın adam, o cümlədən 4,472 qadın və uşaq məhv edilmişdir. 1919-cu ildə İrəvan quberniyası müsəlmanlarının amerikalılara müraciətində deyilir ki, 88 kənd dağıdılmış, 1.920 ev yandırılmış, 131.970 kişi öldürülmüşdür. Həmin illərdə Qarabağın dağlıq və dağətəyi hissəsində 150-yə yaxın müsəlman kəndi xarabalığa çevrilmiş, bütün əhalisi qarət edilmiş, bir hissəsi qırılmış, qalanı isə silahla qovulmuşdur.

1920-ci ilin mayında ermənilərin bilavasitə köməyi ilə təca-



vüzkar XI Qızıl Ordu Gəncədə 12 mindən çox azərbaycanlı qırmışdır.

Araşdrmalar göstərir ki, yalnız bu əsrin birinci rübündə Zaqafqaziyada baş vermiş iki qırğın zamanı öldürülən, yaralanan, zorla qovulan, erməni terrorundan maddi zərər çəkən azərbaycanlıların, digər millətlərin sayı 2 milyona yaxındır. Dinc Azərbaycan əhalisini 1907-ci ildə 100 minlik "Zinovarlar" deyilən erməni ordusu, 1918-ci ildə Bakıdakı daşnak alayları, Qarabağda və Zəngəzurda erməni "Çetnik" və "Xmbabet" hərbi-terror dəstələri, 1920-ci ildə andranikçilərin bədnam "könüllülər korpusu" və daşnak hökumətinin 40 minlik silahlı qüvvələri qarət və təqib etmişlər.

232350

Milli qırğın 1920-ci ildə ümumi sahəsi 9.800 kvadratkilometr olan əzəli Azərbaycan ərazisinin - Yeni Bəyazid qəzasının Basarkeçər mahalının, İrəvan qəzasının Vedibasar mahalının, Gəncə quberniyasının Zəngəzur qəzasının Ermənistana ilhaq edilməsi ilə nəticələnmiş və bu, qəsbkarların yeni torpaq iddialarına rəvac vermişdir.

Şaumyan, Mirzoyan, Mikoyanın dəstəsi başda olmaqla erməni mənşəli rəhbər işçilər uzun illər boyu respublikada antitürk xətti həyata keçirərək xalqımıza böyük ziyan vurmuşlar. Onların xain əməlləri sayəsində Stalin - Beriya repressiyaları Azərbaycanda çox ağır keçmişdir. Totalitar rejim dövründə yüz minlərlə azərbaycanlı, xüsusilə ziyalılar "xalq düşməni", "qolçomaq", "millətçi", "pantürkist", "panislamist" və s. damğalarla təqib edilmiş, güllələnmiş, Sibirə, Qazaxıstana, Orta Asiyaya sürgün olunmuşdur.

Ermənistanda azərbaycanlıların mədəniyyət və tarixi abidələri dağıdılmış, məscidləri uçurulmuş, 2 minə yaxın yaşayış yerinin, türk mənşəli toponimlərin, o cümlədən 1935-1973-cü illərdə 465, 1991-ci ilin aprelində isə 97 kəndin adı dəyişdirilmişdir. 1947-1951-ci illərdə "pambıq istehsalını genişləndirmək" bəha-



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

nəsi ilə Ermənistanda dağlıq ərazidə yaşayan 150 min azərbaycanlı məcburi olaraq Muğan və Mil düzlərinə köçürülmüşdür. Ermənistanı monoetnik respublikaya çevirmək prosesi sonrakı illərdə müxtəlif üsullarla davam etdirilmişdir.

1989-ci ilin yanvarından başlayaraq fitnəkar antitürk və antimüsəlman əhval-ruhiyyəsi açıqcasına qızışdırılmış, Qafan, İrəvan, Masis, Dilican, Sisyan, Kirovakan, Quqark və başqa yaşayış məntəqələrində kütləvi vandalizm aktları törədilmişdir. Nəticədə 225 nəfər həlak olmuş, 1154 nəfər yaralanmış, 230 min nəfər, o cümlədən 15 min kürd və bir neçə min rus qaçqın düşmüşdür. Ermənilər məkrli monoetnik respublika yaratmaq məqsədlərinə nail olmuşlar. Bu gün bütün Ermənistanda bir nəfər də azərbaycanlı qalmamışdır.

Eyni zamanda Qarabağda və ətraf bölgələrdə Azərbaycan xalqına qarşı cəza aksiyaları həyata keçirilmişdir. 1990-cı ilin 19 yanvarından 20 yanvarına keçən gecə Bakı şəhərinə imperiya qoşunları yeridilmiş, dinc əhali güllələbaran olunmuş, 20 Yanvar faciəsində 150-yə yaxın dinc vətəndaş öldürülmüş, itkin düşmüş, yaralanaraq əlil olmuş, respublika ərazisində uzun müddət hərbi komendant rejimi, kütləvi həbslər və digər qeyri-qanuni qadağanlar tətbiq edilmişdir ki, bu faciədə də ermənilərin əl izləri görünür.

Atəşkəs dövrünə qədər erməni ordusu tərəfindən Azərbaycana məxsus 870 yaşayış məntəqəsi, 10 rayon məhv edilmişdir. Erməni qəsbkarları tərəfindən 43666 inzibati obyekt, 1145 uşaq bağçası, 1831 kinoteatr, 982 kitabxana, 862 mədəniyyət mərkəzi və mədəniyyət evləri, 695 orta məktəb, 200-ə qədər tibb ocağı, 22 muzey və 1 ali tədris müəssisəsi, 7 min sənaye və tikinti obyekti, kolxoz və sovxozlar, ticarət binaları, 9 min kvadratkilometr yaşayış ərazisi viran qoyulmuşdur. İşğalçı Ermənistan ordusu zəbt edilmiş ərazilərdə xalqımızın milli-mənəvi irsinin tərkib hissəsi olan mühüm mədəniyyət, tarixi və dini abidələri



məhv etmişdir. İşğal olunmuş ərazilərdə 32 məscid, 44 kilsə, 21 tarixi abidə, 13 qüllə, 22 kurqan, 8 körpü, 9 saray, 4 qızıl mədəni, 2 qranit və daş karxanası: karvansara, 2 dövlət qoruğu məhv edilmişdir. 808 mədəniyyət mərkəzi, o cümlədən 85 musiqi məktəbi, onlarla rəsm qalereyası, istirahət parkı, teatrlar və konsert zalları erməni qəsbkarları tərəfindən dağıdılmışdır.

Bütün postsovet məkanında yeganə olan Ağdam Çörək Muzeyi darmadağın edilmişdir. Kəlbəcər muzeyinin 13 min, Laçın Tarix Diyarşünaslıq Muzeyinin isə 45 min qiymətli eksponatı Ermənistana daşınmışdır. Habelə Şuşa Tarix Muzeyinin 500, Azərbaycan Dövlət Xalçaçılıq və Xalq Yaradıcılıq Muzeyinin Şuşa filialının eksponatları, Qarabağ Tarix Muzeyinin 1000, dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun muzeyinin 300, vokal sənətinin görkəmli nümayəndəsi Bülbülün muzeyinin 400, görkəmli musiqiçi və rəssam Mir Möhsün Nəvvabın muzeyinin 100, Ağdam Tarix-Diyarşünaslıq Muzeyinin 2000, Qubadlı Tarix-Diyarşünaslıq Muzeyinin 3000, Zəngilan Tarix-Diyarşünaslıq Muzeyinin 6000 eksponatı qarət edilmişdir. Ağdamda Qurban Pirimovun muzeyi və Rahib Məmmədovun hərbi muzeyi məhv edilmişdir. Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrindən olan Vaqifin, Natəvanın, Ü.Hacıbəyovun, Bülbülün, əmək qəhrəmanı S.Vəzirovun, müharibə qəhrəmanı L.Vəzirovun abidələri dağıdılmışdır. 982 kitabxana və 5 kitab fondunun 6 milyon nümunəsi yandırılmışdır.

Bir əsr bundan əvvəl güclü havadarları tərəfindən müsəlmanlara qarşı dəhşətli silah kimi düşünülmüş erməni terrorizmi heç bir sərhəd tanımır. Bu silah tək Azərbaycanda deyil, bir çox başqa ölkələrdə də yüzlərlə günahsız insanların ömürlərini qırıb. Bu silah zaman-zaman mülki təyyarələrə və vertolyotlara, sərnişin qatarlarına, avtobuslara, gəmilərə, metro vaqonlarına yönəlib, əhalinin sıx olduğu ictimai yerlərdə, müəssisələrdə, evlərdə, diplomatik nümayəndəliklərdə bu silah işə salınıb.



Azərbaycan Milli Kitabxanası

Erməni terror təşkilatlarının törətmiş olduqları terror aksiyalarına tarixi ardıcıllıqla qısa şəkildə nəzər salaq: 16 sentyabr 1989-cu il - "Tbilisi-Bakı" sərnişin avtobusu partladılmış, 5 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır; 10 avqust 1990-cı il -"Tbilisi- Ağdam" sərnişin avtobusu partladılmış, 20 nəfər həlak olmuşdur; 30 may 1991-ci il - Rusiya Federasiyası Dağıstan Respublikasının Xasavyurd stansiyası yaxınlığında "Moskva-Bakı" sərnişin qatarı partladılmış, 11 nəfər həlak olmuş, 22 nəfər yaralanmışdır; 31 iyul 1991-ci il - Dağıstan Respublikasının Temirtau stansiyası yaxınlığında "Moskva-Bakı" sərnişin qatarı partladılmış, 16 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır; 8 yanvar 1992-ci il - Krasnovodsk-Bakı marşrutu ilə sərnişin daşıyan gəmi-bərədə törədilmiş terror aktı nəticəsində 25 nəfər həlak olmuş, 88 nəfər yaralanmışdır; 1992-ci il fevralın 26-da isə tarix qarşısında dəhşətli cinayət törədilmişdir - Xocalı şəhərinin 2 mindən artıq dinc sakini hərbi canilər tərəfindən soyuqqanlılıqla güllələnmiş, yaralanmış və əsir götürülmüşdür. 10 minə yaxın adamın evləri dağıdılmış, onların sahibləri qaçqın kimi başqa yerlərə səpələnmişdir.

28 fevral 1992-ci il - Rusiyanın Şimali Qafqaz ərazisində Qubermes stansiyası yaxınlığında "Kislovodsk-Bakı" sərnişin qatarı partladılmış, 1 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır; 2 iyun 1993-cü il - Bakı dəmir yolu vağzalında sərnişin qatarının vaqonu partladılmış, dövlətə külli miqdarda maddi ziyan dəymişdir; 1 fevral 1994-cü il - Bakı dəmir yolu vağzalında "Kislovodsk-Bakı" sərnişin qatarında terror aktı törədilmiş, 3 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır; 2 fevral 1994-cü il - Azərbaycan Respublikasının Xudat stansiyasında ehtiyat yolda dayanan yük vaqonu partladılmış, dövlətə külli miqdarda ziyan dəymişdir; 19 mart 1994-cü il - Bakı Metropoliteni "20 Yanvar" stansiyasında törədilmiş partlayış nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər yaralanmışdır; 13 aprel 1994-cü il - Dağıstan Respublikasının "Daqestanskie oqni" stansiyası yaxınlığında "Moskva-Bakı" sərnişin qatarı partladılmış, 6 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır; 3 iyul 1994-cü il - Bakı Metropoliteninin "28 May" və "Gənclik" stansiyaları arasında qatarda partlayış törədilmiş, 14 nəfər həlak olmuş, 54 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

Bu siyahını kifayət qədər uzatmaq olar.





Azərbaycan Milli Kitabxanası

**Bilmirəm bu nə istisnalardır ki, erməni millətinə məxsusdur?! Xristian olub rus ilə həmmillət olmaları, mədəni və dövlətli olmaları bəs deyil, gərək terrorları da olsun! Bizim də terrorlarımız ola bilər. Bu mauzer tüfəngləri saxlayıb bomba ata bilərik, biz ermənilərdən yaxşı məntiq sahibləriyik, qubernator da öldürə bilərik. Lakin biz bunların heç birisini etmirik, çünki bu bir rəzil, alçaq, səltənətə layiq olmayan işlərdir.**

**Kərbalayı İsrafil Hacıyev**

## *Bağanıs-Ayrım soyqırımı*

Xocalını yerlə-yeksan edərək yer üzündən silən, yüzlərlə insanı vəhşicəsinə qətlə yetirən erməni terrorçu dəstələri, Xocalı soyqırım faktından iki il öncə Qazax rayonunun Bağanıs-Ayrım kəndini də eyni aqibətlə üz-üzə qoydu. Bu qətliama gedən yol Meşəlinin, Malıbəylinin, Kərkicahanın, Həsənabadın, Quşçuların, Qaradağlının işğalından, torpaqlarının göyə sovrulmasından, yüzlərlə insanın vəhşiliklə öldürülməsindən başlamadı. Bağanıs-Ayrımdan başladı bu yol...

Ərazi və əhalisinə görə kiçik bir türk kəndi olan Bağanıs-Ayrım 1990-cı ilin mart ayının 24-də axşam saat 7 - 8 radələrində erməni quldurlarının basqınına məruz qaldı. Nəticədə kəndin böyük bir hissəsi yandırıldı, 7 nəfər vəhşicəsinə qətlə yetirildi. Xocalıda törədilən qanlı olayın ilkin ssenarisi Bağanıs-Ayrımda həyata keçirildi.

Hadisəni araşdıran istintaq komissiyasının təhqiqatları nəticəsində bəlli olub ki, müxtəlif odlu silahlarla yaraqlanmış 3 erməni quldur dəstəsi ayrı-ayrı istiqamətlərdən kəndə qəflətən basqın edərək kənd sakinləri - 1915-ci il təvəllüdlü Əsliyev Dədəkişi Bayram oğlunu və onun ailə üzvləri - 1923-cü il təvəllüdlü



Əsliyeva Pakizə Qulu qızını, 1959-cu ildə doğulan Əsgərova Havaxanım Dədəş qızını, 1963-cü il təvəllüdlü Adgözəlova Alya Dədəş qızını, 1990-cı ilin fevral ayında anadan olan südəmər körpə Adıgözəlov Hafiz Ramiz oğlunu, digər kənd sakinləri 1942-ci il təvəllüdlü Məhərrəmov Alməmməd Gülməmməd oğlunu və xidməti vəzifəsini həyata keçirən polis əməkdaşı Məmmədov Məcid Oqtay oğlunu qətlə yetirmiş, Adıgözəlov Mülkədar İsrafil oğlunu və polis əməkdaşı Əhmədov Zirəddin Musa oğlunu yaralamışlar. Bundan əlavə erməni quldurları kəndi talayaraq evləri yandırmışlar. Bağanıs-Ayrım kənd sakinlərinin cəsədlərinin tibbi ekspertizası zamanı əldə olunan rəylər Xocalıda törədilmiş vəhşiliklərlə təxminən üst-üstə düşür. Dədəkişi Əsliyevin tibbi ekspertizası nəticəsində bəlli olub ki, onun sol qulağı kəsilib götürülmüş, odlu silahla qətlə yetirildikdən sonra yandırılmışdır. Havaxanım Əsgərova qətlə yetirildikdən sonra onun sol qulağı kəsilib atılmışdır. Daxili orqanlarında 3-4-cü dərəcəli yanıqlar aşkar edilmişdir. Erməni quldurları 40 günlük körpəyə qarşı da xüsusi amansızlıq göstərərək bəşər tarixində görünməmiş vəhşilik törətmiş, südəmər körpəni güllələyərək yandırmışlar. Bələyi, əmziyi qana batmış körpənin bu sayaq qətli bəşəriyyəti lərzəyə gətirəcək dəhşətli faktlardan biridir. Körpə Hafizin timsalında bu vəhşiliyi ermənilər türklərin gələcəyinə qarşı törədib. Təəssüf ki, dünya türklərə qarşı törədilən soyqırım aktlarına münasibətdə hörümçək toru kimi gözləri pərdələmiş erməni mifini kənar etmək, ikili standartlardan əl çəkmək istəmir.

Bağanıs-Ayrımda törədilən bu dəhşətli olayı gözləri ilə görmüş Fərmuz Xanluman oğlu söyləyir ki, martın 23-də səhər saat 6 radələrində avtomat və karabin silahları ilə silahlanmış təxminən 150-200 nəfərdən ibarət erməni quldur dəstələri kəndə hücum etmişlər. Onların ardınca kəndə "Ural" markalı yanacaqdaşıyan maşın, "QAZ-66" markalı və iki təcili yardım maşını gəlmişdir. Maşınlar dayandıqdan sonra ermənilər vedrə



Azərbaycan Milli Kitabxanası

ilə "Ural" maşınından yanacaq daşıyaraq Adıgözəlov Ələddin, Məhərrmov Səməd, Məhərrəmov Əliməmməd və Əsliyev Dədəkişi adlı kənd sakinlərinin evlərini yandırmışlar. Erməni quldurları eyni zamanda polis əməkdaşlarını da qətlə yetirmişlər. Məhərrəmova Ofeliya Şəmsi qızının söylədiyinə görə, səhər saat 7 radələrində güllə səslərinə ayılaraq görüb ki, ermənilər kəndi mühasirəyə alaraq sakinləri odlu silahlardan atəşə tuturlar. Ofeliya Məhərrəmova, onun həyat yoldaşı Alməmməd, oğlu Vüqar, qaynı Səməd, onun həyat yoldaşı Gülşən dərhal çarpayının altında gizlənmişlər. Bir neçə dəqiqədən sonra ermənilər evə daxil olaraq onların var-dövlətini talayırlar. İnsan qanına susayan quldurlar 18 min rubl dövlət istiqraz vərəqələrini, 500 min rubl nəqd pulu, 1000 rubl dəyərində boyunbağı və qızıl zənciri, brilyant qaşlı digər zinət əşyalarını götürmüşlər. Erməni soyğunçuları əşyaları qarət edəndən sonra yorğan-döşəyə od vuraraq evi tərk etmiş və 50-100 metr aralıda yerləşən digər evləri yandırmışlar.



**"Erməni Daşnaksütyun komitəsinin məstəbid bir idarə üsulunu təşkil etmiş etdirmişdir ki, Qafqazda bir sıra qanlı terror oynandı"**

**M.S.Ordubadi**
**"Qanlı illər" əsərindən**

## *Yuxularımızın qədim şəhəri*

Türklərin yaratdığı qədim maddi-mədəniyyət nümunəsiydi Xocalı. Türkün tarixinin qədim zamanlarının qorunduğu, mühafizə olunduğu dünyanın ən qədim mərkəzlərindən olan bu şəhər təkcə son əsrdə bir neçə dəfə erməni terrorunun hədəfinə çevrildi. Tarixiliyi və zənginliyi paralel şəkildə özündə yaşadan "Xocalı" toponiminə fikir vermək gərəkdir. "Xoca" türkcə ağsaqqal, "böyük" mənasını daşıyaraq hörmət əlamətini bildirir. Bəli, təkcə Azərbaycan türklərinin deyil, dünyanın "ağsaqqal" şəhəriydi Xocalı. İndi əsirlikdədir. Yüzlərlə türk övladı kimi soyulur, sökülür, dağıdılır. Dünyanın ən qədim tarix nümunələri kimi çox az-az axtarılıb, üzə çıxarılıb öyrənilən arxeoloji mənbələrin sayı etibarilə Xocalı yüzlərlə elmi əsərlərin, monoqrafiyaların, dissertasiyaların mövzusudur. Xocalı-Gədəbəy, yaxud Gəncə-Qarabağ mədəniyyəti kimi qeyd olunan bu abidələr haqqında elmi ədəbiyyatda ilk sözü XIX əsrin 80-ci illərində Rusiya Coğrafiya Cəmiyyətinin üzvü S.Veyssentrof deyib. XIX əsrin 90-cı illərində Şuşa realnı məktəbində müəllim işləmiş E.Resler, Rusiya Coğrafiya Cəmiyyətinin üzvü A.A.İvanovski bu abidələrin tədqiqi ilə məşğul olaraq, arxeoloji tədqiqatlar aparmışlar. 1926-cı ildə akademik İ.İ.Mişaninovun rəhbərliyi və İ.Cəfərzadənin iştirakı ilə Xocalıda yeni tədqiqatlar dövrü başlanıb. Abidələrin tədqiqi və öyrənilməsi işi 1984-cü ildə tarix elmləri doktoru Hidayət Cəfərovun ekspedisiyaları ilə sona yetib. Xoca-



Azərbaycan Milli Kitabxanası

lıda son tunc və ilk dəmir dövlərinə, yəni e.ə.XII-VII əsrlərə aid xeyli mədəniyyət abidələri aşkarlanıb. Bu abidələr daş qutu və kurqanlardan ibarətdir. Burada saxsı qablara, silahlara, qızıl zinət əşyalarına, balıqqulağına, şüşə parçalarına rast gəlinib. Görkəmli Azərbaycan alimi, tədqiqatçı Rəşid Göyüşov məhz buna görə Xocalını "qədim dünyanın mədəni mərkəzi" adlandırıb.

Abidələrin bir qismi kompleks yaşayış yerindən, kurqanlardan, tikililərdən ibarətdir. Arxeoloji qazıntılar zamanı müəyyən olunub ki, xocalıların tayfa evləri uzunsov, üçbucaqlı formada inşa edilib. Bəzən uzunluğu 17-18 metr, eni 8-10 metr olan bu cür evlər arakəsmələr vasitəsilə bir neçə hissəyə bölünür. Tunc dövrünün sonu, dəmir dövrünün əvvəlində, yəni 22 min il bundan öncə evlərin döşəmələri və divarları ağ maddələrlə suvanıb. Əhalinin tikinti texnikasına yiyələndiyi aşkarlanır. Həmçinin burada aşkarlanan dulusçuluq məmulatları, müxtəlif çeşidli saxsı qab nümunələri həm forma kamilliyi, həm də naxış süjetləri, kompozisiya quruluşu baxımından əvəzedilməz sənət nümunələridir. Çoxsaylı metal əşyaları, tuncdan hazırlanan silah növləri, xəncər, qılınc, balta, nizə və ox ucluqları, əmək alətləri, müxtəlif çeşidli bəzək əşyaları, qolbağ və sırğalar, asmalar yerli əhalinin bədii zövqü, ustaların sənətkarlıq bacarığından xəbər verir. Tuncdan hazırlanan kəmər üzərindəki süjet mifik dünyagörüşlə real həyatın harmonik vəhdətini təşkil edir. Burada həmçinin sümükdən, qiymətli daşlardan, qızıldan bəzək nümunələri də tapılıb.

Maddi mədəniyyət nümunələrinin bəziləri yüksək sənətkar əməyinin məhsulu olmaqla yanaşı, həm də xarici iqtisadi mədəni əlaqələri izləmək baxımından da böyük əhəmiyyət kəsb edir. Bunların içərisində Xocalı kurqanlarının birində tapılmış əqiq muncuq xüsusi yer tutur. Muncuq üzərində Assuriya mixi yazısı ilə çar Adadnirarinin adı yazılıb. İşarənin yazılış qaydası bu muncuğun Assuriya çarı I Adadnirariyə (e.ə. 1310-1281) yaxud



II Adadnirariyə (e.ə. 911-981) məxsus olmasını söyləməyə imkan verir. Azərbaycan tayfalarının hələ qədim zamanlarda ətraf aləmlə, xüsusilə şərq ölkələri ilə mədəni-iqtisadi münasibətlərdə olması söylədiyimiz bu faktla yanaşı, xeyli dəlillərlə də tamamlanır.

Xocalıda aşkar olunmuş qiymətli sənət nümunələrinin əksəriyyəti Moskva və Sankt-Peterburqun dünya şöhrətli muzeylərində, Moskva Dövlət Tarix Muzeyi və Ermitajda mühafizə olunur, dünyanın başqa incəsənət əsərləriylə bir sırada nümayiş etdirilir. Xocalı abidələri dini mərasimlər, ayinlər, ibtidai memarlıq, təsərrüfat və sənətkarlıq sahələri haqqında qiymətli mənbədir. Bu abidələr kompleksi Qarabağda mövcud olan qədim abidələr silsiləsində özünəməxsus yer tutur. Eramızdan əvvəl III minilliyə aid Xankəndi və Xocalı kurqanları, Qarağacı yaşayış məskəni, e.ə. II minilliyin I yarısına adi Üzərliktəpə şəhər yeri, Xocalı ilə həmdövr olan Axmalı, Dovşanlı, Balıqqaya, Sırxavənd abidələri bu qəbildəndir.

Xocalı başdan-başa tarixi memarlıq abidələri diyarıdır. XIV əsrə aid olan Hacı Əli günbəzini, 1356-cı ildə inşa olunmuş dairəvi türbəni, XIV əsrdə tikilmiş Əsgəran qalası və onlarla başqa tarixi memarlıq nümunələri bu torpağın qədimliyinin təsdiqidir. Bu abidələrlə birlikdə Xocalıda Allahverdi bəyin, Qəhrəman bəyin, Cəfər bəyin, Səməd bəyin, Mikayıl bəyin, Səfiyar kişinin, Məhəmməd ağanın və daha kimlərin qəbirləri qaldı. Azərbaycanın xanlıqlar dövründə Xocalıda 46 nəfər bəy titulunun daşıyıcısı olub ki, bu da Tiflis arxivində qorunan sənədlərdə öz əksini tapıb.



Azərbaycan Milli Kitabxanası

## *Köçəryan Xocalıda ilk qırğınları törədib*

Terrorçuluğu, insan alverini, narkotiklərin qanun dövriyyəsini rəhbəri olduğu Ermənistan dövlətinin rəsmi siyasətinə çevirən Robert Köçəryan 1988-ci il fevralın 12-dən sonra Xankəndində başlayan mitinqləri emosiyalara, vəhşiliklərə çevirərək erməni quldur birləşmələrini azərbaycanlıların yaşadıqları kəndlərə doğru istiqamətləndirməklə onlara rəhbərlik etmişdir. Xocalıda ilk dağıntı və fəlakətlərin müəllifi də Robert Köçəryan və bu gün onun komandasında təmsil olunan serj sərkisyanlar, arkadi qukasyanlardır. 1953-cü ildə Xankəndində anadan olan, 80-ci illərdə Xarkov Sənaye İnstitutunda təhsil alaraq, geri dönən Köçəryan 1986-cı ildən Xankəndi İpək kombinatında azad partiya təşkilatı katibi seçilib. Bu təyinatdan başlayaraq kombinatda daşnak ab-havası yaradılıb, milli ayrı-seçkilik düşmənçilik səviyyəsinə çatdırılıb. Köçəryan müxtəlif bəhanələrlə kombinatın azərbaycanlı işçilərini bir-bir işdən kənarlaşdıraraq, burada yalnız ermənilərin çalışmalarına şərait yaradıb. Vəziyyət o yerə gəlib çatıb ki, artıq sözügedən kombinatda 1988-ci ildə bir nəfər belə azərbaycanlı işləmirdi.

O, öncə Dağlıq Qarabağda fəaliyyət göstərən hərbi yaraqlılara, soyğunçuluqla məşğul olan cinayətkar qruplara rəhbərlik edir, Yuxarı Qarabağ və ətraf rayonlarda Azərbaycan türklərinə qarşı intensiv soyqırım hərəkətlərinə istiqamət verir, bu yöndə müxtəlif planlar düşünərək həyata keçirirdi.

Köçəryan Rusiyanın Dağlıq Qarabağda yerləşən hərbi kontingentinin rəhbərliyi ilə sıx münasibətlər quraraq bu hərbi birləşmələrin müasir hərbi texnikasından, canlı qüvvələrindən, azərbaycanlıların tarixi torpaqlarından qovulması prosesində ardıcıl istifadə etmişdir. Xocalı soyqırımını törədən sovet ordusunun 366-cı alayının komandiri general-leytenant Zoviqarov onunla çox yaxın münasibətlərdə olub. Yüzlərlə terror aktlarının, faciələrin sifarişçisi olmuş Köçəryan 1988-ci il fevral ayının 18-də Xocalıya hücum planının müəllifidir. Xocalının girəcəyindəki 4 evin yandırılması və bir neçə azərbaycanlının yaralanması ilə nəticələnən hücum əməliyyatları Köçəryanın, S.Sərkisyanın, Arkadi Qukasyanın bilavasitə rəhbərliyi altında törədilmişdir. Bu barədə MTN-in arxiv materialları əsasında çap olunmuş "Erməni cinayətləri" kitabında məlumat verilir. Köçəryan İpək kombinatında işləyən zaman tokar sexini odlu silahlar, partlayıcı maddələr sexinə çevirərək müxtəlif döyüş sursatları hazırlamışdır. Bu işə erməni millətçilərini cəlb etməklə yanaşı, özü də silah-sursat istehsal edən dəzgahın arxasında dayanmışdır.

Sərkisyanın, Qukasyanın, Samvel və Karol Babayanların terrorçu ekstremist qruplarının başında dayanan Köçəryanın fitvası ilə 1988-ci il sentyabr ayının 16-da Xankəndində Azərbaycan türklərinə məxsus 50 ev yağmalanaraq yandırılmışdır. O, qarətçilik, talançılıq hərəkətlərini tədricən genişləndirərək irimiqyaslı terror aktlarına keçmişdir. Ağdam-Şuşa marşrutunda hərəkət edən avtobsun əvvəlcə daş-qalaq edilməsi, daha sonra odlu silahla atəşə tutulması nəticəsində 25 nəfərin qətli, 1989-cu ildə Ağdamdan Şuşaya uçan "Mİ-8" vertolyotunun vurulması, Malıbəyli kəndinə ilk hücum da Köçəryanın başçılığı altında törədilib. Erməni millətçiliyinin bütün mənfur keyfiyyətlərini özündə cəmləşdirmiş bu sima hazırda Ermənistan Respublikasının prezidentidir.

Çağdaş dünyamız sözdə terrora, terrorçulara qarşı dayanıb. "Biz terrorizmə qarşıyıq" - Amerikanın, Avropa dövlətlərinin, beynəlxalq təşkilatların az qala gerbinə, bayrağına yazılan bu deyimin Ermənistana, onun başında dayanan Köçəryana görünür aidiyyəti yoxdur. Əgər aidiyyəti olsaydı, Köçəryan məşhər ayağına çəkilər, sorğu-suala tutular, ondan indiyə qədər türklərə qarşı törətdiklərinin hesabı sorulardı. Qarabağda törədilmiş qırğınlar, Xocalı soyqırımı beynəlxalq cinayət subyektləridir ki, nə vaxtsa bu əməllərə qarşı dünya sözünü deyəcək.



Azərbaycan Milli Kitabxanası

## *Fevralın 25-dən 26-na keçən gecə...*

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni terror təşkilatları, rus hərbi birləşmələrinin 366-cı polkunun müasir silahlarla təchiz olunmuş muzdlularının genişmiqyaslı hücumu ilə Xocalı soyqırımı törədildi. Xocalıda minlərlə əliyalın, dinc azərbaycanlının qətli icra olundu. Xəstələrə, ağsaqqal və ağbirçəklərə, körpə uşaqlara, qadınlara aman verilmədi. Azərbaycan xalqına qarşı amansız şəkildə soyqırım həyata keçirildi. Bu soyqırım siyasəti əvvəlcədən düşünülmüş, ciddi planlaşdırılmış və dəqiq yerinə yetirilmişdi. Milli Təhlükəsizlik Nazirliyinin soyqırımı araşdıran istintaq komissiyasına təqdim etdiyi Xocalı şəhərinə hərbçilərin danışıqlarının lent yazısı da planın əvvəlcədən hazırlandığını və bu faciədə 366-cı rus hərbi alayının iştirakını təsdiqləyir. Belə ki, hərbçilərin telefon söhbətində Xocalıya hücuma hazırlıq getdiyi, danışıqların milyon rəqəmlərlə hesablanan pulu gözlədikləri anlaşılır.

1992-ci il fevralın 16-da, soyqırım planından on gün əvvəl məlum 366-cı alayın nəzdində "Klukin, erməni cəbhəsi" deyilən "rota" yaradılır. Sözügedən "rota"nın özəyini Livan, Amerika, Kanada, İran, İsveç və Hollandiyadakı erməni icmalarını təmsil edən, beyinlərinə yeridilən, başı üstlərində "Böyük Ermənistan" xəritəsi asılan silahlı quldur erməni birləşmələri təşkil edirdi. Fevralın 17-də qızlardan ibarət "Şuşanik" adlı snayperçilər dəstəsi həmin cəbhəyə qoşuldu. Düşüncələrinə türk düşmənçiliyi hopdurulan, insani idrakdan uzaq olan "Şuşanik" snayperçiləri Livandan gətirilmişdi. "Kluki, erməni cəbhəsi"nə Xaçik Vartanyan rəhbərlik edirdi.

1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə Xocalı işğal olundu, yerlə-yeksan edildi. Bəşəriyyət növbəti Xatın faciəsi yaşadı. Beynəlxalq miqyasda millətçi kimi tanınan erməni icmalarının, diaspora və lobbiçilərinin birgə hazırladıqları "Böyük Ermənistan" planının ilkin fazası, hərəkatın ilk bəndi "Haydad" və "ASALA" terror təşkilatlarıyla birgə icra olundu. Bu soyqırım əməliyyatı zamanı keçmiş SSRİ Müdafiə Nazirliyinə məxsus hərbi texnika, tərkibində zəhərli kimyəvi maddələr olan mərmilər, istifadəsi qadağan olunan "dairəvi" güllələr, digər silahlar sınaqdan çıxarıldı. Həmin qanlı gün, saat 23.00 radələrində Xocalıya 11 istiqamətdən hücum həyata keçirildi. Qarqar çayının Həsənabad kəndi tərəfindən, təyyarə limanının şərqindən, İncik təpədən, donuzçuluq kompleksi istiqamətindən - çayın sol və sağ tərəfindən, Daşbulaq - Xocalı yolu səmtindən, Norgux - Xocalı istiqamətindən, Daştəpə tərəfdən, Bozdağ və nəhayət Əsgəran tərəfdən Xocalı üzərinə qoşun yeridildi. Ətraf aləmdən ayrı düşmüş, gücü yalnız özünümüdafiə qruplarının ov tüfənglərinə çatan əhali nizami rus ordusu və vəhşi erməni quldurlarına müqavimət göstərmək iqtidarında deyildi. Xocalılar vəhşiliklə üz-üzə qaldı. 613 nəfər şəhid oldu. Onlardan 56-sı xüsusi qəddarlıq və işgəncələrlə öldürüldü. 27 ailə tamamilə məhv edildi. 230 ailə öz başçısını itirdi. 1275 nəfər əsir düşmüş xocalılı amansız işgəncələrə düçar oldu. Bu soyqırım əməliyyatlarında xüsusi hazırlıq keçmiş 366-cı alayın zabitlərinin və digər muzdluların iştirakı tələfatın miqyasını daha da artırdı.

Xocalı soyqırımında iştirak edən hərbi hissələrin birinin əks-kəşfiyyat şöbəsinin rəisi, polkovnik V.Savelyev özünün "Məxfi arayış"ında erməni terror təşkilatlarıyla Rusiya qoşun birləşmələrinin Dağlıq Qarabağda keçirdikləri hərbi əməliyyatları izləyərək, fakt və sənədlərdə bütün olub-keçənlərin şərhini verib etiraf edirdi: "Mən bütün bunları yazmaya bilmərəm. İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin güllədən keçmiş bədənlərini unuda bilmərəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Təkcə yazdığım arayışı həm Kremlə, həm də SSRİ




Azərbaycan Milli Kitabxanası

Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinin generallarına göndərdim. Oxuyun, dedim. Biz rusların zabit şərəfi görün necə ləkələndi".

*"Rusların "zabit şərəfi"ni ləkələyən 55 zabit və kiçik rütbəli hərbçilərin adları qoy tarix üçün yaddaşlara yazılsın".*

1. Zarviqorov Yuri Yuriyeviç - 02.03.1955-ci ildə Qazaxıstanın Cambul vilayətinin Luqovaya stansiyasında anadan olub. 366-cı motoatıcı alayın komandiri.

2. Çitçiyan Valeri İsaakoviç - 366-cı motoatıcı alayın 1 saylı batalyonunun qərargah rəisinin müavini, mayor.

3. Ağriyan Vaçaqan Qriqoryeviç - mayor, alayın kəşfiyyat rəisi.

4. Ohanyan Seyran Muşeqoviç - 1961-ci ildə anadan olub. Mayor, alayın 2-ci batalyonunun komandiri.

5. Arutyunov Aleksandr Aleksandroviç - mayor, 2-ci batalyon komandirinin köməkçisi.

6. Akopyan Nerses Qrantoviç - baş leytenant, 1-ci batalyonun 2-ci rotasının komandiri.

7. Arutunyan Vladislav Vladimiroviç - kapitan, 2-ci batalyonun komandiri.

8. Bəyləryan Armen Volodiyeviç - praporşik, 1-ci rotanın texniki.

9. Ayrapetyan Vaçik Qurgenoviç - 3-cü rotanın starşinası.

10. Mirzoyan Vaçik Qrantoviç - 3-cü rotanın starşinası.

11. Şixanyan Andrey Artyuşeviç - 1-ci batalyonun təşkilat üzrə komandiri.

12. Xaçaturyan - 6-cı rotanın starşinası.



13. Abramyan V.V. - 2-ci batalyonun böyük texniki, praporşik.

14. Bəyləryan Sergey Yurikoviç - 2-ci batalyonun vzvod komandiri, praporşik.

15. Danilyan Armen Barinoviç - 2-i rotanın starşinası.

16. Avanesyan - 2-ci batalyonun böyük texniki.

17. Zaxaryan - zenit vzvodunun komandiri, praporşik.

18. Boqdasaryan Valeri - tank rotasının starşinası.

19. Kisəbəyyan Qriqoriy Akopoviç - rabitə rotasında vzvod komandiri, praporşik.

20. Arustamyan - rabitə rotasında böyük texnik.

21. Amelyan Qarik - yeməkxana rəisi, praporşik.

22. Avanesyan Robik - ərzaq anbarının rəisi, böyük praporşik.

23. Arutunyan Kamo Rafaeloviç - təmir rotasında vzvod komandiri, praporşik.

24. Musaelyan - təmir rotasında vzvod komandiri.

25. Sarkisyan Aleksandr - təmir rotasında böyük texnik, praporşik.

26. Osipov Yuri - raket artilleriya anbarının rəisi.

27. Simonyan Valeri - maddi təchizat rotasının starşinası.

28. Petrosyan Aşot - məxfi hissənin rəisi, praporşik.

29. Nabokix Yevgeni - mayor, 3-cü batalyonun komandiri (arvadı erməni)

30. Lixodey İqor İvanoviç - artilleriya divizyonunun komandiri;

31. Miroşniçenko İqor - maddi təchizat rotasının komandiri, baş leytenant;

32. Smaqin - leytenant, tank divizyonunun komandiri;

33. Kuznetsov Andrey - kimyəvi müdafiə rotasının komandi-



Azərbaycan Milli Kitabxanası

ri;

34. Qarmaş Viktor - baş leytenant, tank rotasının komandiri;

35. Balyazin - tank rotasında vzvod komandiri, leytenant;

36. Mirxaydarov - 3-cü batalyonun 7-ci rotasının komandiri, baş leytenant;

37. Fotimski - 2-ci batalyonun 3-cü rotasının komandiri, kapitan;

38. Buqayenko - 2-ci batalyonun 4-cü rotasının 3-cü vzvodunun komandiri, leytenant;

39. Potapov 2-ci batalyonun 4-cü rotasının komandiri, kapitan;

40. Krut - 2-ci batalyonun 6-cı rotasının komandiri, kapitan;

41. Savintsev - 2-ci batalyonun 4-cü rotasının komandiri, leytenant;

42. Dobranski 2-ci batalyonun 4-cü rotasının kəşfiyyat vzvodunun komandiri,

43. Bobolev - 2-ci batalyonun qərargah rəisi, kapitan;

44. Minin - 2-ci batalyon komandirinin müavini, kapitan;

45. Tevosyan - 2-ci batalyonun 5-ci rotasının komandiri, kapitan;

46. Boqaçev - 3-cü batalyonun zabiti, baş leytenant;

47. Kurçatov - 3-cü batalyonun zabiti, baş leytenant;

48. Maftullin 3-cü batalyonun zabiti, baş leytenant;

49. Kuzmanoviç - 3-cü batalyonun zabiti, baş leytenant;

50. İvanov - 3-cü batalyonun zabiti, kapitan;

51. Matveyev - 3-cü batalyonun artilleriya divizyonunun komandiri, kapitan.



***Yuri Poleneyev "Qarabağ qan girdabında" kitabında yazır:***

"Xocalı hadisəsi Hitler faşizminin Xatın kəndində törətdiyi müsibətlə müqayisədə daha dəhşətli idi. Ermənilər bu qəddar terror aktı ilə öz vəhşiliklərini bütün dünyaya bəyan etdilər. 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinin sakinlərinə vəhşicəsinə divan tutuldu. Xocalıda yalnız ölülər qaldı".

Xocalı soyqırımı törədilən zaman müsibəti gözləri ilə görən jurnalist Viktoriya İvleva isə faciəni belə təsvir edir: "Xocalının girəcəyində bir tərəfdə buluda bənzər nəyinsə hərəkət etdiyini gördüm. Bu bulud yarıçılpaq insanların toplusu idi. Azərbaycanlıların dəstəsinin sonunda üç uşaqlı qadın gedirdi. O, qar üzərində ayaqyalın çətinliklə yeriyir və tez-tez yıxılırdı. Sən demə, onun uşaqlarından biri ikigünlük imiş. Digər yüzlərlə qaçqın kimi bu qadının və onun uşaqlarının sonrakı taleyini mən televiziya lentlərindən izlədim. Bu, televiziya lentlərində səs zolağı operatorunun hönkürtüsündən ibarət idi. Bu adamların cəsədləri eybəcərləşdirilmiş şəkildə qar üzərində qalaqlanmışdı".

Viktoriya İvlevin televiziya müşahidəsində izlədiyi hönkürtü, Xocalı soyqırımını ilk dəfə lentə alan cəsur jurnalist Çingiz Mustafayevin qəzəbinin göz yaşlarına çevrilməsiydi. Erməni vəhşiliklərinin qurbanı olan, qar üzərində donub qalan məsum körpələrin qurumuş cəsədləri qarşısında tab gətirmək, bu faciəni sakit lentə almaq mümkün deyildi. Çingiz Mustafayev yerləyeksan edilən soyqırıma məruz qalan Xocalını çəkirdi, köməksiz dinc əhalinin faciəsini tarixin yaddaşına yazırdı. Kamerası ilə. Bu kamera ermənilərin güllələrinə də tuş gəlmiş, "yaralanmışdı". Martın ilk günlərində dünyanın efir məkanından bütün evlərə "Xocalı soyqırımı" boylandı. Çingiz Mustafayev bu qanlı olayı belə xatırlayırdı: "İlk dəfə fevralın 28-də iki hərbi ver-



Azərbaycan Milli Kitabxanası

tolyotun müşayiəti ilə hadisə yerinə gəldik. Havadan gördük ki, bütün bir sahə insan meyitləri ilə doludur. Təyyarəçilər vertolyotu yerə endirməyə qorxurdular. Çünki həmin ərazi artıq ermənilərin nəzarəti altında idi. Buna baxmayaraq, biz vertolyotdan çıxdıq və bu zaman güclü atəşə məruz qaldıq. Bizimlə olan milis əməkdaşları meyitləri vertolyota götürməli idilər ki, onların qohumlarına verilsin. Gördüyümüz vəziyyətdən şoka düşdük. İki nəfər isə huşunu itirmişdi. Martın 2-də xarici jurnalistlərlə hadisə yerinə gəlmişdik. O zaman meyitlər dəhşətli hala salınmışdı. Bir neçə sutka ərzində onların üzərində təhqiredici hərəkətlər edilmişdi".

İnsanı dəhşətə gətirən bu açıqlama, soyqırımı ilk dəfə lentə alan Çingiz Mustafayevin fikirləridir. Erməni dəhşətlərindən, vandalizmdən yaxa qurtarmaq üçün üzü Ağdama tərəf qaçan, əliyalın əhali vəhşicəsinə güllələrə tuş gəlmişdi. Ahıllara, körpələrə belə aman verilməyib. İnsanları bir-birlərinə bağlayaraq, üzərlərinə neft tökərək yandırıb, uşaqları diri-diri süngüyə keçirib faşistlərin törətdiklərindən betər faciəni bəşəriyyətə "bəxş etdilər". Qətlə yetirilənlərin cəsədləri üzərində vəhşicəsinə davranaraq, qadınların döşlərini, kişilərin cinsiyyət üzvünü kəsərək, uşaqların beyin dərisini soyaraq bəşəriyyət üçün yeni olan vandalizm nümunəsi ortaya qoydular. Budur erməni xidməti, budur erməni qəssablarının yaramazlığı. Xocalıda törətdikləri cinayətin miqyasını düşünmədən, bu gün beynəlxalq ictimaiyyətə humanizmdən, insanlıqdan danışanların nə qədər məkrli, qəddar olduqları Xocalıda göründü. Nə yazıqlar ki, insanlığa, bəşəriyyətə qarşı törədilən bu faciə ermənilərin xəcalət hissinə çevrilmədi. Dünya qınağından yeni məkrli planları, yalanları ilə qurtarmağa çalışan erməni vəhşiliyi Xocalıdan sonra 20 faiz Azərbaycan torpağının işğalı ilə nəticələndi.



## *366-cı rus hərbi alayı Xocalını qanına buladı*

Artıq tarixin arxivinə atılmış Sovet dövlətinin bu alayı barədə bütün təfərrüatlar aydınlaşdırılıb. Bir məsələ bəllidir ki, Xocalı soyqırımının törədilməsində bu alayın müasir hərbi texnikasından, şərəfini erməni quldurlarına satmış zabit heyətindən istifadə edilmişdir. Xocalı qətliamının acılarını yaşayan, ana-bacılarını, övladlarını Əsgəran yolunda, Naxçıvanikdə, Kətik meşəsində itirən, zamanın ağrılarına tab gətirən faciə şahidləri buna şahadət verir. Özü də təkzibolunmaz sübutlarla, faktlarla. Sovet ordusunun sabiq generalları "zabit şərəfini" qorumaq üçün bu faktları təkzib etməyə çalışsalar da, söylədikləri arqumentlər su üzərində sabun köpüyünə bənzəyir. Bu alayın hərb tarixinə Xocalı ləkəsi vurulub. Tarix isə ləkə, yamaq götürmür. Xocalı soyqırımını araşdırmaq üçün belə heç bir emosiyaya uymayaraq 366-cı alayın tarixinə diqqət yetirib, əliyalın insanlara qarşı törədilən faciənin sərhədlərini müəyyənləşdirməliyik. Ən azı tarix və gələcək nəsillər üçün. Bəşəriyyət isə gərək bu sadalanan cinayətlərə göz yummasın. Xocalıda törədilənlərin soyqırım faktı olduğunu təsdiqləsin və bəyan etsin. Yoxsa dünya yeni soyqırımlarla, yeni terror hərəkətləri ilə üzləşməli olacaq. Necə ki, Amerika kimi böyük dövlət 11 sentyabr terroru ilə üzləşdi. Amerikanın üzləşdiyi, insanları sarsıdan bu qanlı səhnələri 366-cı alay xocalıların başına cəmi 3-4 saat ərzində, 1992-ci ilin feral ayının 25-dən 26-na keçən gecə gətirdi. 613 nəfər insan güllələndi, 1225 nəfər girov düşdü. Onların arasında 63 nəfər 3 yaşından 15 yaşına qədər uşaq, ahıl vardı. Bu qətliamlar nə hərb qanunlarına, nə də insani davranışlara, heysiyyata əsaslanır. Yalnız qəddarlıqla vəhşiliyə dəlalət edir.



Azərbaycan Milli Kitabxanası

Keçmiş Sovet ordusunun 366-cı alayının bu qəddarlığı, rüsvayçılığı təsadüfi deyil. Bəllidir ki, təsadüf də qanunauyğunluğun ayrıca bir halıdır. Qanunauyğun odur ki, tarixən çar Rusiyasının zamanında da rus zabitləri dini birliyi əsas gətirərək həmişə ermənilər tərəfindən azərbaycanlılara qarşı döyüşüb, vuruşub. Minlərlə azərbaycanlıları dədə-baba torpaqlarından didərgin salıb, Qafqazın boşaldılmış ərazilərinə erməniləri məskunlaşdırıblar. Erməni dövlətinin sərhədlərini Azərbaycan torpaqlarının hesabına genişləndiriblər. Məgər 366-cı alay çar Rusiyasının hərbi strukturlarının, zabit və əsgərlərinin varisi deyildimi? Qarabağda aparılan hərbi əməliyyatlarda tək texnika ilə deyil, canlı qüvvə ilə erməni daşnaklarına kömək etmirdilərmi? Bütün bu deyimlər sübut olunmamışmı?

Alayın yüksək səlahiyyətli zabitləri ermənilərə müntəzəm surətdə silahlar, hərbi sursatlar satırdı. Bütün bunların nəticəsi olaraq alayda hərbi qanunlardan kənar olan qeyri-qanuni atmosfer yaradılmış, ordu qanunları ticarət qanunları ilə əvəzlənmişdir. Alayın say tərkibi 1800 nəfəri əhatə etməsinə baxmayaraq, cəmi 350 nəfərə yaxın zabit və əsgəri qüvvə qalmışdır. Mərkəzi Tbilisi şəhərində yerləşdirdi. Para qazanmaq zabitlərin başılca amalına çevrilmişdi. Ona görə də Xankəndinə insani varlıqlarını, simasını çoxdan itirmiş erməni daşnakları, quldurlara öz çeşidli "xidmətlərini" təklif edirdilər. Hətta erməni terror qruplarına belə xidmətlərin gündəlik məzənnəsi də bəlli idi. Azərbaycanlıların yaşayış məntəqəsinə bir top atəşi 1300 rubl, beterin bir gecəlik icarəsi 5000 rubl, altı PDM-dən ibarət qrupun hər reydi üçün 1,5 milyon rubl, kiçik rütbəli zabitlərin təlimatlarının göstərişlərinə 3-4 min rubl ödənilməli idi. Canlı qüvvə olaraq sıravi əsgərlər də döyüş əməliyyatlarına cəlb olunur, pis qazanmırdılar. Alayın hərbi qulluqçusu Znayevin Tbilisidəki hərbi hissəyə köçürülməsi zamanı ciblərindən 280 rubl aşkarlanmışdır. Xocalı soyqırımından bir gün sonra, yəni fevral ayının 27-də gün düz saat 3 radələrində Binə aeroportunda Deyçukov Oleq Alekseyeviç adlı bir polkovnik həbs olundu. Onun üstündən yarım milyona yaxın pul aşkarlandı. Polkovniki müşayiət edən praporşik P.Şevçenko, sıravi əsgər, sürücü A.Qainkin də həbs olundu. Bu, xocalıların qanpulu idi. Yüksək rütbəli rus zabiti Azərbaycanda soyqırım törədərək vəhşiliyinin, qəddarlığının əvəzini almışdı.



1985-ci ildən Xankəndinə köçürülən 366-cı alayı Qarabağda başlanan erməni separatçılığının fonunda Xocalı soyqırımınadək normal hərb həyatının nə demək olduğunu bilmədi. Alayda əsas vəzifələri tutan erməni zabitlərinin sayı nə az, nə çox 50 nəfər idi. Praporşiklər də yox deyildi. Bir məsələ aydındır ki, praporşikləri daha çox yerli əhali arasından yığırdılar. Məhz ona görə də yerli ermənilərdən alayda kiçik rütbəli hərbçilər çox idi. Erməni əsilli hərbçilər artıq 366-cı alayı, onun baş komandiri Zarviqarovu milli münaqişəyə, etnik separatçılığa çəkə bilmişdilər. Bu alayın hədəfi bəlli idi. Müntəzəm olaraq Azərbaycan kəndlərinə basqınlar edilir, insanlar güllələnir, onların qanı pula çevrilərək rus zabitlərinin cibinə axırdı. Xocalı soyqırımından bir ay öncə Zaqafqaziya hücum dairəsinin müavini, milliyyətcə erməni general-leytenant Ohanov alaya baş çəkərək zabit heyətini etnik separatçılığa sövq edən hərəkətlərdə bulundu. Ohanov zabitləri "Şanlı Arsax işinə" xidmətə çağırmışdı. Lakin hərbi hissədəki vəziyyətlə barışmayanlar, öz hərbi andına sadiq qalıb zabit şərəfini qorumaq istəyənlər də vardı.

Çünki keçmiş Sovet ordusunun ənənələrinə görə, alayda ukraynalılar, qazaxlar, özbəklər, gürcülər də hərbi xidmət keçirdilər. Hələ 1991-ci ilin sonlarında alayın bir qrup zabiti Zaqafqaziya hərb dairəsi komandanlığına rəsmi məktubla müraciət edib alaydakı mənəvi pozğunluğu göstərməklə yanaşı, yüksək səlahiyyətli zabitlərin onları azərbaycanlı əhaliyə qarşı döyüşlərə sövq ertmələrini göstərmişdilər. Sözügedən vicdanlı hərbçilərin



Azərbaycan Milli Kitabxanası

rəyi bir idi: Komandir, polkovnik Zarviqarov təcili dəyişdirilməlidir. Ancaq hərbi komandanlıq zabitlərin etiraz məktubuna, raportuna heç bir məhəl qoymadı. 1991-ci ilin "Vesti" televiziya proqramında şərhçi Feyorkovskinin hazırladığı buraxılışda iki nəfər rus əsgəri açıqca söyləmişdilər ki, erməni zabitlər azərbaycanlıların yaşadıqları kəndlərə atəş açmağı əmr edirlər. Bu informasiya heç kəsin "nəzərini cəlb" etmədi. Qarabağın azərbaycanlı yaşayan məskənləri isə 366-cı alayın zirehli texnikası ilə ardıcıl olaraq ölüm məskənlərinə çevrildi. Kütləvi informasiya vasitələrində Azərbaycan tərəfi ilə birləşmiş silahlı qüvvələrin komandanlığı arasında mübahisə gedirdi. "366-cı alay azərbaycanlıların məhv edilməsində erməni terrorçu qrupların tərəfində iştirak edir" arqumentinə onlar soyuqqanlılıqla "yox" cavabı verirdilər. Azərbaycan mediası alaydan qaçan əsgərlərin, zabitlərin ifadələrini, dəlillərini söyləyən zaman bəlli alayın zabitləri "bu barədə bizdə məlumat yoxdur" söyləyirdilər. Malıbəyli kəndi tarmar ediləndə 3 əsgər ağ bayraq götürüb kəndin sağ qalmış sakinlərini mühasirədən çıxarmaq istəmişdi. Lakin onlar vəhşiliyi qəbul etməyən, günahsız qan tökmək istəməyən əsgərlərin qarşısında güllələndilər. Vandalizm aktlarının iştirakçısı olmaq istəməyən alayın hərbi xidmətçiləri Rijevski şəhərindən Jarqin Roman, krımlı Kuzmişov Sergey, Boqdanovski Andrey hərbi jandarmdan qaçmağa nail olmuşdular. Məhz bu əsgərlər komandanlığın əmrinə uyğun olmayaraq azərbaycanlı əhaliyə qarşı hərbi əməliyyatlardan imtina edərək, hərbi hissənin mövqelərindən uzaqlaşmışdılar. Ancaq erməni ekstremistləri terror qrupları bu istəkdə olan hərbçilərə qarşı amansız davranaraq onların bəzilərini güllələmişdilər. Dəqiq məlumatlara görə, bu qəbildən olan zabitlərdən ikisi erməni yaraqlıları tərəfindən öldürülmüş, biri isə itkin düşmüşdür. 366-cı alayın hələ fevralın ortalarında qaçmağa nail olmuş daha 3 nəfər əsgəri erməni muzdluları, hərbi birləşmələri tərəfindən mühasirəyə alınmış



Xocalıda idi. Həmin gecə təbii surətdə onlar da başqaları ilə birlikdə şəhəri öz alaylarının və erməni qoşunlarının hücumundan müdafiəyə qalxmışdılar. İstər hərbi qulluqçuların, istərsə də erməni quldurlarının dinc sakinləri necə öldürdüklərini onlar öz gözləri ilə görmüşdür. Onların dediklərinə görə, adamları ailəlikcə qırır, valideynləri uşaqlarının gözü qarşısında öldürür, adamları üzbəüz dayanıb güllələyirdilər. Qaniçən vəhşilər gecə də, ertəsi günü şəhəri də yaralıları vurub öldürürdülər. Əsirləri güllələyirdilər. Körpələri vəhşicəsinə qətlə yetirir, imdad diləyən ahıllara imkan vermirdilər. Adamları ən alçaq üsulla təhqir edirdilər. Arxadan gələn erməni rəzilləri isə qarətçiliklə, soyğunçuluqla məşğul olurdular.

Xocalı soyqırımına hazırlaşmaq üçün ermənilərdən 20 litr spirt alan alayın komandir-zabit heyətinin artıq gözlərini qan örtmüşdü. Azərbaycan insanının başını kəsmək onlar üçün adiləşmişdi. Bu faktı alayın əsgərləri Y.Numanov, Ş.Tangülov, S.Ezizov təsdiqləmişlər.

Keçmiş Sovet ordusunun, indi isə MDB-nin birləşmiş silahlı qüvvələri aşkar faktları nə qədər rədd etsə də, törətdiyi bu soyqırım faktı qarşısında nəsə bir iş, yenilik görməli idi. Soyqırım məsələsini üzərlərindən atmağa çalışıb, bəzi variantların əhatəsində gedişlər etməli idi. Ona görə də Zaqafqaziya hərb dairəsinin komandanlığının müavini, general-leytenant İosif Ohanyan 366-cı alaya gəlmişdi. "Xəbər servis" agentliyinin 4 mart 1992-ci il buraxılışında bu səfərin məğzi açıqlanıb: "Zaqafqaziya hərbi dairəsi qərargahının generalı İosif Ohanyan Xocalıya gəlmişdir. O tələb etmişdir ki, 366-cı alay məhz əvvəllər planlaşdırıldığı kimi Şuşa və Laçın şəhərlərindən çıxarılsın. Azərbaycan Milli Təhlükəsizlik Nazirliyindən məlumat verilmişdi ki, 366-cı alayın silahlı texnikası və canlı qüvvəsi hazırda Azərbaycanın zəbt olunmuş Xocalı, Kərkicahan məntəqələrinə köçürülür. Qrad və "uraqan" raket artilleriya qurğuları isə artıq erməni si-



Azərbaycan Milli Kitabxanası

lahlı dəstələrinin sərəncamına verilmişdi". Rusiya Müdafiə Nazirliyinin orqanı olan "Krasnaya Zvezda" qəzeti 6 mart 1992-ci il sayında isə 366-cı alayın erməni terrorçuları tərəfindən azərbaycanlılara qarşı döyüşdüyünü, Xocalı soyqırımında iştirakını dolayısı ilə təsdiqləyən məlumat dərc etmişdi: "İkinci matorlu atıcı taborunun komandiri Seyran Ohanyan Qarabağ silahlı dəstələrinin tərəfinə keçmişdir. Ola bilsin ki, zabit polk ilə birlikdə Gəncəyə /Azərbaycan/ getməkdən qorxmuşdur, çünki bəzi məlumatlara görə, o, azərbaycanlılara qarşı döyüş əməliyyatlarında iştirak etmişdir". Bəli, Rusiya Müdafiə Nazirliyi tabeçiliyində olan 366-cı alayın batalyon komandiri soyqırımında iştirakını öz rəsmi məlumatları ilə təsdiqləməyə məcbur idi. Bu, o Ohanyan idi ki, alayın çıxarılmasına qarşı hərbi qiyam qaldırmış, nəticədə alaya məxsus hərbi texnikanın 80 faizini ələ keçirib, Xocalı soyqırımından sonrakı qətliamlarda işğalçılıq siyasətlərində istifadə etmişdir. Martın 2-də alayın çıxarılmasına başlanılsa da, bu proses erməni terror qrupları, yerli erməni hakimiyyətinin müqaviməti ilə yarımçıq aparıldı. Nəticədə keçmiş Sovet ordusunun hərbi mirasının kiçik bir hissəsini çıxarmaq mümkün oldu. Erməni hərbi qulluqçuları Qarabağı və hərbi hissənin yerləşdiyi ərazini tərk etməkdən imtina etdilər. Alayın 2-ci batalyonunun komandiri Ohanyan 14 PDM hərb maşını ələ keçirib, erməni yaraqlıları, xaricdən gətirilmiş muzdlu döyüşçülərlə birləşdi. Alayın hərbi sursat və texnikasının nə dərəcədə çıxarılması haqda dəqiq məlumat da aşkardı. Azərbaycan kəşfiyyat orqanlarının əldə etdiyi sənədlərdə bu müqayisəli faktlar aydın görünür.

PDM çıxarılıb 38 vahid, saxlanılıb 70 vahid.

BTR çıxarılıb 0, saxlanılıb 4.

D-30 toplar çıxarılıb 0, saxlanılıb 27.

"Strela-10" çıxarılıb 0, saxlanılıb 10.

366-cı alayın iflası şəxsi heyətin Tbilisiyə köçürülməsi ilə reallaşdı. "Sovetski voin" qəzeti alayın çıxarılması ilə bağlı "366-



cı polk nədən ləğv olundu" məqaləsini 2 aprel 1992-ci ildə dərc etdirdi. Verilən məlumatlara görə, azacıq da olsa həqiqətlərə yer ayıran qəzetin həmin sayı general-leytenant İ.Ohanyanın göstərişi ilə, bütün tirajla birlikdə yandırılıb. Qəzetin yalnız bir neçə nüsxəsi salamat qalaraq əldən-ələ keçib. "Xalq ordusu" qəzeti isə sözügedən yazını 28 aprel sayında rus dilində təkrar çap edib. Beləliklə general-leytenant Ohanyanın niyyəti baş tutmayıb. Müəllifin yazdığına görə, 366-cı polkun Xankəndindən çıxarılması əməliyyatı yaxşıca götür-qoy edilib, əvvəlcədən planlaşdırılıb. Yəni hər şey, hərbi sursat və texnika qabaqcadan alınıb satılıbmış. Əsgərlər ermənilərlə vida məclisi keçirərək, birgə ziyafətdə olublar. Polkda komandir Y.Zarviqarovdan tutmuş, zabit arvadlarının hamısı sərxoş vəziyyətdə alqı-satqı əməliyyatlarını davam etdiriblər. Texnikanı ermənilərə verib Xankəndindən çıxanda isə gözlənilmədən onları müdafiəyə gəlmiş desantçılarla qarşılaşıblar. Desantçıların dediyinə görə, zabitlərin arvadları paçka-paçka valyutanı aradan çıxarmağa cəhd göstəriblər. Desantçılarla erməni yaraqlıları arasında atışma baş verib. Nəticədə serjant Andre Ruderi öldürülüb. Məqalədə belə faktlar, epizodlar kifayət qədərdir. Ancaq əsas diqqəti çəkən məsələ odur ki, sərxoşluqdan ayılmayan polk komandiri Zarviqarovun əvəzinə Xocalya hücum əmrini onun arvadı verərək rus əsgərlərini Xocalı üzərinə Jora adlı bir erməni aparıb.

Zaqafqaziya Dairə Hərbi Prokurorluğu Xocalıda törədilən cinayətlərdə iştirakına görə 366-cı alayın hərbi rəhbərliyi barəsində cinayət işi qaldırdı. Sonra bəlli oldu ki, bu, formal əməliyyatdır. Alay komandiri Zarviqarov həbs edilərək, bir neçə gündən sonra təqsirsizliyi sübuta yetirildiyindən azadlığa buraxılmışdır. Lakin o, törətdiyi cinayət əməlinin masştabına görə vaxtından əvvəl istefaya göndərilmişdir.

Keçmiş Sovet ordusunun bu alayının təmsilçilərinin dinc əhaliyə qarşı törətdikləri beynəlxalq cinayət məsuliyyəti doğurur.

Azərbaycan Milli Kitabxanası

Müharibə cinayətlərini xocalılara tətbiq edən 366-cı alay bütün humanitar hüquq normalarını, müharibə adət və qanunlarını pozaraq beynəlxalq cinayət məsuliyyəti doğurub.

Beləliklə, müharibə cinayətləri geniş bir hüquqi kateqoriya olub, həm beynəlxalq xarakterli, həm də qeyri-beynəlxalq xarakterli silahlı münaqişələr dövründə beynəlxalq humanitar hüququn ciddi pozuntularını əhatə edir. Bu pozuntuların hər biri özü-özlüyündə konkret cinayət əməlidir və beynəlxalq cinayət məsuliyyəti doğurur. Ona görə də müharibə cinayətləri haqqında tam təsəvvür əldə etmək üçün bu kateqoriyaya daxil olan bütün cinayət tərkiblərini göstərmək lazım gəlir. Müharibə cinayətlərinə aşağıdakı əməllər aiddir:

1) beynəlxalq humanitar hüququn pozulması ilə qəsdən törədilmiş aşağıdakı əməllərdən hər hansı biri:

- qəsdən adamöldürmə;
- işgəncə və ya qeyri-insani rəftar, o cümlədən bioloji eksperimentlər;
- ağır əzab-əziyyətin və ya ciddi xəsarətin qəsdən törədilməsi;
- hərbi zərurətlə bəraət qazandırılmayan və qeyri-qanuni və böyük miqyasda törədilən dağıntılar və əmlakın ələ keçirilməsi;
- hərbi əsirin və ya mülki şəxsin düşmən dövlətin silahlı qüvvələrində qulluq etməyə məcbur edilməsi;
- hərbi əsirin və ya mülki şəxsin qərəzsiz və normal məhkəmə araşdırmasına olan hüququndan qəsdən məhrum edilməsi;
- girov götürülməsi.

2) beynəlxalq humanitar hüququn pozulması ilə qəsdən törədilmiş və ölümlə nəticələnən və yaxud səhhətə ciddi zərər yetirən aşağıdakı əməllərdən hər hansı biri:

- mülki əhalinin və ya ayrı-ayrı mülki şəxslərin hücum obyekti edilməsi;
- şəxsin kombatant olmadığını və ya artıq sıradan çıxdığını



("hors de sombat") bilərək, onun hücum obyekti edilməsi;
- qırmızı xaç, qırmızı aypara və ya qırmızı şir və günəş və yaxud digər tanınmış fərqləndirmə emblemlərindən sui-istifadə edilməsi.

3) beynəlxalq humanitar hüququn pozulması ilə qəsdən törədilmiş aşağıdakı əməllərdən hər hansı biri:

- işğal edən dövlət tərəfindən öz əhalisinin bir hissəsinin işğal etdiyi əraziyə köçürülməsi;
- hərbi əsirlərin və ya mülki şəxslərin geri qaytarılmasının (reparitasiyasının) əsas olmadan yubandırılması.

4) beynəlxalq humanitar hüququn pozulması ilə şəxsi ləyaqətin təhqir edilməsi, o cümlədən insan ləyaqətini alçaldan rəftar, zorlama, məcburi fahişəlik və əxlaqsız hücumun hər hansı bir forması:

5) müharibə qanun və ədalətlərinin pozulması ilə törədilmiş aşağıdakı əməllərdən hər hansı biri;

- zəhərli silahların və ya lüzumsuz əzab-əziyyət törətmək üçün nəzərdə tutulmuş digər silahların tətbiq edilməsi;
- şəhər, qəsəbə və ya kəndlərin mənasız dağıdılması və yaxud hərbi zərurətlə əsaslandırılmayan soyğunçuluq;
- müdafiə olunmayan şəhərlərin, kəndlərin, binaların və ya yaşayış evlərinin və yaxud hərbsizləşdirilmiş zonaların istənilən vasitələrlə bombardman edilməsi;
- dini, təhsil, incəsənət və elm idarələrinin, tarixi abidələrin və incəsənət və elm əsərlərinin qəsb edilməsi, dağıdılması və ya onlara qəsdən ziyan vurulması;
- ictimai və ya xüsusi əmlakın talan edilməsi.

6) beynəlxalq xarakter daşımayan silahlı münaqişə zamanı tətbiq olunan beynəlxalq humanitar hüququn pozulması ilə törədilmiş aşağıdakı əməllərdən hər hansı biri:

- adamların həyatına, səhhətinə, fiziki və ya psixi durumuna qarşı zorakı hərəkətlər, o cümlədən qəsdən adamöldürmə və



Azərbaycan Milli Kitabxanası

habelə işgəncə, şikəstetmə kimi qəddar rəftar və yaxud bədən cəzasının istənilən forması;

- kollektiv cəzalandırma;- girov götürülməsi;
- terror aktları;
- şəxsi ləyaqətin təhqir edilməsi, o cümlədən insan ləyaqətini alçaldan rəftar, zorlama, məcburi fahişəlik və əxlaqsız hücumun hər hansı bir forması;
- hərbi soyğunçuluq;
- məhkəmə tərəfindən bundan qabaq elan olunmuş qərar olmadan hökm çıxarılması və hökmün yerinə yetirilməsi.

***P.S.*** *Əski sovet ordusunun törətdiyi bu cinayət təbii ki, Rusiyanın hərbi-siyasi dairələrini narahat etməyə bilməzdi. Əsrlər boyu Azərbaycan türklərinə qarşı ermənilərlə bir cəbhədə dayanan keçmiş rus hərbi birləşmələri XX əsrdə növbəti vəhşiliklərini Xocalıda, Şuşada, Azərbaycanın 20 faiz torpaqlarının işğalında oynadı. Xocalı soyqırımının törədilməsində 366-cı rus alayının iştirakı faktlarla, dəlillərlə təsdiq olundu. Həmin vaxt rus mətbuatı bu olaylarda hərbi birləşmələrinin iştirak etmədiyi xəbərlərini ardıcıl şəkildə çap etdirsə də, artıq dünya faciəsinin miqyasında "rus izlərini" qabarıq şəkildə təqdim edirdilər. Rusiyanın Azərbaycanda səlahiyyətli səfiri Volter Şoniya heç nə olmamış kimi davranır, təmkin nümayiş etdirirdi. Türkcə danışmağı özünün məşğuliyyəti hesab edən səfir, Xocalı soyqırımını təsdiqləməklə mətbuat üçün bu məzmunda bəyanat yaydı: "Bu faciə qarşısında bir insan kimi baş əyirəm. Fikrimcə, Xocalıda törədilən hadisə bəşəriyyətin adına silinməz ləkədir. Bəşər mədəniyyətinin XX əsrində belə bir facia yolverilməzdir. Biz hələ bir-birimizə aid davranış qaydalarını öyrənməliyik. Uşaqları, qadınları, dinc əhalini öldürmək isə bütün dövrlərdə bağışlanmaz cinayət sayılıb. Bu, ibrət dərsidir və bizim borcumuz bir daha belə faciələrin təkrarına yol verməməkdir. Təəssüf ki, ayrı-ayrı*



*siyasi xadimlər indi də öz ambisiyalarından əl çəkmək istəmirlər. Halbuki bir problemi danışıq, sülh yolu ilə həll etmək mümkündür. Xocalı faciəsində 366-cı alayın iştirakı böyük söz-söhbətə səbəb olub. Təəssüf ki, bu barədə də həqiqətləri bilmirik. Əlbəttə, ola bilər ki, alayın ayrı-ayrı zabitləri, əsgərləri ermənilər tərəfindən cinayətə cəlb ediliblər. Bu cür faktlar təkcə Azərbaycanda yox, keçmiş SSRİ-nin digər qaynar nöqtələrində də ola bilər. Lakin MDB-nin 366-cı alayının bütün texnikası, canlı qüvvəsi ilə Xocalı faciəsinə müdaxiləsini inkar edirəm. Bu gün mən də Azərbaycan xalqının kədərinə qoşulur, bu faciədə həlak olanların ailələrinə, yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm.*



Azərbaycan Milli Kitabxanası

## *Xocalıda yalnız meyitlər qaldı*

Xocalı - Dağlıq Qarabağda yaşayış məntəqəsi olmaqla yanaşı, bir vaxtlar qəsəbə hesab olunurdu. Xocalı rayonu şimaldan və şimal-şərqdən Kəlbəcər və Ağdam rayonları, qərbdən isə Laçın rayonu ilə həmsərhəddir. Səthi əsasən dağlıq zonadan ibarətdir. Rayonun ərazisi 926 kvadrat kilometrdir. Əvvəlki adı Xocalı olmuş; 1930-78-ci illərdə Stepanakert Xankəndi, 1978-91-ci illərdə Əsgəran, 1991-ci ildən isə yenidən Xocalı adlandırılmışdır. Rayonun qərb sərhədi boyunca Qarabağ silsiləsi uzanır. Qarabağ silsiləsinin şərq yamacları Xocalı ərazisində Qarabağ və Mil düzlərinə tərəf çay dərələri boyunca uzanır. Rayonun ən yüksək zirvələri 2843 metr hündürlüyü olan Qızqala və 2827 metr hündürlükdə olan Qırxqız dağlarıdır. Xocalı ərazisində Yura, Tabaşir, Antropogen çöküntüləri yayılmışdır. Ərazi faydalı qazıntılarla-gil, qum, çınqıl, gillicə və s. zəngindir. İqlimi əsasən qışı quraq keçən mülayim istidir. Orta temperatur qışda 0 dərəcə S-yə yaxın, yayda 24 dərəcə S olur. İllik yağıntı 500-700 mm-dir. Əsas çayı Qarqar çayıdır. Rayon ərazisində qəhvəyi dağ-meşə, dağ-çəmən və çimli dağ-çəmən torpaqları yayılmışdır. Ərazisinin 40 faizi meşələrdən /palıd, fıstıq, tut və s./ ibarətdir. Dağlıq sahələri alp və subalp çəmənləri ilə örtülmüşdür. Alçaq dağətəyi sahələrdə Kserofit kolluqlar və çəmənlər vardır. Rayonun kənd təsərrüfatında heyvandarlıq, üzümçülük və taxılçılıq əsas yer tuturdu. Əhali arıçılıq, baramaçılıq və meyvəçiliklə də məşğul olurdu. Rayonda şərab və pivə zavodları, məişət xidməti kombinatı, tikinti müəssisəsi, 100 çarpayılıq xəstəxana, 28 feldşer-mama məntəqəsi, sanitariya epidemioloji stansiya, 30 məktəb, 36 kitabxana, 13 mədəniyyət evi, 31 klub, 37 kinoqurğu və s. vardı.

Xocalı rayon və şəhər statusu alandan sonra böyümüş, orada



irimiqyaslı yaşayış massivləri salınmışdır. Ermənistandan, Xankəndindən didərgin düşən soydaşlarımız, Özbəkistandan köçüb gəlmiş /Fərqanədən erməni fitnəkarlığı nəticəsində qaçqın düşən Ahıska türkləri/ yüzlərlə məhsəti türkü də Xocalıda məskunlaşmışdır. Bəli, şəhər böyüyürdü, gözəlləşirdi; heç demə, bu böyüklüyün içərisində gələcəkdə böyüyəcək Xocalı dərdi, Xocalı faciəsi də cücərirmiş. Qədim Xocalı kəndi tarixən 1905-06-cı və 1917-18-ci illərdə də xəyanətkar ermənilər tərəfindən yandırılaraq talan edilmişdir.

Ermənistandan qovulmuş qaçqın azərbaycanlıların və Özbəkistandan gəlmiş qaçqın ahıska /Məhsəti/ türklərinin hesabına əhalisinin sayı 7.000-ə çatmışdı. Dağlıq Qarabağda erməni işğalçılığı nəticəsində 1991-ci ilin yayında və payızında xocalıların, demək olar, yarısı şəhəri tərk eləməyə məcbur olub. Erməni yaraqlı dəstələri Xocalını hər tərəfdən mühasirəyə aldığından, yolları, keçidləri tutduğundan şəhərin quru yolla hər yanla əlaqəsi kəsilmişdir. 1991-ci ilin əvvəlindən elektrik enerjisi də kəsilmişdir. Xocalıların xarici aləmlə yeganə əlaqəsi ratsiya ilə /generatorla/ işləyir və gediş-gəlişi vertolyotla idi.

Ümidini itirmiş, ruhdan düşmüş, elementar yaşayış vəsaitindən məhrum olmuş xocalılar şəhəri tərk etməyə başladılar. Şəhərdə məsul rəhbər vəzifələrdə çalışan bəzi şəxslər də gedirdilər, daha doğrusu, çətin anlarda aradan çıxırdılar. Axırıncı vertolyot reysi ilə Xocalı RDİŞ rəisi Sabir Məmmədov da uçub getdi. Onu Xocalıdan heç kim geri çağırmamışdı və onun tabeliyində olan əməkdaşlardan biri rəisin düz üzünə, onun getməyini fərarilik adlandırırdı; rəhmətlik Əlif Hacıyevin döyüşçülərindən İlham ən sonuncu tədbirə əl atdı, onun qabağını kəsib silah gücünə vertolyota buraxmamağa cəhd göstərdi. Amma Məmmədov nə hiylə qurdusa, onları aldadıb vertolyota təpildi.

Bu əhvalat 1992-ci il fevralın 13-də baş verib. Vertolyotlara minmək istəyənlər çox idi - təxminən 700-800 nəfər. Amma

vertolyotlar cəmi 300-ə yaxın adam götürə bilərdi. Vəd edilmişdi ki, vertolyot bir də qayıdacaq. Yerdə qalan camaat oturub təyyarə meydanında gözlədi. Onlar bilmirdilər ki, bu, axırıncı reys idi.

Yeri gəlmişkən, qeyd etməliyik ki, hətta bu axırıncı vertolyot da bu işlə məşğul olası vəzifəli şəxslərin fəaliyyətinin nəticəsi deyildi, o, ayrı-ayrı adamların şəxsi səyi sayəsində Gəncədən uçub gəlmişdi, əsasən aqrar məsələ üzrə keçmiş dövlət müşaviri Abbas Abbasovun və Gəncə şəhər DİŞ-nin rəisi Eldar Həsənovun təşəbbüsü ilə.

Həmin gündən, 1992-ci il fevralın 13-dən etibarən xocalılar heç kimdən heç bir kömək görmədilər. Onların diqqətlərinin, ümidlərinin, intizarlarının bağlandığı yeganə ratsiya ilə onlara hər gün vertolyot və kömək vəd edirdilər, vəd edirdilər ki, mühasirəni yarıb gələcəklər, çatacaqlar onların dadına, hətta konkret gün, saat da təyin edilmişdi. Onlara deyirdilər: çaxnaşma salmayın, hər şey qaydasında olacaq. Onlar hətta danlayırdılar da - səbirsizliyə görə, hay-küyə görə. Bir dəfə onlara xəbər verdilər ki, iki vertolyot göndərilib, qarşılayın. Onları qarşılamağa yüyürdülər, lakin heç bir vertolyot gəlmədi. Bu vaxt onlara ratsiya ilə deyirdilər: onlar uçurlar, doğrudanmı siz onları görmürsünüz? Bir dəfə onlara dedilər: qarşılamağa hazırlaşın, sabah səhər 10-da sizin yanınızdayıq, bir yerdə çay içəcəyik. Xocalılar nəinki çay, hətta qurban kəsməyə də hazırlaşmışdılar. Səhər oldu, yenə də heç kim gəlmədi.

Milli Təhlükəsizlik Nazirliyinin məlumatlarında hər gün deyilirdi: "Bu il fevralın 12-də və 13-də erməni yaşayış məntəqələrindən, Naraqix və Mehdiabad səmtindən Xocalı şəhəri PDM-dən atəşə tutulub. Əhalidən 2-si yaralanıb, bir neçə bina dağıdılıb. hərbi texnikanın /4PDM, ZTR və b./ irəlilədiyi müşahidə olunur /vəziyyət barədə Ş.Musayevə /Azərbaycan Respublikasının müdafiə naziri/ məlumat verilib/".



Bu məlumat 14.02.92 tarixdə verilib.

Bu isə fevralın 16-nın məlumatıdır: "Fevralın 15-də saat 17.00-da Xocalı şəhəri ZTR-dən, PDM-dən aramsız atəşə tutulub. Vəziyyət ağırdır. Təcili tədbir görmək lazımdır, xüsusilə mühüm strateji obyekt olan təyyarə meydanını qorumaq üçün..."

Belə məlumatların statistikasını genişləndirmək də mümkündür. Ancaq nə faydası. Bakıya gələn bütün siqnallar, xəbərdarlıqlar barədə söhbət açacağıq.

Hələlik yalnız onu qeyd etməyi lazım bilirik ki, Xocalıda və Xocalı ətrafında baş verənlər barədə Bakıda hər şeyi dəqiq bilirdilər.

Onu da bilirdilər ki, Xocalının müntəzəm atəşə tutulmasında 4-cü ordunun 23-cü diviziyasının Xankəndində yerləşən 366-cı alayının hərbi texnikasından geniş istifadə edilir. Bu barədə həmin hərbi birləşmənin rəhbərliyi də bilirdi, 4-cü ordunun komandiri özü də məlumatlıydı.

Hələ yanvarın ikinci yarısında Ağdam rayonunun bir qrup ağsaqqalı 4-cü ordunun komandanı, general N.Popovun qəbulunda olmuşlar və bunların hamısı barədə danışmışlar: 366-cı alayın texnikasının Azərbaycan yaşayış məntəqələrinə qarşı hərbi əməliyyatda istifadə edildiyi barədə də, alayın silahlarının, hərbi sursatlarının erməni yaraqlılarına açıq-aşkar satıldığı barədə və alayın məişət pozğunluqları barədə v.b.k.

Komandan vəd eləyirdi ki, tədbir görəcək, amma heç bir tədbir görmədi.

Hələ fevralın 4-də alayı könüllü olaraq tərk etmiş hərbi qulluqçular danışırdılar ki, onları necə dinc azərbaycanlı əhaliyə qarşı vuruşmağa vadar eləmək istəyirdilər, danışırdılar ki, erməni millətindən olan hərbi qulluqçular onların cinayətkar əmrlərini yerinə yetirməyən hərbi qulluqçuları necə ölüncə döyürdülər; danışırdılar ki, alayın texnikasının hər gecə sirli, gecə "səfərin-



Azərbaycan Milli Kitabxanası

dən" sonra bu gecə reydlərində iştirak edənlərin cibləri necə pulla dolurdu, bəzi komandirlərin arvadlarına hətta dollarlar da nəsib olurdu.

Bir neçə gündən sonra Ağdam icra hakimiyyətinin başçısı S.Verdiyev 4-cü ordunun komandanı N.Popova teleqram göndərərək alayın Qarabağın azərbaycanlılar yaşayan məntəqələrinə qarşı etdikləri /o cümlədən Xocalıya/ şərəfsizlikləri sadalayır və onu bu sözlərlə tamamlayırdı:

"Yuxarıda qeyd olunanlardan... tələb edirəm: 366-cı alayın döyüş texnikasından istifadə olunmasının qarşısını almaq üçün təcili əməli tədbir görəsiniz; eləcə də yaxınlıqdakı Azərbaycan yaşayış məntəqələrinin qorunması və müdafiəsi məsələsini həll edəsiniz".

Bu teleqrama da cavab verilmədi.

Milli Təhlükəsizlik Xidməti radiodalğalarda tutduğu kiçik bir fraqmenti olduqca əhəmiyyətlidir.

366-cı alayın iki hərbi qulluqçusu danışır.

Radio ilə danışanların biri 13-cüdür, o birisi 53-cü. Hər üç sözdən sonra bir-birlərini söyürlər. /Biz söyüşü çıxarmışıq/.

- Bir milyon pul, hanı o bir milyon?
- Kimə bir milyon saxlamalıyam?
- /anlaşılmır/ Gələndə demişdin ki, bizim üçün bir milyon pul saxlamısan.
-...Orda, bilmirəm, milyondu, milyon deyil, amma... yarısı bizimdir, yəqin bil. Başa düşdün?"

Bu danışıq gələcək hücumun iştirakçıları arasında, Xocalı faciəsindən bir az qabaq olmuşdur.

Hələlik isə xocalılar gözləyir və ümid edirdilər. Onlar bilmirdilər ki, fevralın 21-də, hücumdan 4 gün əvvəl, Bakıda, Prezident Aparatında, Təhlükəsizlik Şurasında onların taleyi əslində həll olunmuşdu.

Bu barədə bir qədər sonra söhbət açacağıq.



Bəs görəsən, respublikanın rəhbərliyi. o cümlədən Müdafiə Nazirliyi Xocalıdakı vəziyyətlə, onun bütün problemləri, ən ümdə ağrılı nöqtələri, Xocalının, özü və Xocalıya dəxli olan bütün məsələlər barədə kifayət qədər məlumata malik idimi?

Biz Xocalı faciəsinə qədər, təxminən iki ay müddətində baş verənləri nəzərdən keçirdik. Saysız-hesabsız məktubların, müraciətlərin, teleqramların, respublika mətbuatındakı çıxışların və arasından ən vacib saydığımız, qeyd olunan problemi tam işıqlandıran sənədləri seçib sizin nəzərinizə çatdırmağı lazım bildik.

Keçən ilin dekabrının 17-də Xocalı icra hakimiyyətinin başçısı E.Məmmədov prezident A.Mütəllibovun ünvanına göndərdiyi teleqramda yazırdı:

"Sizə məlumat verməyi özümə borc bilirəm ki, Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndləri ermənilərlə hərbçilərin birgə hücumları nəticəsində işğal olunur. Stepanakett və Əsgəran arasındakı yolu açmaq üçün Xocalı şəhərinə çox güclü hücum hazırlanır. Bizi məhv etmək üçün ermənilər hər vasitəyə əl atacaqlar. Erməni vertolyotlarının çoxsaylı uçuşları da bunu sübut edir. Sizdən xahiş edirəm ki, bir an belə gecikmədən Xocalının etibarlı müdafiəsi üçün ciddi tədbir görəsiz. Xocalı Dağlıq Qarabağda Azərbaycanın strateji cəhətdən vacib olan əsas dayaq mərkəzidir. Təcili kömək gözləyirik".

Qeyd etməliyik ki, teleqram dekabrda vurulub, o vaxt Xocalı faciəsinin baş verməsinə iki aydan çox vaxt var idi.

Prezidentin teleqram üzərindəki dərkənarı:

"M.Abbasov yoldaşa

Xahiş edirəm, müvafiq tədbirlər həyata keçirəsiniz".

Dövlət katibi Midhət Abbasovun prezidentə cavabı:

"Daxili İşlər, Müdafiə və Milli Təhlükəsizlik nazirliklərinin rəhbərliyi ilə danışılıb və müvafiq tapşırıqlar verilib. Keçirilən tədbirlər üzrə qarşılıqlı razılıq var.

Vəssalam. Məhz hansı təklif, hansı konkret tədbir, kimə kon-



Azərbaycan Milli Kitabxanası

kret nə tapşırılıb, bu tapşırığın icrasına lazımi nəzarət olubmu? Bu sualın cavabı yoxdur.

Bir qrup müharibə veteranı da, o cümlədən istefaya çıxmış üç general - M.Nəsirov, Firudin Hüseynov, K.Məmmədov - olduqca ciddi, hərtərəfli bir sənəd hazırlayıb prezident A.Mütəllibova göndərmişdilər. Bu ilin yanvar ayında onlar Dağlıq Qarabağda olmuş və səfərlərinin nəticəsi barədə prezidentin diqqətini cəlb edə biləcək arayış təqdim ediblər. Arayışda bölgədəki problemlər /təkcə hərbi yox/ professionallıqla mükəmməl sadalanır və bu problemlərin həllinin konkret yolları göstərilir.

Həmin sənəddə deyilir:

"Nümayəndələrimizin yekdilliklə qeyd etdiyi ən başlıca məsələ budur ki, Dağlıq Qarabağ məsələsinin həlli üçün indiyədək dəqiq işlənmiş aydın konsepsiya yoxdur. Elə yəqin bir səbəb də budur ki, regionda, respublikada lazımi nəzarət və rəhbərlik hiss olunmur. Artıq özünün ən yüksək zirvəsinə çatmış problemin həlli üçün siyasi, iqtisadi, hərbi təbliği aspektlər heç kəsə aydın deyil.

...Erməni yaraqlılarının hərəkətləri son zamanlar xüsusilə fəallaşmış, planlı, ardıcıl və mütəşəkkil şəkil almışdır.

Son günlər baş verən böyük faciəli hadisələr bunu xüsusilə təsdiq edir.

Dağlıq Qarabağın Azərbaycan kəndləri növbə ilə boşaldılır və başdan-başa yandırılır. Bu da həmin kəndlərə azərbaycanlıların bir daha qayıda bilmək ehtimalına son qoyur.

Bu, təkcə erməni yaraqlılarının fəallaşması ilə əlaqədar yox, həm də həmin kəndlərdə müqavimətin zəifləməsi ilə əlaqədardır.

Hadisələrin dinamikası göstərir ki, birinci vertolyot faciəsindən sonra bu müqavimət xüsusilə zəifləmişdir. Təcili və qəti tədbir görülməzsə, son hadisələr onu heçə endirə bilər.

...Dağlıq Qarabağın Azərbaycan kəndlərinin müdafiəsində



Müdafiə, Milli təhlükəsizlik, Daxili İşlər nazirliklərinin və yerli könüllü müdafiə dəstələrinin arasında heç bir hərəkət birliyi yoxdur və bu, işə böyük zərər vurur.

Daha dözülməzi, Müdafiə Nazirliyinin öz hissələri arasında da razılaşdırılmış fəaliyyət planının olmamasıdır.

Müdafiə Nazirliyi və onun batalyonları xırda cari məsələlərlə başını qarışdırıb, hərbi hissələrin formalaşmasını yaddan çıxarırlar.

...Bu gün hətta yaradılmış və yaradılmaqda olan batalyonların komandirləri belə dəqiq bilmirlər ki, hansı hissələr - könüllülər, yerli hissələr, ordu hissələri hansı kateqoriyalarda yaradılmışdır. Bəzi batalyonların əslində adı vardır.

...Ən dözülməz odur ki, respublika və yerli hakimiyyət orqanlarının qarşılıqlı razılaşdırılmış hərəkət proqramı yoxdur.

...Yerli hakimiyyət orqanlarının, onsuz da güzəranı faciəli olan əhalinin hesabına silah və hərbi sursat əldə etməsi onların amanını kəsmişdir /ən dəhşətlisi odur ki, bunlar müxtəlif hərbi hissələrdən yüksək qiymətə satın alınır/. Onların bu qayğısı özünümüdafiə dəstələrini təmin etmək üçündür və çox zaman son dərəcə yarıtmaz təchiz olunan Müdafiə Nazirliyinin hissələrinə də kömək etməli olurlar. Əsasən tədris silahları və cüzi miqdarda patronla təchiz olunmuş döyüşçü, döyüş zamanı faciəli vəziyyətdə qalır. Və istər-istəməz belə suallar meydana çıxır: bütün respublika ictimaiyyətinin köməyilə toplanan milyonlardan nə üçün istifadə olunmur, onlar hara gedir?

Müdafiə Nazirliyinə 250 milyon manat vəsaitin dövlət büdcəsindən ayırlması və ictimai əsaslarla 80 milyon manat toplanması hamıya məlumdur. Lakin batalyonlar norma əsasında ərzaq və geyim üçün müəyyənləşdirilməmişdir. Batalyonlarda aylarla məvacib verilmir və bu günə qədər məvacibin məbləği də məlum deyildir. Orduya cəlb olunan zabitlər iş yerindən azad edilir, burada da məvacib almırlar. Belə halda, onların ailələrinin indi-



Azərbaycan Milli Kitabxanası

ki böhranlı şəraitdə düşdüyü vəziyyət və onun müqabilində orduda təbii olaraq yaranan əhval-ruhiyyə heç kəsi maraqlandırmır.

...Müdafiə Nazirliyinin öz rəhbərliyində də yekdilliklə və birgə razılaşdırılmış hərəkət xəttinin olmaması hissələrdə hamıya məlumdur. Belə halda burda hansı yekdillikdən danışmaq olar? Bakıya Müdafiə Nazirliyinə gəlmiş batalyon komandirləri günlərlə nazirliyin koridorlarında dolaşır, heç kəs onları qəbul etmir. Nazirliyin adamları batalyonlarda demək olar ki, olmurlar.

...Rabitə vəsaitləri heç bir ölçüyəsığmaz dərəcədə yarıtmazdır.

...23-cü Gəncə diviziyasının Stepanakertdəki polkunun bütün hərbi texnikası və sursatının ermənilərin əlinə keçəcəyinə ehtimal gündən-günə artır. Polkda xidmətdə olan çoxlu zabitin və 50-dən çox praporşikin erməni olması və həm də bir çox başqa millətlərdən olan zabitlərin də onların tərəfində olması... bunun reallığını artırır.

...Prezident idarəsinin Qarabağ regionu üçün yaradılmış yüksək səlahiyyətli prezident idarə müvəkkilliyinin fəaliyyəti hiss olunmur.

Arayışın sonunda deyilir:

...Hörmətli Ayaz Niyazoviç!

Belə hesab edirik ki, son dərəcə həyəcanlı bir vəziyyət yaranmışdır və bilavasitə rəhbərliyiniz altında təxirəsalınmaz tədbirlər görülməsini vacib bilirik".

Prezident tərəfindən bu sənədə heç məhəl də qoyulmadı. Dövlət katibi M.Abbasovun dərkənarı ilə dövlət müşavirlərindən üçünün üstünə göndərildi - Adil Hacıyevin, Sabir Hacıyevin və Kamran Rüstəmovun - "Xahiş edirəm, rəyinizi bildirəsiniz". Araşdırma nəticəsində aydın olur ki, dövlət müşavirlərindən yalnız biri cavab verib - Adil Hacıyev, o da yarım səhifə həcmində. Özünüz də yəqin fikir verirsiz ki, biz hər hansı şərhdən,



emosiyadan imtina etməyə çalışırıq; amma belə soyuqqanlı münasibətdən sonra imtina eləmək çox çətindir. Belə bir həyəcan dolu, haray çəkən konkret faktlarla, hər sətrin üzərində düşünüb tədbir görmək əvəzinə sənəd dövlət müşavirinin, özü də kadrlar məsələsi üzrə, laqeyd, tamamilə formal cavabı, intonasiyasına görə, yeni il təbrikini xatırladır. Əvvəlcə, cavab olaraq Qarabağa respublikanın mövcud olmayan köməyinin nailiyyətləri sadalanır, sonra da keçmiş sovet sənədlərinə xas olan düstur gəlir: "Müraciətin müəlliflərinə, gördükləri işə görə təşəkkürümüzü bildiririk".

Bu sənəddən on gün əvvəl, yəni 21 yanvarda prezident A.Mütəllibovun ünvanına Qarabağ zonası üzrə prezident müvəkkili Musa Məmmədovun adından öz arzusu ilə ora gedən general Kamil Məmmədov tərəfindən hazırlanmış bir arayış da göndərilmişdi.

Həmin arayışı, cüzi ixtisarla, olduğu kimi sizə təqdim edirik.

M.Q.Abbasov yoldaşa.

Xahiş edirəm, tanış olun. Qeyd olunan rayonlar və bütövlükdə təhlükəsizlik barədə məsələlər hazırlamaq lazımdır və mənim göstərişimlə Təhlükəsizlik Şurasında planlı olaraq müzakirəsinə başlanılsın. Bu qeydlər üzrə əməli göstərişlər verin!

A.Mütəllibov

22.01.92.

Yenə də heç bir tədbir görülmədi. Heç kəs düşünmədi ki, Xocalı qana çalxalanır.

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin 14.02.92-ci il tarixli arayışından fraqmentlər:

"Xocalı şəhərinin vəziyyəti barədə.

Hazırda şəhərdə aşağıdakı qüvvə və vəsait vardır:

- yerli batalyon - 80 nəfər,



Azərbaycan Milli Kitabxanası

- milli ordunun hərbi qulluqçuları - 20 nəfər,
- aeroportun keşiyi həvalə olunmuş yerli milis əməkdaşları - 60 nəfər.
- avtomat silahlar - 200-250 vahid.
- BRDM - 1 vahid /mərmi yoxdur/,
- artilleriya topu /102 mm kalibrli/ - 1 vahid /mərmiləri qurtarır/,
- AQS-17 - 1 vahid,
PD-25 qurğular - 4 vahid.

Mövcud vəziyyət barədə general-mayor Ş.Musayevə /Azərbaycan Respublikasının Müdafiə Nazirliyi/ məlumat verilib".

Milli Təhlükəsizlik Nazirliyinin xətti ilə 18.02.92-ci il tarixdə Gəncədə vurulan telefonoqramda deyilir /fraqmentlər/:

"Erməni yaraqlılarının Xocalı şəhərinə hücumlarını dəf etmək üçün təxribat-kəşfiyyat dəstəsi yaratmaq və onu lazımi silahlarla təchiz etmək lazımdır. Lakin hazırda Xocalı müdafiəçilərində olan silahlar /1 BRDM və 1 ZTR/ hücumun qarşısını almaq üçün kifayət deyil...

...Yaraqlıların hazırda əsas məqsədi şose yolunun Şuşa- Laçın sahəsini tutmaqdır ki... sonra da əsas zərbəni Şuşa şəhərinə vura bilsinlər...

...Şuşa-Laçın yolu ilə Gorus rayonu ərazisinə koridor açmaq barədə təbliğat aparılır".

Xahiş edirik, diqqət yetirin - fevralın 18-də MTN ermənilərin Şuşa və Laçın barədə konkret planlarını xəbər vermişdi.

Telefonoqramdan fraqmentlər:

"...Bundan əlavə, bu yaxınlarda silahlı dəstələrin rəhbərliyində dəyişiklik olub. Belə ki, müdafiə naziri /bədnam Dağlıq Qarabağ Respublikası nəzərdə tutulur" - A.A./. Serjik Sərkisyan adlı birisi təyin olunub - 36-38 yaşlarındadır, keçmiş komsomol işçisidir... Stepanakertdə Ermənistandan hərbi və mülki vertolyotlarda gələnlərin hesabına, yaraqlıların sayı artır.



Serjik Sərkisyanın dediyinə görə, onlar yaxın vaxtlarda Xocalı şəhərini tutmağı planlaşdırırlar.

Bu barədə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə məlumat verilib".

Bu sənədlərə əməliyyat və agentura əməkdaşlarının verdikləri bir yığın şəxslərin məlumatları, faktları da, müxtəlif vəzifəli şəxslərin, ayrı-ayrı vətəndaşların müraciətini, məktublarını, əsirlərin dediklərini əlavə edin. Nəticə birmənalıdır: respublikanın rəhbərliyi də, Müdafiə Nazirliyinin rəhbərliyi də borcları idi, dəqiq, incəliklərinə qədər bilməliydilər - Xocalıdakı vəziyyəti də, Xocalıya hazırlanan hücumu da, hətta hücumun təxmini də olsa vaxtını da.

Hətta facia ərəfəsində də prezident bir teleqram və bir şifroqram almışdı.

Birincisi, Xocalı prokuroru A.Atakişiyevdən gəlmişdi /söz yox ki, Ağdamdandır/; surəti - baş prokuror M.Babayevə və "24 saat" teleproqramına.

Onlar hələ də inanır və kömək gələcəyinə ümid edirdilər. Səciyyəvi haldır ki, bu anda da teleqram iki ay ondan əvvəl vurulmuş teleqramın sözləri ilə başlanır:

"Əziz rəhbərimiz, Xocalı artıq əldən gedir, bütün bu hadisələr Xocalının üstündədir: Əgər siz bizə bu gün kömək elməsəz, artıq 4 illik zəhmət hədər gedəcək. Biz sizdən təxirəsalınmaz kömək gözləyirik. Xocalı Azərbaycanın taleyini həll edir".

Elə həmin gün, fevralın 25-də prezidentə respublika Ali Sovetinin sədr müavini T.Qarayev də Ağdamdan şifroqram göndərmişdi.

Şifroqramdan fraqmentlər:

"...Xocalıda və Umudluda qüvvə tamamilə tükənib. Yeni qüvvə gəlmədiyindən /iki gündən çoxdur vertolyotlar uçmur/ erməni yaraqlılarına müqavimət göstərmək ən aşağı səviyyəyə enmişdir. Hər hansı ləngimə ağlagəlməz nəticəyə gətirib çıxara



Azərbaycan Milli Kitabxanası

bilər.

Xocalı şəhərini və Umudlu kəndini mühasirədən çıxarmaq üçün qəti tədbirlər görülməlidir. Bu məqsədlə Ağdama məsul və səriştəli şəxs göndərilsin və bu tədbirlərin bir sutka ərzində təşkili ona həvalə olunsun.

...Yuxarıda qeyd olunanlar barədə dəfələrlə səlahiyyətli orqanlara və şəxslərə məlumat verilib.

Sizin qərarınızı gözləyirəm".

Onun üzərində hətta prezidentin dərkənarı da yoxdur. Buna cavab olaraq, təəssüf ki, Xocalıya hücum başlanmışdı - fevralın 25-dən 26-na keçən gecə.

O vaxtlar Xocalı da, Ağdam da cəbhə xəttinə xas olan gərgin, ağır günlərini yaşayırdı. Bakıda, Prezident Aparatında Təhlükəsizlik Şurasının - respublikanın, mahiyyətcə, ali icra orqanı, başda prezident olmaqla, demək olar, hər gün iclas keçirirdi.

Xocalıya dəxli olan faktları axtara-axtara, həmin iclasların bəzi nüanslarından xəbərimiz var.

Ancaq təbii ki, bu protokollar olduqca formal səciyyə daşıyır, bir-birinə oxşayır, ekizlər kimi, konkretlikdən uzaq, ümumi kəlmələrlə doludur. Onlar ötən illərin partiya sənədlərini çox xatırladırlar - dil üslubuna, cümlə quruluşuna görə, real həyat nəfəsinin olmamasına görə. "Qeyd olunsun", "müəyyən tədbirlər görülsün", "məsələlərin həllinə diqqət yetirilsin", "nəzərə alınsın" - belə və bələlərinə bənzər, bir qayda olaraq, heç bir əməli iş, real, konkret fəaliyyət ifadə etməyən, boğazdan yuxarı deyilmiş kəlmələr. Göstərişlərin, əmrlərin, sərəncamların əksəriyyəti kağız üzərində qalmağa məhkumdur, icra verməkdən, öz fəaliyyətinə nəsə bir tənqidi baxışdan tamamilə uzaqdır.

Məsələn, yanvarın 29-da prezidentin yanında böyük bir iclas keçirilib; respublikanın 30-dan çox rəhbər işçisinin iştirakı ilə. Məhz həmin ərəfədə, yanvarın 28-də faciə baş verib - Şuşanın yaxınlığında vertolyot vurulub, 30-dan çox dinc vətəndaş həlak olub. Özü də bu, birinci faciə deyil, təəssüf ki, növbəti fəlakətdir, amma protokolun ilk, qeyri-təvazökar sətirləri bizi heyrətə gətirdi:

"Eyni zamanda qeyd edilməlidir ki, Azərbaycan Respublikası rəhbərliyinin səylərinə və gördükləri lazımi tədbirlərə baxmayaraq, bir çox rəhbər işçilər və vəzifəli şəxslər respublikanın ərazisində müharibə getdiyini, Azərbaycan xalqının, onun dövlətinin taleyinin bu müharibənin nəticəsindən asılı olduğunu hələ də dərk etməmişlər".

Əvvəla, bu ifadədə elementar məntiq yoxdur: əgər rəhbər işçilərin əksəriyyəti ƏN BAŞLICA MƏSƏLƏNİ dərk etmirlərsə, bəs onda respublika rəhbərliyinin səyləri və gördükləri lazımi tədbirlər nədən ibarətdir?

Biz bu epizodun üstündə ona görə dayandıq ki, onun biri, bizim zənnimizcə, keçmiş rəhbərliyimizin iş üslubu üçün olduqca səciyyəvidir.

Lakin hətta bu quru, bir-birinə oxşayan protokollarda da bizim üçün az-çox əhəmiyyətli olan ifadələr tapa bilmişik. Qarşımızda Təhlükəsizlik Şurasının iclasının iki protokolu var - 20 və 21 fevralda keçirilmiş iclasların. İkisində də gündəlik məsələlər, demək olar ki, eynidir, ümumi tərzdə Xocalıya dəxli var.

Fevralın 20-ci iclasının gündəlik məsələlərində yazılıb "Şuşa, Xocalı şəhərlərinin və başqa yaşayış məntəqələrinin təhlükəsizliyini təmin etmək üzrə tədbirlərin necə yerinə yetirildiyinin...müzakirəsi".

Sonra protokolda daha 10 bənd qeyd olunur, amma onların heç birinin bilavasitə Xocalıya dəxli yoxdur. Buna baxmayaraq, bu bəndlərdən dördü bizim diqqətimizi cəlb eləyir.

3-cü bənd:

"Bir sutka ərzində /bu il fevralın 21-də/ Umudlu kəndindən əhalinin köçürülməsini və Gəncə şəhərində yerləşdirilməsini

təmin etməli. Məsul şəxs - T.Kərimov".

Yadınıza salırıq: Umudlu kəndi ermənilər tərəfindən 01.03.92-ci işğal edilib, yəni Xocalıdan 4 gün sonra.

Lakin protokolda, təkrar edirik, Xocalının köçürülməsi barədə bir kəlmə də yazılmayıb. Nə onun köçürülməsi, nə dəhliz, nə də vertolyotlar barədə - heç nə yoxdur. Baxmayaraq ki, Xocalıya kömək barədə hər tərəfdən məktublarla, müraciətlərlə, telefonoqramlarla, teleqramlarla saysız-hesabsız xahişlər olunurdu.

2-ci bənd:

"Konflikt zonasındakı döyüş əməliyyatlarının gedişini əlaqələndirməli və razılaşdırılmamış əməliyyatların qarşısını almalı. Məsul şəxslər - Ş.Musayev, T.Kərimov".

Bizcə, burada ən vacib söz - "qarşısını almalı" kəlməsidir. Elə belə sadəcə desək - icazə verməməli. Biz yenə də öz fəallığımızdan, qətiyyətli olmaqdan qorxur, çəkinirik. Bu ovqat 4-cü bənddə də təkrar olunur:

"MDB silahlı qüvvələrinin komandanlığı qarşısında əsaslı tələblər qoymaq üçün... erməni silahlı dəstələrinin çoxaldığının videoçəkilişini aparmalı. Məsul şəxslər T.Kərimov, İ.Hüseynov".

Beləliklə, erməni silahlı dəstələrinin çoxalmağı - Təhlükəsizlik Şurasına məlumdur. Bu bir yerə yığılıb çoxalmağın məqsədi də aydındır. Bəs biz onların qarşısına nə çıxarırıq? Videoçəkiliş. Onu da bir yabançı əmiyə göstərmək üçün.

Bəs kim, Təhlükəsizlik Şurasının rəyincə, 2-ci bənddə deyildiyi kimi "konflikt zonasındakı döyüş əməliyyatlarını əlaqələndirməli" idi?

Xatırladaq: məhz elə həmin gün Tahir Əliyevi prezident Bakıya çağırtdırmışdır, Dadaş Rzayev on gün ondan əvvəl Goranboy rayonuna çağırılmışdı. Şahin Musayev Bakıdadır, hər axşam Təhlükəsizlik Şurasının iclasında iştirak edir, hətta Ağdam icra hakimiyyətinin başçısını da məhz həmin axşam dəyişdirməyi



qərara aldılar. /9-cu bənd: "Ağdam rayon icra hakimiyyəti rəhbərliyinin möhkəmləndirilməsi məsələsinə baxılsın"/.

Beləliklə, prezidentin və Təhlükəsizlik Şurasının fikrincə, bəs kim Qarabağ zonasında döyüş əməliyyatlarının gedişini əlaqələndirəcəkdi? Özü də hansı döyüş əməliyyatlarının?

Lakin bizim üçün ən əhəmiyyətli fakt 21.02.92-ci il tarixli protokoldadır, daha doğrusu, Təhlükəsizlik Şurasının ertəsi gün, növbəti iclasındadır.

İclasın gündəliyində qeyd olunub: "Xocalı şəhərinin müdafiəsini təmin etmək tədbirləri barədə".

Diqqətinizə bir daha çatdırırıq - MÜDAFİƏNİ TƏMİN ETMƏK TƏDBİRLƏRİ BARƏDƏ!

Konkret olaraq necə?

3-cü bənd:

"Xocalı şəhərindən yaralıları, vertolyotlardan istifadə etməklə, köçürməyi təmin etməli. Məsul şəxslər Ş.Musayev, T.Kərimov".

Fikir verirsinizmi - YARALILARI. Yalnız yaralıları!

Qeyd etdiyimiz anadək Xocalının bu gün-sabah işğal olunacağı barədə xeyli operativ və agentura məlumatları mövcud idi. Həm də bölgədə hadisələrin inkişafının məntiqi özü də bu barədə heç bir şübhə yeri qoymurdu. Amma Təhlükəsizlik Şurasında qərar çıxardırlar ki, Xocalıdan yalnız yaralılar köçürülsün. Niyə?

Şahin Musayev "Azadlıq" qəzetinə verdiyi müsahibəsində deyir: "Respublikanın rəhbərliyi Xocalı əhalisini köçürməyə razılıq vermədi. O məqsədlə ki, ermənilər şəhəri işğal edə bilməsinlər".

Sizin qarşınızda etiraf etməliyik ki, biz inanmadıq Şahin Musayevin dediklərinə. Belə qənaətə gəldik ki, yəqin o, respublikanın keçmiş rəhbərliyinin arxasında gizlətmək istəyir öz günahla-



Azərbaycan Milli Kitabxanası

rını. Lakin bu protokol bizi fikrimizi dəyişməyə vadar elədi. Protokolun 3-cü bəndi Ş.Musayevin dediklərini təsliq eləyir. Buradan da belə bir ehtimal yaranır ki, Milli Təhlükəsizlik Şurası belə ciddiyyətlə inanırmış ki, Xocalı şəhərində əhalinin qalması ermənilərin işğalının qarşısını ala bilər. Buna ayrı qiymət vermək heç cür mümkün deyil. Və əgər belədirsə, onda ilk növbədə Xocalı faciəsindən qabaq, bir ay ərzində, verdiyimiz ərazi itkilərinin sırf xronologiyasını birər-birər yada salaq:

21.01.92. Qeybalı kəndi.
12.02.92. Aşağı Quşçular.
12.02.92. Malıbəyli.
12.02.92. Yuxarı Quşçular.
17.02.92. Qaradağlı.

Bu qeyd olunan yaşayış məntəqələrində əhalinin olub-olmaması ermənilərin qarşısını ala bilmişdimi? Məgər onlar, ermənilər deyildilərmi o yerlərdə bizim adamları qovan və qıran?

Doğrudur, Xocalı kənd, oba deyil, şəhərdir, amma, doğrudanmı prezident də, Təhlükəsizlik Şurası da belə hesab edirmiş ki, düşmən şəhər əhalisini qırmağa cürət eləməz? Bir də axı necə BELƏ GÜMAN ELƏMƏK OLAR - özü də müharibə şəraitində, ali dövlət səviyyəsində?! Özü də, xatırladırıq Sizə, ondan düz üç gün əvvəl, fevralın 18-də Milli Təhlükəsizlik Nazirliyinin məlumatı qoyulmuşdu prezidentin masasının üzərinə; orada açıq-aşkar məlumat verilirdi ki, ermənilər Şuşanı işğal etmək üçün plan hazırlayırlar. Onların artıq Şuşa barədə, Xocalıya nisbətən daha geniş planları mövcud idi.

Əlbəttə, aydın məsələdir ki, bu epizoda son nöqtəni istintaq orqanları qoyacaq, biz isə hələlik faktlara və məntiqə istinad edə bilərik. Və yenə "məntiqi işə salaraq" etiraf etməliyik ki, madam yaralıları VERTOLYOTLARLA köçürmək qərara alınmışdı, Təhlükəsizlik Şurasının həmin iclasında iştirak edən Ş.Musayev buna ETİRAZ ETMƏMİŞDİ və hətta T.Kərimovla bu tapşırığı yerinə yetirməyə məsul şəxs kimi təhkim olunmuşdu, onda biz daha yeni bir sübut-dəlillə qarşılaşırıq: VERTOLYOTLAR VARMIŞ!!!



Amma uçmayıblar. Hətta yaralıları gətirmək üçün də! Sürücüləri, istilik-nişanalma raketlərinin hücumlarını dəf etmək üçün vertolyotlar lazımi hərbi texnika ilə təchiz olunmadığına görə uçmaqdan imtina ediblər.

Beləliklə, fakt fakt olaraq qalır: Xocalıya heç bir kömək olmayıb və 92-ci il fevralın 25-i 26-na keçən gecə Azərbaycan xalqına qarşı nankor daşnak qonşularımız tərəfindən bütün tarix boyu görünməmiş qəddarlıq, vəhşilik törədilib.

Xocalı ən dəhşətli qəddarlıqla və vəhşiliklə işğal edilib, yerlə-yeksan edildi. Bu vandalizmdən canını qurtarıb meşəyə üz tutan insanlar yerindəcə güllələndi. Fevral ayının küləkli-çovğunlu bir günündə qanına qəltan edilən körpələrin, ahılların qanına boyandı Kətik meşəsi, Naxçıvanik yolu. Ermənilər hiss edəndə ki, bu vəhşiliyə, insanlığa sığmayan hərəkətlərə dünya ictimaiyyətinin reaksiyası, münasibəti olacaq. Onda başqa bir fırıldağa, məkrə də əl atdılar. Guya xocalıların maneəsiz çıxıb getməsi üçün "dəhliz" açıblarmış. Bu "dəhliz" Əsgərandan sağda, Qarqar çayı boyunca, Ağdam istiqamətindəymiş. Yalandır bunlar. Utanmadan, qorxmadan, daşnak həyasızlığı ilə deyilmiş, bəyan edilmişdi, yalandır. Görünür, qanlı əllərini yumaq istəyiblər. Ancaq bu qan yerdə qalan deyil. Günahsız insanların ahını Tanrı bağışlaya bilməz. Ermənilər sadəcə dəhliz söhbətini ortaya atmaqla, guya beynəlxalq normalarla davrandıqlarını göstərmək istəyirlər. Bütün insani dəyərlərdən uzaq olaraq "dəhliz" adlandırdıqları istiqamətdə kütləvi qırğınlar törədiblər. Xocalıların bir qrupu məhz "dəhliz" adlandırılan istiqamətdə qaçan zaman erməni yaraqlılarının, 366-cı alayın silahları tərəfindən atəşə məruz qalıb, güllələniblər. Bu inkaredilməz faktı ermənilər belə izah edirdilər ki, guya silahlı xocalılar özləri onların postlarına

hücum ediblər. Məhz buna görə də ermənilər cavab atəşi açmağa məcbur olublar. Ancaq Xocalını tərk edib, qırğınlardan, talanlardan yaxa qurtarmaq istəyənlərin əksəriyyəti qadınlar, uşaqlar, qocalar idi. Bu binəvaların silahları hardan olsun? Belə olduğu təqdirdə hansı məntiqlə deyilənlərə inanmaq olar? Əksinə onlar çalışırdılar ki, sakit çıxıb Ağdama getsinlər. Övladlarını, qocalarını qoruyurdular. Digər tərəfdən, əgər ermənilər bu qədər humanist idilərsə, beynəlxalq normalara, qayda-qanunlara uyğun dəhliz müəyyənləşdirilmişdirsə, bu dəhlizin kənarına postlar qoyulmalıydı.

Erməni tərəfi beynəlxalq müşahidəçilərə izahatlarında bildirirdilər ki, guya onlar xəbərdarlığın üç vasitəsindən istifadə ediblər: ratsiyadan, ZTR-də qoyulmuş repreduktordan, bir də Xocalının üzərində uçan vertolyotlarla vərəqə səpməklə. Birincisi, ratsiya ilə xalqa heç bir xəbərdarlıq edilməyib. İkincisi, repreduktorla edilən xəbərdarlığın bir nəfər belə şahidi yoxdur. Və üçüncüsü, bir nəfər də xocalılı xəbərdarlıq vərəqi görməyib. Erməni tərəfin soyqırım faktına cavab istəyi "Memorial" beynəlxalq insan haqları təşkilatına bircə dənə belə xəbərdarlıq müraciəti təqdim edə bilməyiblər. Erməni qəddarlığı, erməni yalanı ilə birgə addımlayır, dünya isə bu hərəkətlərə dözümlü, səbirli münasibət ortaya qoyur. Xocalı soyqırımı əvvəlcədən planlaşdırılıb, həyata keçirilib. Bu, insan ovu idi. Nə xristianlığa, nə müsəlmanlığa, nə də bütpərəstliyə... Heç bir müqəddəs aləminə sığmayan vəhşilik, qəddarlıqdır. Ermənilər cinayətlərinin böyüklüyünü özləri də anlamağa başlayandan sonra, növbəti yalana, hiyləyə əl atdılar. Dünyanı, beynəlxalq ictimaiyyəti aldatmaq mümkün olmadı. Böhtan toruna heç kim düşmədi. Hətta erməni daşnaklarının himayədarları, sadiq tərəfdarları da.

Əsir götürülmüş xocalılar Xankəndinə aparılır, "avtokalon"un ərazisində və məhbusların saxlandığı milis təcridxanasında, Əsgəranda müvəqqəti təcridxanada, eləcə də Krasnı Seloda həbsxana kamerasında saxlanılırdı. Girovların saxlandığı şərait, - 



əgər buna şərait demək mümkündürsə, insanlığa, heç bir ölçüyə, meyara qətiyyət uyğun deyildi. Bu şərait xocalıların faktiki olaraq mənəvi ölümünə, qırılmasına səbəb olacaq daha sərt bir üsul idi. Genosid siyasəti ardıcıl olaraq davam etdirilirdi. Şübhəsiz ki, xocalılar tamamilə qırıla bilərdi, əgər müharibə üçün səciyyəvi olan girovların dəyişdirilməsi, eləcə də ermənilərin dünya ictimaiyyətini beynəlxalq təşkilatları aldatmaq cəhdləri aradan qaldırılmasaydı, bu tamamilə labüd idi.

Əsir xocalıların məruz qaldıqları işgəncə, təhqir, ələ salınması, zorlanması, başlarının kəsilməsi, armaturla qətlə yetirilməsi erməni faşizminin iç üzünün göstəricisidir. Bütün bu faktları sadalamaq üçün emosiyaya qapılmamaq mümkünsüzdür. Girovları kameraya salmazdan öncə soyundurur, çoxunun corablarını belə soyundururdular. Yaralıların çoxu elə kameradaca ölürdü. Bir çoxu döyülməkdən ölürdü. Ermənilər girovları döyməzdən əvvəl mərc gəlirdilər. Spirtli içkilərlə hallananlar kimin zərbəsinin güclü olub - olmamasını əsirlərin üzərində sınayırdılar. Əsirlərin böyük bir qrupunu, yəni 300 nəfəri üç gün donuz pəyəsində saxlayır, gün ərzində onlara yeməyə çiy buğda verirdilər, belə hallar olurdu ki, kişiləri əvvəlcədən diksindirib, qadın paltarı geyməyə məcbur edir, sonra ələ salıb şəkil çəkirdilər. Bəzi əsirlərin başına çirkli vedrə geydirirdilər. Bu vedrənin içərisində peyin, nəcis və qan olurdu...

Meyitləri kameradan 2-3 gün çıxarmırdılar. Əsirlərin qızıl dişlərini çəkmək də geniş yayılmışdı. Qızıl dişləri tapança dəstəyi, ya da ağır bir şeylə vurub, sındırırdılar. Hətta bir dəfə iki erməni yaraqlısı əsirlərin qızıl dişlərini "çəkmək" üçün iki çəngəllə bir saat əməliyyat apararaq onlara işgəncələr vermişdilər.

Əsirlərin çoxu azadlığa ağır xəstə halında çıxdılar. Bəziləri azadlıqda öldülər. Yaralardan, fiziki, mənəvi işgəncələrdən, əsəb sarsıntılarından dünyasını dəyişdilər. Bir hissəsi sağalmaz xəstəliyə məbtəla oldular.



Azərbaycan Milli Kitabxanası

## *Xarici ölkə jurnalistləri Xocalı soyqırımı haqqında*

Soyqırımın ilk günlərində, martın 2-də Xocalının adını ilk dəfə eşidən, bu şəhərin dinc əhalisinin başına gətirilən faciələri qələmə alıb çəkiliş aparmaq istəyən xarici ölkə jurnalistləri hadisə yerinə yollandılar. Onları cəsur jurnalist, Xocalı fəlakətini ilk dəfə dünyaya yayımlayan Çingiz Mustafayev müşayiət edirdi. Artıq Çingiz ikinci dəfəydi ki, Kətik meşəsində, Naxçıvanik yolunda üst-üstə qalaqlanan meyitləri, başının yarısı soyulmuş, gözləri çıxarılmış uşaqları çəkirdi. Xocalını ölü bir sükut bürümüş, qar üstə səpələnən insan meyitləri vahimə yaradırdı. Hər yerdən qan iyi gəlirdi. Vəhşiliyə, qəddarlığa görə daşnakları belə arxada qoyan erməni-rus hərbi birləşmələrinin törətdikləri faciə xarici ölkə jurnalistlərini dəhşətə gətirmiş, bəziləri əlləri ilə gözlərini tutaraq, onları gətirən vertolyota tərəf gəlmişdilər. Özünü itirmiş, göz yaşlarını saxlaya bilməyənlər də olurdu.

Qanlı olayları gözləriylə görüb lentə alan fransalı Jan-iv-Yunet yazır:

"Biz Xocalı faciəsinin şahidi olmuşuq. Yüzlərlə ölənlərin meyitlərini gördük. Onların arasında qadınlar, qocalar, uşaqlar və Xocalının müdafiəsində duran adamlar var idi. Bizim ixtiyarımıza vertolyot verildi. Hündürlüyə qalxaraq havada gördüklərimizi kameraya çəkirdik, Xocalı və onun ətrafını lentə alırdıq. Bu zaman erməni hərbi birləşmələri bizim vertolyotu atəşə tutdular və biz məcburiyyət qarşısında qalaraq, çəkilişi yarımçıq qoyub geri qayıtdıq. Mən müharibə haqqında çox eşitmişəm. Alman faşistlərinin qəddarlığını oxumuşam, ancaq ermənilər dinc əhalini və 5-6 yaşlı uşaqları öldürməklə vəhşilikdə belə onları arxada qoymuşdular. Biz xəstəxanada, vaqonlarda, hətta uşaq bagçaları və məktəblərin otaqlarında çoxlu sayda yaralananlar gördük".



Başları kəsilmiş insan cəsədləri. Bu mənzərəni çalışdığı "İzvestiya" qəzetində V.Bellax belə qələmə alır:

"Zaman-zaman Ağdama meyitlər gətirilirdi. Tarixdə belə şeylər görünməmişdi. Meyitlərin gözləri çıxarılmış, qulaqları və başları kəsilmişdi. Bir neçə meyit zirehli maşınlara qoşularaq sürüklənmişdi. İşgəncələrin həddi-hüdudu yox idi".

"Haydad", "Asala" erməni terror təşkilatlarının maliyyə dəstəyi ilə "Artsağ işi"nə dəstək vermək, qan üzərində qurmaq istədikləri "Böyük Ermənistan"a xidmət üçün Xocalıya gələn avropalı erməni jurnalistləri faciəni Azəri türklərinin etdiyi haqda məlumatlarla dünyanı aldatmağa çalışırdılar. Erməni yaraqlılarının, iri hərbi qruplaşmalarının soyqırım törətmədikləri, hərbi əməliyyat zamanı 14 nəfərin qətlə yetirildiyi barədə beynəlxalq ictimaiyyətə ötürülən informasiyalar fakta, həqiqətə əsaslanmadığından cəhdlər puça çıxdı. Vəhşiliyi, qan-qadanı ilk dəfə görən Avropa ermənisi olan jurnalistlərdən biri törədilən faciəni olduğu kimi çatdırmağa çalışmışdı: "Xocalıda qətlə yetirdikləri 100 nəfərin cəsədini yan-yana düzərək körpü düzəltdilər. Mən bu körpüdəki cəsədlərin üzərindən keçəndə, ayağımı körpə bir uşağın sinəsinə qoyanda elə titrədim ki, fotoaparatım, bloknotum, qələmim yerə düşərək körpənin al qanına boyandı. Özümü tamamilə itirdim. Bədənim tir-tir titrədi. Bəlkə də bu, avropalı ermənininin soyqırım faktını təsdiqləməsi, qələminin günahsız körpə qanına bulaşması səbəbindəndir. Qəddarlıq, arxadan zərbə vurmaq, qanlı olayların mərkəzində dayanmaq ermənilərin dəyişməz gen yaddaşıdır. Dünyanın harasında, hansı məskənində olur-olsun, erməni xisləti gec-tez büruzə verir və verəcək də. Bilmirik, bu avropalı erməniyə öz irqindən, dinindən olanlar terror edib, ya yox. Çünki "Haydad" erməni terror təşkilatı "Millətin cəlladı olmaq istəməyənləri", terror düşüncəsindən uzaq erməniləri qətlə yetirməklə vahimə, qorxu yaradıb cərgələrinə qoşurdular. Erməni yazarı S.Qabrelyan "Haydad" və Daşnaksüt-



Azərbaycan Milli Kitabxanası

yun barəsində belə söyləyib: "Mən öz paramla məmləkətin cəlladı olmaq istəmirəm". Daşnakların Moskvada öldürdükləri Jamharyan da "Millətin cəlladı olmaq istəmədiyindən" qətlə yetirildi. Jamharyan o kəslərdən idi ki, bir erməni yetimxanasının ehtiyacını ödəyirdi. Fəqət ondan Daşnaksütyuna maliyyə köməyi umanda o bundan imtina etmiş, nəticədə qətlə yetirilmişdi. Yenə də eyni səbəblərdən Türkiyə ermənisi İzmirdə yaşayan Balyozman da öldürülüb. "Haydad"ın təhdid məktubları ilə istədikləri paranı verməyən rus ermənisi Bahaliyan 10 dekabrda Novorossiysk şəhərində boğazlandı. Daşnakların "Haydad"ın ünvanına bu zülmlərin, qətllərin, cinayətlərin uzun bir siyahısını yazmaq olar. Birisi bu hərəkətlərə qarşı şikayətlərdə bulunurdusa, o adam ölümə məhkum edilirdi. Bu, vəhşi ruhun təcəssümüdür. Bu, erməni xarakterinin iç üzüdür. Tarix heç vaxt unutmaz ki, Xocalı soyqırımını Qarabağda həyata keçirən "Haydad" terror qrupunun rəhbəri Suren Paşayan olub. Bu Suren Paşayan "canavar" ləqəbi ilə tanınır. Türklərə qarşı qəddarlığı, amansızlığı ilə öyünürdü.

Soyqırımla bağlı xarici ölkə mətbuatında digər jurnalistlərin qələmə aldıqları yazılardan bəzi epizodları diqqətinizə çatdırırıq:

**"Vaşinqton-Post" qəzeti:** "Dağlıq Qarabağ qurbanları Azərbaycan şəhərində torpağa basdırılıb. Qaçqınlar deyirlər ki, ermənilərin hücumu zamanı yüzlərcə adam həlak olub. Həlak olmuş yeddi nəfərin meyitini bu gün göstərdilər, onlardan 2-i uşaq, 3-ü qadındır. 120 qaçqın Ağdam hospitalındadır, onların bədənlərində çoxsaylı dərin yaralar var.

**"Tayms" qəzeti:** "Erməni əsgərləri yüzlərcə qaçqın ailəsini qırıblar. Sağ qala bilənlər xəbər veriblər ki, erməni əsgərləri 450-dən artıq azərbaycanlını güllələyiblər, onlardan çoxu uşaq və qadınlardır. Yüzlərcə, mümkündür ki, minlərcə insan itkin düşüb. "Onlar atəş açırdılar, atəş açırdılar, atəş açırdılar" - deyə



Xocalıdan digər qadın və uşaqlarla birlikdə Ağdama qaçmış Raziyə Aslanova bildirib. O deyib ki, əri Kayun və oğlu öldürülüb, qızı isə itkin düşüb.

**"Tayms" qəzeti:** Qırğın aşkar oldu, Anatoli Levin: "Dağlıq Qarabağın yamaclarında aralarında qadın və uşaq olan 60-dan çox meyit aşkar olunub, bu isə erməni qoşunları tərəfindən azərbaycanlı qaçqınların qırılması haqda məlumatları təsdiqləyib. Yüzlərcə qaçqın hələ də tapılmayıb.

**"Tayms" qəzeti:** "Onladan çoxu tanınmaz hala düşüb. Balaca bir qızcığazın isə yalnız başı qalıb".

**"İzvestiya" qəzeti.** "Videokamera qulaqları kəsilmiş uşaqları göstərib. Yaşlı qadınlardan birinin üzünün yarısı kəsilib. Kişilərin baş dərisi soyulub".

**"Sandi Tayms" qəzeti:** "Tomas Tolts erməni əsgərlərinin törətdikləri qırğınlar barədə məlumat verən ilk reportyordur. Xocalı sadə Azərbaycan şəhəri olub. Lakin dinc dövrdə əkinçiliklə məşğul olan minlərlə azərbaycanlının evi olub. Ötən həftə şəhər yer üzündən silinib".

**"Fayneyşnl tayms" qəzeti:** "Ermənilər Ağdama gedən qaçqın kalonunu güllələyib. Azərbaycanlılar 1200 meyit sayıblar. Livandan olan reportyor təsdiq edib ki, varlı daşnak icması Qarabağa silah və adam göndərir".

**"İzvestiya" qəzeti:** Mayor Leonid Kravest: "Mən özüm yamacda yüzə qədər meyit gördüm. Oğlan uşaqlarından birinin başı yox idi. Hər yerdə xüsusi qəddarlıqla öldürülmüş qoca, qadın və uşaq meyitləri gördüm".

**"Fayneyşnl tayms" qəzeti:** General polkovnik bildirib ki, 366-cı polkdan 103 hərbi qulluqçu Dağlıq Qarabağda qalıb.

**"Le Mond" qəzeti:** "Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında 3 baş dərisi soyulmuş, dırnaqları çıxarılmış meyit görüblər. Bu, Azərbaycan təbliğatı yox, reallıqdır".



Azərbaycan Milli Kitabxanası

**"Valer aktual" jurnalı:** "Bu Muxtar vilayətdə erməni hərbi birləşmələr Yaxın Şərqdən olanlarla birlikdə ən müasir hərbi texnikaya, eləcə də vertolyotlara malikdir. ASALA Suriya və Livanda hərbi düşərgə və silah anbarlarını məhv ediblər, 100-dən artıq müsəlman kəndini qırıblar.

**"Krua l`Eveneman" jurnalı:** "Ermənilər Xocalıya hücum ediblər. Bütün dünya tanınmaz hala düşmüş cəsədlərin şahidi olub. Azərbaycanlılar 1000 nəfərin öldüyünü deyir".

**"Qolos Ukraini" qəzeti.** V.Skaçko: "Müharibənin sifəti olmur. Yalnız məkrli maska, qanlı göz yaşları, ölüm, bədbəxtlik, dağıntılar...

Xocalıda körpələri nə üçün qətlə yetirdilər? Bəs analarını? Allah insanı cəzalandırmaq istəyəndə onun ağlını alır".

**"Nie" qəzeti.** Bolqarıstanda çıxan bu mətbuat orqanı Xocalı soyqırımına həsr olunmuş bütöv bir nömrə çap etmişdir. Violetta Parvanova: "Xocalı bəşəriyyətin faciəsidir".

Xarici ölkə jurnalistləri ilə söhbət edən əslən Xocalıdan olan, soyqırımda anasını, yaxın qohum-əqrəbasını itirən yazar Səriyyə Müslümqızı xatırlayır: "Xocalıya dünyanın müxtəlif ölkələrindən onlarla əcnəbi jurnalist gəlmişdi. Onlar qanlı hadisələri gözləri ilə görüb dəhşətə gəlirdilər.

Ancaq onların çoxu ölkələrinə dönəndən sonra, həqiqətin əksini qələmə alırlar. Xocalı soyqırımını "Arsaq qəhrəmanları"nın qəhrəmanlıq salnaməsi kimi yazır, qətlə yetirilənlərin şəkillərini, "ermənilərin şəhdiləri" kimi təqdim edirdilər. Hətta həmin o şəkillərin əks olunduğu poçt markaları da dövriyyəyə buraxıldı".



## *Şahidlərin söylədikləri*

Soyqırım günü Xocalının 7 minlik əhalisinin demək olar ki, yarısı şəhərdə, erməni hərbi birləşmələrinin mühasirəsində blokada vəziyyətində idi. Taleyi Allahın ümidinə buraxılan insanlar bütün çətinliklərə dözür, ermənilərin hücumlarının qarşısında tab gətirirdilər. Əhali daşnakların şəhəri talan edib, insanları qıracağına inanmırdılar. Düşünürdülər ki, arabir atışmalar ötəridir. Ancaq şəhərdə dolaşan xəbərlərə görə, ermənilər Xocalıya hücum əməliyyatı üzərində qərarlıdır və bunu fevralın 18-dən sonra hər gün gözləmək olar. Xocalının fevralın 13-dən sonra Azərbaycanla əlaqəsi yox idi. Axırıncı vertolyot da bu tarixdə Xocalıya enərkən cəmi 300 nəfəri şəhərdən çıxarıb. Vəd edilmişdir ki, vertolyot bir də qayıdacaq. Camaat da hər gün gözləyir, təyyarə meydanına yığışırdılar. Yanacaq, çörək qıtlığı başlamışdı. Xəstələrin, qocaların vəziyyəti dözülməz idi. Fevralın 13-dən sonra xocalılar konkret olaraq heç bir kömək görmədilər. Onların ümidi yalnız ratsiya ilə əlaqəyə qalmışdı. Yenə də vəd verilir, kömək göstərəcəklərini, vertolyot göndərəcəklərini söyləyirdilər. Ancaq onlara ölüm ayağında yalnız ümidlər qaldı.

Fevralın 25-dən 26-na keçən gecə, təxminən saat 23.00-da şəhərə ardı-arası kəsilmədən toplardan atəş açmağa başladılar. Demək olar ki, elə ilk həmlədən şəhərin əsas müdafiə postları sıradan çıxarıldı. Çünki Xocalının müdafiəsi demək olar ki, yox idi. Əgər müdafiəyə aid nələrsə olubsa belə, onların dəqiq, özü də qısa zamanda məhv edilməsinin bir səbəbi var. Deməli, şərait, şəhərdəki vəziyyət düşmən tərəfindən dəqiq öyrənilibmiş. Dolayısı ilə də olsa bunu 366-cı olayın bölmələri arasında radiodalğanın maqnit yazısı da təsdiqləyir. Bu yazının bəzi məqamlarına diqqət yönəldək:

"Mən 13-əm. Kəşfiyyat vasitələrini yerbəyer eləmişəm. Nişançı da nişan almağa hazırdır. (Söhbətin məğzindən aydın olur



Azərbaycan Milli Kitabxanası

ki, söhbət topçu nişançıdan yox, kəşfiyyatçıdan gedir).

Bu danışıqların mətnindən aydın olur ki, düşmən kəşfiyyatçıları bir neçə nəfərdir...

Əhali vahimə içərisində güllə yağışı altında Xocalını tərk etməyə başlayır... Qoy o dəhşətli gecənin şahidlərinin özləri danışsın:

**Cəmil Cümşüd oğlu Məmmədov:**

- Ruslar tanklar və beterlərlə şəhərə daxil olaraq evlərimizi darmadağın etdilər. Arxalarınca isə ermənilər gəlirdi. Beş yaşında nəvəmi götürüb meşəyə qaçdım. Bir sutka qarın altında qalmışam. Körpə donmamaqdan ötrü paltarlarımı soyunub uşağa bükmüşdüm. Artıq taqətim qalmamışdı. Naxçıvanik kəndinə yollanıb ermənilrərə yalvardım ki, nəvəmə rəhm etsinlər. Məni təhqir edib komendanta təhvil verdilər. O isə əmr verdi ki, bizi tövləyə salsınlar. Burada çoxlu qız-qadın, körpə vardı. Sonra bizi Əsgərana gətirdilər. Arvadım, qızım, yeznəm burada idilər. Boeviklər dırnaqlarımı çıxartdılar. Zəncilər göyə atılıb üzümüzə təpik vururdular. Çox işgəncədən sonra məni ermənilərlə dəyişdirdilər. Nəvəm, arvadım, qızım və yeznəmdən heç bir xəbər yoxdu.

**Səriyyə Talıbova :**

- Gözümün qabağında 4 məshəti türkünün, 3 qonşumuzun başını erməni quldurunun qəbri üstündə kəsdilər. Rus əsgərləri ilə bir yerdə ermənilər ata-analarının gözü qarşısında uşaqlarına işgəncə verib öldürürdülər. Sonra isə meyitləri buldozerlərlə dərəyə tökürdülər:

**Camal Allahverdi oğlu Orucov:**

- 16 yaşında oğlumu güllələdilər. 23 yaşlı qızımı iki əkiz oğlu və 18 yaşlı hamilə qızımı əlimizdən aldılar.



**10 yaşlı Ramil Həsənov:**

- Ermənilər gələndə meşəyə qaçdım. 3 gün ac-susuz orada qalmışam. Susuzluqdan ölürdüm. Çoxlu qar yemişəm.

**Sənan Abdullayev:**

- Bir gün meşədə qaldıqdan sonra ermənilər bizi tapıb Əsgərana gətirdilər. Anam-atam, 16 yaşlı bacım meşədə öldü. Ruslar, ermənilər, sırğalı zəncilər uşaqların gözü qarşısında mənə işgənclər verirdilər. Sonra bizi içərisinə su doldurulmuş zirzəmiyə saldılar. Suda boğulmamaq üçün uşaqları bir gün əlimdə saxlamışam.

**Ayağından güllə yarası almış 4 yaşlı Fuad Gülməmmədov:**

- Ermənilər məni ayağımdan tapança ilə vurdular.

**Xədicə Abdullayeva:**

- Bir sutka ayaqyalın meşədə qaldıqdan sonra atam, anam və 16 yaşlı bacım şaxtaya tab gətirmədilər. Sağ qalan xocalılarla birgə məni də girov götürdülər. Bizi bir gün ac-susuz, döşəməsinə su doldurulmuş zirzəmidə saxladılar. Daşnak tör-töküntüsünə dəyişdirildim. İndi iki ayağımdan da məhrumam.

**Mirzə Allahverdiyev:**

- Ermənilərin hücumundan sonra meşəyə çəkilməli olduq. Burada 3 gün ac-susuz qaldıq. Fevralın 28-də axşam bizi mühasirəyə aldılar. Bizi Əsgəranda ölüm kamerasına saldılar. Hər gün bir neçə adamı aparıb güllələyirdilər. Vəhşilər başıma dəhşətli zərbələr endirirdi. Qızıl dişlərimi kəlbətinlə çıxartdılar. İki qabırğamı sındırdılar. 18 gündən sonra bir alt paltarında bizi dəyişdirdilər. Atamı, iki qardaşımı, qardaşım oğlunu öldürdülər.



Azərbaycan Milli Kitabxanası

**Nəsibə Əliyeva:**

- Meşədən çıxan kimi ermənilər atəş açdılar. 40 nəfər idik. 26 nəfəri, o cümlədən oğlumu və yoldaşımı öldürdülər. 8 yaşlı Yavərim isə güllə yarası aldı.

**Xatirə Orucova:**

- 8 yaşım var. Gözümün qabağında atamı, anamı və 6 yaşlı bacımı ermənilər güllələyib qətlə yetirdilər. Güllə mənə də dəyib.

**Məhəmməd Orucovun dedikləri:**

- Şəhərə hücum başlananda 16 yaşlı oğlum Xaqani evə girib məni, qızlarım Leylanı və Aybənizi, 2 yaşlı nəvələrim Fuadı və Muradı meşəyə qaçırdı. Əmimdən xəbərimiz yox idi. 2 gün meşədə qarın-çovğunun içində qalandan sonra ermənilər bizi tutub Pircamala apardılar. Hamımızı tövləyə saldılar. Tövlə əsirlərlə dolu idi. Əmimi də burada gördüm. Gözlərimiz qarşısında əmimi və oğlumu möhkəm döydülər. Sonra faşistlər əsirlər arasında 10-13-15 yaşlı qızları seçib ayırdılar...Həyat yoldaşımı da bir neçə nəfərlə Əsgərana aparıb güllələdilər. Bundan sonra məni buraxdılar, qızlarımı, oğlumu və nəvələrimi isə əsir saxladılar.

**Mirəş Əliyeva:**

- Biz meşədə qara bata-bata dolaşırdıq. Yolu keçəndə mənə güllə dəydi. Yıxıldım və daha ayağa dura bilmədim. Haradasa meşədən, səngərdən tez-tez atəş açılırdı. Əlif məndən yapışıb yolun qırağına tullandı. Meşədən açılan atəşlər bir müddət ara verdi. Əlif /Xocalı aeroportunun komandiri - A.A./başını qaldırmadan yolun o biri tərəfində uzanmış qadınlara qışqırırdı ki, tez yolu keçsinlər. Bu vaxt ərzində 20 nəfərədək qadın və uşaq yolu keçmişdi. Əlif avtomatın darağını dəyişməyə başlayanda ermənilər cavab atəşi açdılar. Güllələrdn biri düz Əlifin alnına dəydi.



**Cəmil Məmmədov:**

- Şəhərə girən tanklar və zirehli transportyorlar evləri dağıdır və adamları basıb keçirdilər. Rus əsgərlərinin arxasınca erməni yaraqlıları gedirdilər. 5 yaşlı nəvəmi və 14 min manat pulumu götürüb meşəyə tərəf qaçdım. Gecə uşağın donmaması üçün paltarımı çıxarıb onu bürüdüm. Lakin bu kömək etmirdi. Qarı qazıb uşaqla birlikdə onun içinə girməli olduq. Səhər uşağın buna tab gətirməyəcəyini başa düşüb yaxınlıqdakı Naxçıvanik erməni kəndinə yollandım. Orada bizi silahlı ermənilər qarşıladılar. Mən onlara yalvarıb-yaxardım ki, pulu götürsünlər və uşağın xatirinə bizi Ağdama buraxsınlar. Cavabında məni döydülər, soydular və kəndin komendantının yanına apardılar. O əmr etdi ki, bizi pəyəyə salsınlar. Pəyədə artıq azərbaycanlı qadınlar və uşaqlar var idi. Pəyədə bizi 4 gün saxladılar, nə çörək, nə su verdilər. 4 gün sonra məni nəvəmlə Əsgəran rayonuna gətirəndə başımıza elə oyun açdılar ki, Naxçıvanikdəki pəyəni cənnət sandım.

Erməni muzdluları /mən erməni dilini bilirəm və yerli ermənini gəlmə ermənidən seçirəm/. Ayaq barmaqlarımın dırnaqlarını çəkib çıxartdılar. Ermənilərin arasında olan zəncilər havaya tullanaraq ayaqları ilə üzümdən vururdular. Bir neçə saat davam edən işgəncələrdən sonra məni həbs edilmiş bir erməni ilə dəyişdirdilər. Nəvəmi isə əlimdən aldılar. Arvadımdan və qızlarımdan heç bir xəbərim yoxdur.

**Qasımova Ayna:**

- 12 gün meşədə qaldıq. İki oğlum və bacım da yanımda idi. Yediyimiz ağac və itburnu qabığı idi. Tez-tez qar da yeyirdik. 12 gündən sonra min bir zülmlə gəlib Ağdama çıxdıq. Ağdamda nə qədər çalışdılarsa ayaqqabılarımızı ayağımızdan çıxara bilmədilər. Ayaqlarımız tamam donmuşdu. Sonra ayaqqabılarımızı bıçaqla kəsdilər. Ağdamda sistem qoyub Bakıya müalicəyə göndərdilər.



Azərbaycan Milli Kitabxanası

**Talıbov Səməd:**

- Fevralın 25-dən 26-na keçən gecə 120-130-a qədər adamla meşəyə qaçdıq. Bu müddətdə Kətik meşəsində qaldıq. Bir müddət meşədə qaldıqdan sonra Hray kəndinə tərəf getdik. Böyüklər aclığa, şaxtaya dözə bilirdilər. Amma uşaqlarla çox çətin idi. 3 gün ac-susuz qaldıq meşədə. 3-cü gün Naxçıvanik istiqamətinə gedəndə ermənilər bizi tutub mal tövləsinə saldılar. Bizdən başqa 50-60 adam da var idi. Bir az keçmiş ermənilər içəri girib kişiləri, arvad-uşaqları avtomatın qundağı ilə vurub əzməyə, şilküt etməyə başladıldar. Vuranda, döyəndə səsini çıxaran şəxsi həmin saat güllələyirdilər. Girovluqda gördüyüm dəhşətləri heç zaman unutmayacağam.

**Salman Qasımov:**

- Ermənilər Xocalıya girəndə hamımız qaçdıq meşəyə. Əvvəl 300-ə qədər adam idik. Gülablı tərəfə gedirdik. Orda ermənilər camaatın qabağını kəsdi. Atışmada Abdullanı öldürdülər. Adamlar qaçıb dağılışdılar. 11 adam qaldıq. Tofiqin də anası yanımızda öldü. Mən paltomu onun üstünə saldım. Sonra mühasirədən çıxmaq üçün irəli getdik. Amma hara gedirdiksə ermənilərin əhatəsində olduğumuzu hiss edirdik. Yediyimiz də ancaq qar idi. Hamımız haldan düşmüşdük. Keçdiyimiz yerlərdə çoxlu meyit var idi.

Görüşdüyüm xocalıların hamısının acı taleyinə yanıram. Onları özümə ən yaxın, doğma adam bilirəm. Xocalılar hamısı sakit, köməksiz adam təsiri bağışlayır mənə. Amma Gülalı kişinin o yazıq görkəmini heç unuda bilmirəm. Gülalı kişiyə çəkilən dağ da ağır dağdır.

**Gülalı Mehralıyev:**

- Altı günə kimi meşədə qaldıq. Ac-susuz meşənin içində qızımla məşəqqətlər çəkdik. Gecə meşənin vahiməsi, soyuğu,



şaxtası, daima gözlənilən erməni qorxusu yazıq qızımın bağrını yardı. Nakam balam dözə bilmədi, keçindi. Gülalı kişi için-için ağlayır. Qurumuş bir halda qızımın meyitinin yanında oturdum. Bədbəxt qızıma baxıb göz yaşı tökürdüm. Balamın iyirmi yaşı vardı. Səkkiz ay idi ki, toyu olmuşdu. Dişimnən, dırnağımnan yığıb qızıma cehiz almışdım, 12 min manatlıq mebel alıb toyunu etmişdim. İndi yazıq balam torpağa döşənmişdi. Halsız, hərəkətsiz uzanmışdı. Zavallı qızımdan çətinliklə də olsa ayrıldım. Meşə ilə gedirdim. Şelli istiqamətinə üz tutmuşdum. Qəfildən aralıda erməniləri gördüm. Qaçıb girdim bir kötüyün içinə. Ermənilər xoşbəxtlikdən görmədilər məni. Bir müddət kötüyün içində qaldım. Qorxudan çıxa bilmirdim. Sonra minbir çətinliklə Ağdama gəlib çıxdım. Amma qızımın meyitindən nigaranam. Bircə meyidi gətirib basdırsaydım, rahatlanardım. Meyitin yeri yaxşı yadımdadır. Amma ora getmək mümkün olacaqmı?

**Vüqar Qarayev:**

- Gecə saat 11-də evdən çıxdıq. Gəldik meşəyə. Meşədə çoxlu adam vardı. Uşaqlar ağlaşır, qışqırırdılar. Arvadlar uşaqların ağzına dəsmal tıxadılar ki, səsləri eşidilməsin. Sonra ermənilər mühasirəyə alıb çoxunu girov tutdular. Babək adlı bir oğlan vardı. Yolu gedə bilmirdi, təngnəfəs olurdu. 3 kilometrə qədər onu mən apardım. Sonra qüvvəm çatmadı. Ayaqlarımı şaxta vurmuşdu. Bədənim heç elə bil ki, mənim deyildi. Düz iki gün sürünmüşəm. Mənə elə gəlirdi ki, ermənınin üstünə gedirəm. Amma mənim üçün daha heç bir fərqi yox idi. Onsuz da tam haldan düşmüşdüm. Xoşbəxtlikdən döyüşçülərimizin postuna gəlib çıxdım.

**Salman Qasımov:**

- Ermənilər Xocalıya hücum edəndə qaçdıq Dəhraz tərəfə. Dəhrazda bizi mühasirəyə alıb tutdular. Yaşlı bir qadını və ca-

van oğlanı yerindəcə güllələdilər. Sonra bizi Naxçıvanikə gətirib mal pəyəsinə saldılar. Az keçməmiş gəlib aramızdan on üç adamı seçib apardılar güllələməyə. O güllənin səsini də biz eşitdik. Bir müddət pəyədə saxladıqdan sonra bir yük maşınına mindirib bizi gətirdilər Xankəndinə. Orda bizi maşından düşürəndə bir erməni kobudluqla çeşməyimi alıb dedi: "Gedərsən Kürün o tayında verərlər çeşməyini!" Sonra bizi saldıldar həbsxanaya. Həbsxanada hansı işgəncələri çəkmədik? On günə kimi dilimizə heç nə dəymədi. Çörək-su həsrətiynən gözümüzü tikirdik qapıya. Qapının nə vaxt açılacağını səbirsizliklə gözləyirdik. Amma qapını açıb içəri girənlər bizə nə su gətirirdi, nə də çörək. Başlayırdılar təpikləməyə, döyməyə, qol-qabırğamızı sındırmağa. Elə döyürdülər, elə hala salırdılar ki, yerdə döşəli qalıb tərpənə bilmirdik. Düz on gündən sonra gətirib hərəmizə 70 qram çörək, hər üç adama bir stəkan su verdilər. Bir də görürdün gecə saat 2-də, 3-də ermənilər sərxoş halda gəlib içəri girir, pis söyüşlər söyüb, istədikləri işgəncəni verirdilər. Qaldığımız yer olduqca soyuq idi. Pəncərə soyuq olduğundan külək içəridə vıy-vıy vıyıldayırdı. Hamımız soyuqdan titrəyirdik. Yerə salmağa bir adyal da verməmişdilər. Bütün gecəni, gündüzü oyaq qalırdıq. Yanımızda Qaradağlıdan yazıq bir kişi vardı. Bizdən çox qabaq onu tutub bura salmışdılar. Yazığın susuzluqdan ciyəri yanırdı. Gecənin bir vaxtında halı lap pisləşdi. "Su, su" deyib inildəməyə başladı. Dözə bilmədim, gedib qapını döydüm ki, bir az su versinlər yazığa. Nəzarətçi erməni qapının o tayından məni söyüb təhqir etdi və təkrar qapını döydükdə öldürəcəyini bildirdi. Yazıq kişi "su, su" deyə-deyə canını tapşırdı. Bir dəfə xaricdən - Qırmızı Aypara Cəmiyyətindən bir dəstə adam gəlib vəziyyətimizlə maraqlandı. Halımızı, görkəmimizi görəndə təəssüflə başlarını buladı. Ermənilər isə bizə əvvəlcədən xəbərdarlıq edirdilər ki, gələn qonaqlara şikayətlənməyək. Əksinə ermənilərdən razılıq edək ki, guya bizə yaxşı baxırlar. Əgər belə de-



məsəydik, ermənilər bizə elə işgəncələr verərdi ki... Düz 48 gün ermənilərin əsarətində əzab çəkdim. 48 gündən sonra məni bir erməni ilə dəyişdilər.

**Mirzə Allahverdiyev:**

- Biz həmin gün Horagül istiqamətində postda dayanmışdıq. Amma "Finiski" evlər yananda geri çəkildik. Fevralın 26-da onların çoxu Beşmərtəbə deyilən yerə toplaşmışdı. 100-ə qədər adam vardı orda. Sonra çıxıb Boz Dağ istiqamətində irəlilədik. Fevralın 28-də ermənilər mühasirəyə alıb tutdular bizi. Həmin saat əl-ayağımızı bağlayıb başladılar döyməyə, işgəncə verməyə. Sonra apardılar Əsgərana. Orada milis idarəsinin həbs otağında bizi saxlayırdılar. Bir neçə qızıl dişim vardı. Yerə yıxıb əl-ayağımı bağladılar. Başladılar kəlbətinlə dişlərimi sökməyə. Kəlbətinlə dartır, çəkiclə vururdular dişimə. İnildəyir, zarıyırdım ağrıdan. Yalvarır, yaxarır, bu işgəncəyə son qoymağı xahiş edirdim. Neçə saat huşsuz qaldığımı bilmirəm. Amma gözümü açanda hiss etdim ki, qızıl dişlərimi sındırıb götürüblər. Ermənilərin verdiyi işgəncə yalnız qızıl dişlərimi sındırmaqla bitmədi. Söyüş, təhqir, təpiklə vurmaq, döymək hər gün olurdu. Girovluqda qaldığım 18 günün elə bir vaxtı olmadı ki, mənə işgəncə verməsinlər. Yaman vəhşi idi ermənilər, gözlərini qan tutmuşdu. Ürəklərində heç bir insaf, ədalət yox idi. Bizi döyməkdən, təpikləməkdən ləzzət alırdılar. Bir dəfə isə məni çılpaq soyundurub dubinka ilə döydülər. Ürəkləri soyumadığından götürüb ikinci mərtəbədən atdılar məni yerə. Bütün bədənim əzilmişdi. Necə kinli, qəzəbli idi bu ermənilər bizə qarşı? Edik adında bir erməni vardı. Hər gün içəri girib mənə özünəməxsus xüsusi işgəncə verirdi. Ağır çəkmələri ilə əllərimin üstünə çıxıb tapdalayır, əzir və bundan ləzzət alırdı. Mənim iniltim, qışqırtım ona təsir etmirdi, əksinə kefi açılırdı... Ermənilər tez-tez bizə deyirdilər: "Sizi qıracağıq, buralardan tamam qovacağıq. Donuzlarımı-



Azərbaycan Milli Kitabxanası

zı gətirib Kürdə suvaracağıq". Hər gün bizə bir parça çörək, bir balaca qabda da su verirdilər. O çörəyi, suyu verəndən sonra gəlib möhkəm döyürdülər. On səkkiz gün girovluqda qalandan sonra məni dəyişib Ağadama gətirdilər. Öyrəndim ki, anamı da ermənilər bir neçə gün girov saxlayıb, qızıl üzüyünü alıb buraxıblar. Qardaşım Elşəni isə mənim günümə salıblar. Girovda işgəncələr verib qızıl dişlərini söküblər. Öyrəndim ki, ermənilər iki qardaşımı öldürüblər.

**Niftalı İbad oğlu Nəbiyev:**

- Fevralın 25-də gecə saat 10-da Əsgəran istiqamətində səngərdə idik. Hər tərəfi ermənilər ağır texnika ilə mühasirəyə aldılar. Bir qədər atışdıqdan sonra gedib qadınları, uşaqları da götürüb Dəhraz tərəfə çəkildik. Hər tərəfi ermənilər ağır texnika ilə mühasirəyə aldılar. Bir qədər atışdıqdan sonra gedib qadınları, uşaqları da götürüb Dəhraz tərəfə çəkildik. Hər tərəfdən mühasirədə olduğumuzu hiss edirdik və hər yandan bizə atırdılar. Üç gün ac-susuz meşədə qaldıq. Sonra ermənilər bizi mühasirəyə alıb tutdular. Yanımızda 300-ə qədər qadın, uşaq vardı. Hamımızı yığıb apardılar donuz fermasına. Milli ordu paltarında olanlardan 13 nəfəri seçib apardılar. Az keçməmiş güllə səsləri eşitdik. Bildik ki, o yazıqları güllələyiblər. Üç gün qaldıq donuz fermasında. Yeməyə heç nə vermirdilər. Elə hərdən gətirib camaata azca çiy buğda paylayırdılar. Üç gün sonra gəlib aramızdan iyirmi adamı seçdilər. Qışqırdılar ki, iyirminiz də əlləri yuxarı vəziyyətdə çölə çıxın. Bizi "KamAZ"a doldurub gətirdilər Stepanakertin milis idarəsinə. Orda bizi möhkəm döydülər. Sonra qeydiyyata aldılar. Mənim paltarımı yoxlayanda paltomun cibindən patron tapdılar. Dedilr ki, sən milli ordu əsgərisən. Məni lüt soyundurdular. Dubinka ilə başladılar döyməyə. Ermənilərdən biri əlində balta mənə sarı gəldi, qorxdum ki, balta ilə başımı kəsəcək. Balta ilə paltomu kəsib doğradı. Sonra da sürüyüb



atdılar kameraya. Gecə saat 1-2 olardı. Bu dəfə başqa erməni "boyevikləri" içəri girib hirslə qışqırdılar: "Ara, bizim torpaqda siz axı nə edirsiniz?" Başladılar bizi döyməyə. İki qızıl dişimi vurub sındırdılar. Hər gün bu vəziyyət təkrar olunurdu. Ermənilər gah ayıq başla, gah da sərxoş vəziyyətdə gəlib bizi şil-küt edirdilər. Yeməyə bir parça çörək, içməyə də yeddi adama bir qab su verirdilər. Yanımızda Qaradağlıdan olan girovlar vardı. Yazıqları bit basmışdı. Bütün günü yazıqlar qaşınır, dırnaqları ilə dərilərini qoparırdılar. Yanımızda Nəbiyev Əli adlı bir kişi vardı. Yazıq zarıya-zarıya öldü. Ermənilər yaman zülmkar idilər. Qadağan etmişdilər ki, gecələr bir-birimizlə danışmayaq. Qorxa-qorxa, pıçıltı ilə danışırdıq. Yatanda bir-birimizə, kürək-kürəyə söykənib yatırdıq. Döşəmə beton olduğundan daim rütubət vardı. Nəzarətçilər əlində bıçaq dəhlizdə gəzinir, səs eşidən kimi içəri girib bizi əzişdirirdilər. Ayaqlarımızdakı corabları da tutub çıxarmışdılar. Yanımdakı yoldaşımın iyirmi min pulunu, qızılını almışdılar. Sonra minbir çətinliklə bizi dəyişdilər. Amma indi halım getdikcə pisləşir. Qabırğamı da vurub batırıblar. Ciddi müalicəyə ehtiyacım var. Görək axırı nə olacaq.

**Əliyev Hüseyn Sarı oğlu:**

Yatmışdım, həyat yoldaşım məni silkələyib durquzdu və dedi ki, ermənilər kəndə doluşub, camaat qaçır. Dedim ki, sən də qaç, camaata qoşul. Qonşumuz Həsəngilə gəldim. Həsən bayırda idi. Kəndin Stepanakert tərəfindən asfaltı, evləri atəşə tutmuşdular. Həsənlə onların bostanından keçib, məktəbin həyətinə girdik. Ərik ağaclarının altında Həsən qolundan yaralandı. Onun o biri qoluna girib, məktəbin zirzəmisinə tərəf apardım. Amma orda heç kim yox idi. Bilmirdik hara gedək. Ermənilər gəlib bizi tutdu. Əliyeva Şərqiyyəni, qızı Aliməni beş uşaqla, fermada işləyən Yusifi, arvadını, onların da beş uşağını bizimlə bərabər Stepanakertin 9 nömrəli məktəbinə gətirdilər. Sonra ar-

vad-uşaqdan bizi ayırıb, avtovağzalın yanındakı şəhər milis şöbəsinin qazamatına gətirib saldılar. Qənəhət Hacıyev, Qəyyum Aslanov, Əşrəf Əliyev, Əbülfət Kərimov, Elbrus Abbasov, Şafanın oğlu Vidadi, Qaradağ stansiyasından Əli, Fərraşlı Abbas da burda idilər. Həsənabadlı "Dovşan" Edikin oğlu bir dəstə erməni ilə gəlib bizi təpikləyir, qaldırıb yerə çırpırdılar. O deyirdi ki, xocalıların hamısını qıracağam, mənim qardaşımı siz öldürmüsünüz.

Vidadi bıçaq axtarırdı ki, özünü öldürsün. Deyirdi ki, mənim başımı sabah kəsəcəklər. Mənə deyirlər ki, Osipin oğlu Tosulu (Armavari), guya mən öldürmüşəm. Vidadi bir şüşə tapıb cibinə qoymuşdu ki, lazım gəlsə venasını kəsib özünü öldürsün. Həsənabadlı Setrakın olğu Jora gəlib Həsəni harasa apardı. Həsənin qolu hovlayıb şişmişdi. Sonra eşitdik ki, Həsəni buraxıblar. Üç gün keçmişdi ki, gəlib Vidadini apardılar. Dedilər ki, bu gün Tosulun üçüdür, səni onun qəbrinin üstündə kəsmək üçün qəbiristanlığa aparırıq. Vidadi şüşə də cibində getdi...



## *Əsirlərin söylədikləri*

Səriyyə Müslümqızının "Xocalıya gedən yol" kitabında əsirlik həyatı yaşayanların bir qisminin başına gələn faciələr qələmə alınıb. Bu əsirlərin bəziləri erməni vəhşiliklərindən danışa-danışa, psixoloji gərginliklərə dözməyərək həyatdan köçüblər. Kitabdan bəzi hissələri diqqətinizə çatdırırıq.

"...O müdhiş gecə Sədaqət üç azyaşlı övladını itirdi. Bacısı Sara və üç körpə uşağı donub öldülər. Sədaqətlə Valeh isə yenicə ailə qurmuşdular. "Ağla qərənfil ağla" şerini söyləyən Sədaqətin o gecə əllərinə laxtalanmış qandan xına qoyuldu. Və qandallandı. Valeh isə əsir düşdü. Əsirlik əzab-əziyyəti gördü. Valeh musiqiçi idi. Azərbaycan xalq mahnılarını çalar, biz isə tamaşa edərdik. Valeh yanıqlı-yanıqlı danışır ki, əlimi qaz pilitəsinə tutub yandırdılar ki, bir daha Qarabağ mahnısını çalmayım.

"...Şərqiyə xala o gecə qızı və onun azyaşlı uşaqları ilə qaçıb Cəfər müəllimgilin evində gizlənib. Çarpayının altına girir ki, tapmasınlar. Lakin həyət darvazası sındırılır, erməni vəhşiləri evə daxil olur. Evdəkiləri qabaqlarına qatıb Xankəndinə aparıblar. Şərqiyə xala deyir ki, yolda iki yaralı əsgər gördüm. Başlarından və üzlərindən axan qanla palçıq bir-birinə qarışmışdı. Erməni vəhşiləri bizi Xankəndindəki əqli cəhətdən zəif olan uşaqların məktəbində saxlayırdılar. 366-cı alayın əsgərləri arasında zənci və ərəblər də var idi".

"...Ələsgər müəllim də bu əsirlərin sırasında idi. O qədər döyülmüşdü ki, tanınmaz hala düşmüşdü. O, axır dəqiqələrində belə həyat yoldaşı Şəkibəni axtarırdı. "Görəsən, Şəkibə çıxa bildimi?" söyləyirdi".



Azərbaycan Milli Kitabxanası

"...Müharibənin od-alovundan çıxan əlil Saleh dayı, oğulları Novruz və Ziyadxan və nəvəsi Mahir şəhid oldular".

"...Məleykə xala oğlu Mirzə və Elşən əsir düşdü. Mirzəyə qarşı qəddarlıq edib, çox işgəncələr vermişdilər. Elşən söyləyir ki, fevralın 27-də ermənilərdən biri məni qaldırdı. Dedi ki, Sumqayıtda həlak olanların qəbri üstündə başını kəsəcəm. Ölümcül vəziyyətdə olduğunu görüb, "sənin kimisini onların qəbirləri üstündə öldürməyə dəyməz. Elə ölü kimi bir şeysən" söylədi".

"...Ziyadxan isə Xocalıda üç gün vuruşub şəhid oldu".

"...Ermənistandan qovulan Qəndab ananın ah-nalə ilə söylədiyinə görə, məhsəti türkü olan polis Əhmədi Xocalıya gələn magistral yolda "İsmayıl qurbanı kəsirik" deyib, başını bədənindən üzüblər. Bıçağın xırıltısı belə qulaqlarımdan getmir".

"...Kərəm dayı Xocalıda öldü. Oğlu Mehdi ali təhsilini yarımçıq qoyub, doğma ocağını qorumağa qayıtmışdı. Mehdi də o dəhşətli gecədə qətlə yetirildi".

"...Övladları öləndə onları kürəyinə bağlayıb gətirən analar da oldu. Bu Nuridə anadır. Oğlu Səxavətin meyitini gətirmişdi".

Faciənin qurbanları çox idi. Əsir düşənlərdən isə bəziləri beynəlxalq hüquq müdafiəçilərinin, xarici ölkə jurnalistlərinin səyi ilə azad olurdu. Girovların arasında diri-diri yandırılan, başı kəsilən, gözü çıxarılan, əl-qolunu itirənlər də var idi. Xocalı faciəsi oxşarsız bir faciədir.

Əsirlikdən azad olunanların bir qismi Azərbaycanın hüquq mühafizə orqanlarına verdikləri izahatlarda bu vəhşiliklərdən söhbət açırlar.



"...Ələmdar Abbasov ifadəsinə bildirib ki, o və 150 nəfərə qədər Xocalı sakini mühasirədən çıxıb, Ağdama gedərkən pusquda duran ermənilər onların bir hissəsini yerindəcə güllələyib, qalanlarını isə həbs edərək girov götürüblər. Onu və Salahov Məhəmməd Əbdül oğlunu dəyişdirmək adı ilə Əsgəran rayonunun milis şöbəsinə gətirib orada hər ikisini armaturla döyərək, işgəncələr verirdilər. İşgəncələrdən Ələmdarın iki qabırğası və qolu sınıb. Salahov isə döyülməkdən, işgəncədən onun qolları üstündə ölmüşdür".

"...Girovluqda olmuş Abbasov Elbrus Ələmdar oğlu ifadəsində bildirib ki, əsirlik müddətində Artur və Slavik adlı serjantlar və Feliks adlı leytenant onları dayanmadan döyüblər. Onlar Xocalı sakinləri Novruzov Ələsgər Xanlar oğlunu və Şəliyev Elçin Vəkil oğlunu döyüb işgəncə verməklə öldürmüşdülər".

"...Hümbətov Əmir Səlim oğlu ifadəsində bildirir ki, gecə saat 00.04 radələrində onu Xocalıda "Armo" adlı dəstə əsir götürüb. Yaraqlılardan Sergey adlı erməni onun dişlərini sındıraraq qızılını götürmüşdü".

"...Kərimova Elmira Şahmalı qızı bildirir ki, milis şöbəsinin rəisi Ağacanyan girov götürülmüş xocalılıları dindirməyə aparmaq adı ilə kişiləri döyüb qətlə yetirir, cavan qızları zorlayırdılar. Ermənilər onları girov götürərkən üstlərində olan qızıl və zinət əşyalarını götürüb ruslara verirdilər".

"...Xocalı şəhər sakini göstərmişdi ki, Xocalıda onlara atəş açıb girov tutan Lola adlı erməni onun qızıl dişlərini çıxardıb".



Azərbaycan Milli Kitabxanası

## *Soyqırım faktları*

Xocalıda soyqırıma məruz qalan insanların müstəqil həkimlər tərəfindən tibbi ekspertizası keçirilib. Tibbi araşdırmanın nəticəsində bir daha aydın olur ki, bu, tək bəşəriyyətə qarşı deyil, insanlığa yönələn vəhşi vandalizm aktıdır. Tibbi komissiyanın müayinə apardığı cəsədlərin çoxu üzərində ermənilər eksperiment aparmış, cəsədlərin dərisi soyulmuş, hamilə qadınların qarnı deşilmiş, kişilərin cinsiyyət üzvləri kəsilmişdir. Sıraladığımız bu insanların cəsədləri üzərində aparılan eksperimentləri emosiyasız izləmək mümkünsüzdür. Siz də izləyin...

**Orucov Telman Ənvər oğlu** - 1956-cı ildə doğulub. Qaçqınlıq taleyi yaşayaraq, 1988-ci ildə Xankəndinə gəlib. Soyqırım günü Naxçıvanik yolunda qətlə yetirilib. Başının dərisi soyulub.

**Əbdülov Yelmar Ənvər oğlu** - 1949-cu il təvəllüdlü, yerli xocalılıdır. Naxçıvanik yolunda güllələnib. Başının dərisi soyulmuşdur.

**Ələkbərov Təvəkkül İskəndər oğlu** - 1956-cı ildə doğulub. Əslən xocalılı olan Təvəkkül Naxçıvanikdə güllə yarası alıb, qətlə yetirilib. Cəsədi üzərində on bıçaq yarası aşkarlanıb.

**Həsənova Fitat Əhəd qızı** - Böyük Vətən Müharibəsindən bir il əvvəl 1940-cı ildə Xocalıda doğulub. Cəsədi üzərində zorakılıq əlamətləri var. Gözləri çıxarılıb.

**Həsənova Gülçöhrə Yaqub qızı** - 1968-ci il təvəllüdlüdür. Yerli xocalılıdır. Döş qəfəsindən və qarnından güllə yarası alıb. Sol əli pəncədən kəsilib.



**Həsənov Şöhlət Usub oğlu** - 1944-cü ildən olan bu insan da yerli xocalılıdır. Döş qəfəsindən güllə yarası, yuxarı ətraflarının kəsilməsi müşahidə olunub.

**Abışov Əli Əbdül oğlu** - 1918-ci ildə doğulub. Bədənin küt travması, sklet sümüklərinin çoxlu sınıqları aşkarlanıb.

**Səlimov Bahadur Mikayıl oğlu** - 1928-ci il təvəllüdlüdür. Naxçıvanik yolunda yandırılmış, cinsiyyət üzvü kəsilmiş, gözləri çıxarılmışdır.

**Aslanov İqbal Qulu oğlu** - 1970-ci ildə doğulub. Naxçıvanik yolunda qətlə yetirildikdən sonra cinsiyyət üzvü kəsilib, yandırılıb.

**Sahib.** Soyadı, atasının adı və doğum tarixi bəlli deyil. Soyqırım günü qətlə yetirildikdən sonra cəsədi üzərindən BTR keçib.

**Nuralıyeva Dilarə Oruc qızı** - doğum tarixi bəlli deyil. Xocalıya hücum zamanı qətlə yetirilib. Döş qəfəsindən güllə yaraları alıb. Gözləri və döşləri kəsilərək götürülüb.

**Abbasov Taleh Ümidvar oğlu** - 1961-cı ildə dünyaya göz açıb. Yerli xocalılıdır. Taleh öldürüləndən sonra qulaqları kəsilib.

**Abışova Məruzə Məhəmməd qızı** - 1932-ci il təvəllüdlüdür. Naxçıvanik yolunda qətlə yetirilib. Məruzənin gözləri çıxarılıb, döş vəzlərini və burnunu kəsib götürüblər.

**Cəfərova Rəfiqə İman qızı** - doğum ili bəlli deyil. Canını ermənі cəlladlarından qurtarmaq istəyən Rəfiqə ağır zirehli maşının altında qalaraq qətlə yetirilib.



Azərbaycan Milli Kitabxanası

**Kərimov Samran Soltan oğlu** - 1924-cü il təvəllüdlüdür. 1988-ci ildə Ermənistanın Əzizbəyov rayonundan ermənilər tərəfindən qovulan, öz yurdundan didərgin düşən soydaşımızdır. Qətlə yetirildikdən sonra gözləri çıxarılıb, arxa keçəcək dəliyindən butulka yeridilib.

**Kərimova Firəngül Məhəmməd qızı** - 1935-ci il təvəllüdlüdür. Firəngül Samran kimi 1988-ci ildə Ermənistandan qovulan soydaşlarımızdandır. Bədəni tam doğranılıb, gözləri çıxarılıb, qulaqları və döşləri kəsilib.

**Kərimov Frunz Samran oğlu** - 1960-cı ildə doğulub. 1988-ci ildə Ermənistandan didərgin salınan Frunz diri-diri yandırılıb.

**Səlimov Araz Bahadur oğlu** - 1960-cı ildə Xocalıda doğulub. Yaralı tutularaq, körpə uşağının gözü qarşısında armaturla döyülüb öldürülmüşdür.

**Behbudova Sürəyya İbrahim qızı** - 1932-ci ildə Xocalıda doğulub. Zirehli tankla əzilərək, ayağından güllə yarası alıb.

**Behbudova Sürəyya Yusif qızı** - doğum tarixi müəyyənləşdirilməyib. Qətlə yetirildikdən sonra, cinsiyyət üzvü kəsilərək götürülüb.

**Hüseynov Allahverdi Qulu oğlu** - bu ahıl qoca 88 yaşında erməni qəddarlığının, vəhşiliyinin qurbanı olub. Yandırılaraq qətlə yetirilib.

**İmani Ağayar Salman oğlu** - 1989-cu ildə Xocalıda doğulub. Bu üç yaşlı məsum körpə erməni qəddarlığının qurbanı olub, yandırılmışdır.



**Məmmədov Saday** - doğum ili və atasının adı müəyyən edilməyib. Cəsədi yandırılıb.

**Bədəlov Tofiq** - doğum və atasının adı müəyyənləşdirilməyib. Tofiqin cəsədi üzərində vəhşi eksperiment aparan ermənilər onun gözlərini çıxarıb, qulaqlarını kəsmişlər.

**Rəcəbov Cəbrayıl Mehdi oğlu** - 1961-ci ildə doğulub. Tankla əzilmiş, gözləri çıxarılıb, qulaqları kəsilmişdir. Cəsədi üzərində yanıq əlamətləri aşkarlanıb.

**Fərzəliyev Canan Binnət oğlu** - 1962-ci ildə doğulub. Yerli xocalılıdır. Erməni vəhşiliyindən canını qurtarmaq istəyən zaman Naxçıvanik yolunda diri-diri yandırılıb.

**Məmmədova Tamara Səlim qızı** - təvəllüdü bəlli deyil. Gözləri çıxarılıb, döşləri kəsilərək qətlə yetirilib.

**Dadaşova Əsli Bəbir qızı** - təvəllüdü bəlli deyil. Gözləri çıxarılıb, döşləri kəsilib. Cəsədi üzərində yanıq izləri aşkarlanıb.

**Əmrahova Mahı Bəbir qızı** - təvəllüdü bilinmir. Gözləri çıxarılıb, döşləri kəsilib. Cəsədi üzərində çoxsaylı güllə yaraları aşkarlanıb.

**Hümmətova Ənahət Eldar qızı** - 1976-ci ildə doğulub. Bədənində çoxsaylı güllə yaraları aşkarlanıb. Gözləri çıxarılaraq, döşləri kəsilmişdir.

**Nuriyev Hafiz Yusif oğlu** - 1962-ci il təvəllüdlüdür. Əlləri məftillə bağlanaraq, başı kəsilmişdir.



Azərbaycan Milli Kitabxanası

**Naməlum kişi** - 25-30 yaşlarında. Başı və üst dodağı kəsilib. Boynunun ön səthindən güllə yaraları alıb.

**Naməlum kişi** - 20-25 yaşlarında. Döş səthinin arxa hissəsində qəlpə yarası aşkarlanıb. Sifətinin dərisi soyulub.

**Naməlum kişi** - 22-24 yaşlarında. Sağ gözü kəsilərək götürülüb. Qarın divarlarında onlarca güllə yarası aşkarlanıb.

**Naməlum kişi** - 25-35 yaşlarında. Ürəyindən güllələnib. Qulaqları kəsilib.

**Naməlum kişi** - 20-30 yaşlarında. Başı kəsilib. Göz almacıqları çıxarılıb.

**Naməlum kişi** - 20-30 yaşlarında. Başı kəsilib. Bud nahiyyəsindən güllə yaraları alıb.

**Naməlum kişi** - əl-ayağı məftillə bağlanılıb, yandırılmışdır.

**Nağıyev Yusif Şirin oğlu** - 1928-ci il təvəllüdlü, Xocalıda doğulub, soyqırım zamanı öldürülüb, gözləri çıxarılıb.

**Eyvazov Hidayət Əli oğlu** - 1964-cü ildə Xocalıda doğulub, soyqırım zamanı başı kəsilib.

**Mustafayev Vidadi Şəfa oğlu** - 1963-cü ildə, Xankəndindən qaçqın düşüb.

**Məmmədov Zahir Ramiz oğlu** - 1975-ci ildə Xocalıda doğulub, soyqırım zamanı döyülüb, işgəncə ilə öldürülüb.



**Orucova Xəyalə Telman qızı** - 1986-cı ildə doğulub, Xankəndindən qaçqın düşüb.

**Salahov Məhəmməd Əbdül oğlu** - 1931-ci ildə Xocalıda doğulub, soyqırım zamanı döyülüb, öldürülüb.

**Səlimov Fəxrəddin Bahadur oğlu** - 1958-ci ildə anadan olub. Soyqırım zamanı qətlə yetirilib.

**Səfiyev Elxan Nəsib oğlu** - 1961-ci ildə doğulub, soyqırım zamanı işgəncə ilə qətlə yetirilib.

**Əzimov Hüseyn Nəriman oğlu** - 1956-cı ildə doğulub, qəddarlıqla qətlə yetirilib.

**Əzimov Natiq Abbasqulu oğlu** - 1986-cı ildə Əsgəranın Həsənabad kəndində doğulub, erməni cəlladları onu qətlə yetirəndən sonra cinsiyyət üzvünü kəsiblər.

**Əlməmmədov Faiq Şahmalı oğlu** - 1973-cü ildə Xocalıda doğulub, soyqırım zamanı döyülüb, öldürülüb.

**Əmirov Təvəkkül Baxış oğlu** - 1955-ci ildə anadan olub, yandırılıb.

**Əsədov Yalçın Asif oğlu** - 1963-cü ildə Xankəndində anadan olub, döyülərək qətlə yetirilib.

**Rəhimova Şövkət Şükür qızı** - 1947-ci ildə Xocalıda doğulub, soyqırım zamanı yandırılıb.



Azərbaycan Milli Kitabxanası

**Şəliyev Elçin Vəkil oğlu** - 1965-ci ildə doğulub, soyqırım zamanı işgəncə ilə qətlə yetirilib.

**İlyasov Əhməd Məmməd oğlu** - 1968-ci ildə Özbəkistanda anadan olub, soyqırım zamanı başı kəsilib.



## *"Analar qətlə yetirilmiş körpələrini bellərinə bağlayıb Ağdama gətirirdilər"*

... Adım Səriyyə, soyadım Cəfərova, atamın adı Müslümdür. Xalqım məni televiziya və radioda yayımlanan müsahibələrimlə, "Qar üstünə qar yağırdı", "Xocalı niskili və ya faciəyə gedən yol" adlı kitablarımla, "Səhər", "Millət" və "Şərq" qəzetindəki imzalarımla tanıyır. Ulu babalarımın təməl qoyduqları Xocalıda, sadə, zəhmətkeş bir ailədə doğulmuşam. Atamı erkən yaşlarımda itirdim. Anam Rəfiqə "bir saçın ağ, bir saçın qara hörüb" üç qız uşağını kirpikləri ilə od götürə-götürə əmim Mövsümün himayəsində böyüdüb. Biz kəndin uşaqlarıyla Xocalının çöllərini gəzər, Xocalı və İlisu çaylarının kənarlarında axşama kimi oynayardıq. Kəndimizin saf havasını udar və buz kimi bulaqlarının suyundan içərdik. Cəfər və Çınqıl təpələrinin yaxınlığındakı magistral yolla Əsgərana maşınlar keçərdi. Biz, balaca Xocalı uşaqları meşədən yığdığımız qaymaqçiçəyini, çobanyastığını, lalələri əsgərlərlə dolu olan maşınlara atardıq. Bizə əl edib "spasibo, spasibo" deyərdilər. Amma bilməzdik ki, düz 32 ildən sonra gül atdığımız rus ordusunun əsgərləri Xocalının balaca körpələrinə güllə atacaqlar, cocuqları qanına qəltan edəcəklər.

... Günlər beləcə ötürdü. Sanki bir göz qırpımında böyüdük. Sanki o xoşbəxt.günlər tez başa çatırmış ki, mənə Xocalı boyda bir faciəni yaşatsın. Sən demə, o illər tez sona yetirmiş ki, anamın, həm də yerlilərimin işgəncə ilə öldürülən meyitlərini görüm. İllər başa çatırmış ki, saçlarım tez ağarsın. Kaş mən də anam kimi Xocalıda şəhid olaydım. Nə isə... Ermənilər 1988-ci ildə Xankəndində, Əsgəranda mitinqlərə başladı. Xankəndi mərkəzi xəstəxanasında işləyən cərrah Uqasyan Ediq mitinqdə çıxış edərək, çəkinmədən bildirdi ki, apardığı əməliyyatlarda neçə-neçə azərbaycanlını şikəst edib. "Türklərə qarşı mən öz



Azərbaycan Milli Kitabxanası

cərrah bıçağımla vuruşmuşam" söylədi. Qarabağ azərbaycanlıları bu mitinqlərdən sonra qorxu və vahimə içərisində yaşayırdı. 1988-ci il sentyabrın 18-də ermənicə dərc olunan "Veteran" qəzetində Uzalyan yazırdı: "Mitinq başlandı, lakin kimsə belə şayiə yayırdı ki, Stepanakertin yaxınlığındakı Xocalıda erməniləri döyürlər. Mitinqdə toplanan qızğın kütlə Xocalıya yollandı". Əlində quş tüfəngi belə olmayan xocalılar bu kütlənin qarşısında gücsüz idi. Ermənilər aeroportdan Xocalıya daxil olub kənddəki ot tayalarına və çəpərlərə od vurdular. Xocalılar bu kütlənin qarşısından qaçmayıb, döyüşdülər. Həmin gün Xocalıda toy da vardı. Rasimlə Sədiqə qovuşurdu. Yaxşı ki bəylə gəlini gizlədə bilmişdilər. Gülarə xala qızı Arzunun hörüklərini kəsib başına papaq qoymuşdu ki, ölsə, qoy ermənilər elə bilsinlər ki, oğlandır. Vəziyyət get-gedə ağırlaşırdı. Xankəndi boşaldılırdı. Xocalını isə yerindən tərpədə bilmirdilər. Dörd aydan artıq idi ki, ümid yalnız hava nəqliyyatına qalmışdı. Azərbaycanın hökumət səlahiyyətliləri vertolyotla gəlib, qısa bir müddətdə "lazımi tapşırıqları"nı ərz edir, ərzağı, yanacağı əhaliyə verib, geri döndülər. Bir dəfə Əlisahib Orucov bu yolla çörək gətirmişdi. Xocalılar onu dövrəyə alaraq, "bizə silah lazımdır" deyib hay çəkdilər. Əhalinin harayı heç yana gedib çıxmırdı. Xocalıya bir mülki və bir döyüş vertolyotu lazım idi. Koridor açılmalıydı. Ermənilər Xankəndindəki 366-cı alayla birləşib, müharibəyə hazırlıqlar aparırdı. Əli hər yerdən üzülən həmyerlilərim soyqırım gününədək Xankəndindəki rus ordusuna inanırdılar. İnanırdılar ki, ermənilər tərəfdən olan hücumun qarşısını ruslar yəqin alarlar. Hətta sadəlövhcəsinə düşünürdülər ki, əgər ermənilər hücum etsələr, bizi hərbi vertolyotla çıxaracaqlar. Bu düşüncələr tərsinə oldu ancaq. Ermənilər ruslarla birləşib, bu soyqırımı törətdilər. Yadımdadır, qanlı olaydan bir neçə gün sonra əcnəbi jurnalistlər soyqırım hadisəsini təfsilatı ilə çəkə bildilər, onların Xankəndinə səfərləri də təşkil edildi. Azərbaycan hakimiyyəti



soyqırımı ört-basdır etməyə çalışır, bununla düşmənin dəyirmanına su tökürdülər. Ayaz Mütəllibovun bu cür mənəviyyatsız, əxlaqsız davranmasının səbəbi hakimiyyətdə qalmaq idi. Millətinin qanına qəltan edilməsinin ört-basdır etməsinin səbəbi də bu idi. Xalq həqiqətlə şübhə arasında qalmışdı. Şamil Sabiroğlu "Səhər" qəzetinin baş redaktoru Məzahir Süleymanzadəyə Xocalı faciəsi ilə bağlı məlumat vermişdi. Xocalıda yüzlərlə adamın, qoca və qadınların, körpə uşaqların cəlladlıqla öldürülməsi "Səhər"də dərc olundu. Mən də Allahverdi Əsədovun "Üzü bəri baxan dağlar" verilişində ilk dəfə olaraq əsl həqiqəti xalqa çatdırdım. Hələ A.Mütəllibovun hakimiyyətdə olduğu dövrdə xocalıların qətlə yetirilməsində dövlət rəhbəri kimi cavabdeh olmasını söylədim.

Xocalının yerli hakimiyyət orqanları da Mütəllibov hakimiyyətdən gedənə qədər bir kəlmə də olsa danışmayıb susdular. O günlər xatirimdən getmir. Hər an, hər gün, hər dəqiqə o günləri yaşayıram. Ölmək yaşamaqdan çox asan idi. Xocalının baharı heç yadımdan çıxmır. Dağlar, dərələr yaşıl libasa bürünür, ağaclar ağappaq gəlin libası geyinirdi. Ömrü çox qısa olan qarçiçəyi baharın gəlişindən xəbər verərdi. Boynubükük bənövşələr baş qaldırar, nərgiz gülünün iyindən bihuş olardıq. Yurdumuza nə gözəl bahar gələrdi, ilahi!. Dəstə-dəstə yığışıb taxıl zəmilərindən novruzgülü toplayardıq. Düz on üç ildir ki, yurdumuza bahar gəlir. Amma xocalılar o baharı görə bilmirlər. Qəribsəyir, göyüm-göyüm göynəyirik, göz yaşlarımız selə dönür. Yurdumuza gələn baharın həsrəti ilə qovruluram. Kaş ki, quş olub o yerləri görə biləydim. Dağları, dərələri görə, güllərdən dəstə bağlayaydım.

Xocalı erməni qəddarlığının, qəsbkarlığının qurbanı olub. Əgər beynəlxalq təşkilatlar bir balaca özlərinə əziyyət verib Xocalının, bütövlükdə Qarabağın tarixi ilə məşğul olsalar, hər şey onlara gün kimi aydın olar. Bizim eradan neçə min əvvəl Qara-



Azərbaycan Milli Kitabxanası

bağ torpağında Azərbaycan türkləri yaşayıb və türklərin qədim məskənlərindən biri olub. Tarixə bəlli olan və dünya muzeylərinin eksponatlarına çevrilən Xocalı - Gədəbəy, Quruçay mədəniyyət inciləri Qarabağla bağlıdır. Qarabağın Füzuli bölgəsində aşkarlanan Azıx mağarası və Azıxantrop dünya alimlərinə türk tarixi elementləri kimi bəllidir. Ancaq ermənilər bu eksponatları, tarixi nümunələri dünyada özününküləşdirmək istəyirlər.

Xocalı faciəsi ilə bağlı xeyli kitablar yazılıb. Qələm əhli bu faciənin, soyqırımın yaranmasının səbəblərini göstərməyə çalışıblar. İki kitabın müəllifi də mənəm. İnanıram ki, hələ tarixçilər, psixoloqlar, jurnalistlər, tədqiqatçılar bu faciənin səbəblərini axtaracaqlar, görəcəklər ki, yalnız biz aysberqin görünən tərəfindən danışmışıq. İsəyirəm ki, gələcək nəsillər erməni millətinin iblis donunda olan rus qardaşlarının köməyi nəticəsində türk övladlarını necə qətlə yetirib, soyqırım törətdiklərini bilsinlər. Qarlı, şaxtalı bir gecədə ayaqyalın, başıaçıq meşələrə səpələnən südəmər körpələrə, qadınlara, əlsiz-ayaqsız qocalara aman verilməyib. Tarixdə bəşəriyyətə qarşı görünməmiş vəhşiliklər, cinayətlər törədilib.

Xocalı şəxsi zəmində də faciəlidir. Anam soyqırım qurbanı oldu. Anam əllərini Tanrıya uzadıb "əsir düşməyim, ay Allah, buradaca ölüm yetir mənə" deyərək düşmən gülləsinin qurbanına çevrildi. Qadınların, qız-gəlinlərin üz-başlrına cır-cındır bağlayıb üzlərinə palçıq yaxaraq düşməndən qorunması türk qadınının məğrurluğu deyilmi? Faciədə neçə-neçə insanlar səadətini itirdi, məğrurluğunu itirmədi. Qətlə yetirilmiş övladlarını kürəklərinə bağlayıb Ağdama gətirmək qəhrəmanlınq deyildimi? Sinələrini gülləyə sipər edib, anaları, körpələri, gəlin və qızları qorumaq qəhrəmanlıq nümunəsiydi. Oğullarını belə gözləri qarşısında güllələyəndə analar düşməndən göz yaşlarını gizlətdilər. Sinələrini didib, dağladılar ki, qoy düşmən görməsin. Tamaşa ana, Matan ana, Sayalı ana oğullarını, ərlərini erməni vəhşiləri



qətlə yetirəndə göz yaşlarını qəlbinə axıtdılar. Xocalı vardı, indi yoxdu. Gün gələcək Xocalı olacaq. Yuxularımda gördüyüm qan rəngindəki kimi yox. İnanıram ki, Şah İsmayıl Xətai kimi bir oğulu bizə bəxş edəcək. Üzeyiri, Vaqifi, Natəvanı, Bülbülü yetişdirən bu Vətən bir gün azad olacaq. Qədim Xocalı isə bir abidə kimi saxlanılacaq.



Azərbaycan Milli Kitabxanası

## *Xocalı soyqırımı haqqında ilk məlumatı "Səhər" çatdırıb*

***Məzahir Süleymanzadə***

- Xocalı faciəsi ilə bağlı respublikada müxtəlif fikirlər yaranmışdı. İlkin versiya belə idi ki, orada toqquşma nəticəsində cəmi 2-3 nəfər adam həlak olub. Amma bu versiya o vaxt "AzərTAC", yəni dövlət xətti ilə yayılmış və Dövlət Televiziyası ilə verilmişdi. Bütün KİV də rəsmi informasiya olduğuna görə təbiidir ki, yalnız buna əsaslanırdı. Amma "Səhər" qəzetinin o zaman Qarabağda iki müxbiri çalışırdı. Bunlardan biri Şamil Ələkbərov, digəri isə Səriyyə Müslümqızı idi. Bu iki nəfər bilavasitə hadisə yerində idilər. Onlar Xocalı qaçqınlarını və oradan gətirilən saysız-hesabsız meyitləri Ağdamda qarşılamışdılar. Hadisənin canlı şahidləri kimi həm bizim redaksiyaya təcili şəkillər göndərmiş, həm də telefonla məlumat vermişdilər. Sonra Xocalı faciəsi olan gecə şəxsən mənə aeroportun mərhum rəhbəri Əlif Hacıyev zəng edərək olan vəziyyəti danışdı. Həmçinin Xocalının prokuroru Atakişi Atakişiyev zəng edərək faciə barədə məlumat verdi. Səhəri gün bütün qəzetlər Xocalıda bir-iki nəfərin yaralanması, həlak olmasını yazdığı halda, "Səhər" qəzetində əsl həqiqət dərc olundu. Biz Xocalıda ölənlərin sayının 1000-dən artıq olmasını bəyan etmişdik. Bu, çox böyük qəzəblə qarşılandı respublikada. Düzdür, bizim ilkin məlumatda göstərilirdi ki, Xocalı rayon icra hakimiyyətinin başçısı Elman Məmmədov da həlak olub. Ondan sonra Elman Məmmədov özü zəng edərək əvvəlcə informasiyaya görə təşəkkür etdi. Dedi ki, mən sağam, sadəcə olaraq ayağımdan yaralanmışam. Deməli, adını çəkdiyim və çəkmədiyim adamlar, istər bizim müxbirlərimiz olsun, istərsə də orada çalışan adamlar olsun informasiyanı ilkin mənbədən verirdilər. Ona görə də təbii ki, biz informasiyanı aldığımız ilkin



mənbəni qoyub dövlət kanallarının yaydığı informasiyaya üstünlük verə bilməzdik. Bütün qəzetçilik tələblərinə uyğun olaraq biz öz müxbirlərimizin sözlərinə daha çox önəm verdik, onlara daha çox inandıq. O zaman "Səhər" qəzeti 250000 tirajla çıxır, bütün ölkəyə yayılırdı. Qəzetimiz çıxan gün səhər işə getdik və təxminən saat 10.00 radələrində gördük ki, 300-ə yaxın adam hirslənmiş, hiddətlənmiş vəziyyətdə "Azərbaycan" nəşriyyatının qarşısına toplaşıb bizi tələb edir. Mən onların qarşısına çıxdıqda bir az hay-küy salıb dedilər ki, siz təxribatla məşğulsunuz. Səbəbini soruşdum. Dedilər, xalqa yalan məlumat verirsiniz ki, Xocalıda 1000-dən artıq adam qətlə yetirilib. Amma bütün dövlət mətbuat orqanları tamamilə ayrı xəbərlər dərc edib. Siz bunu yazmaqla sabitliyi pozur, cavanları yoldan çıxarırsınız. Açığı, bizə çox aqressiv şəkildə münasibət göstərildi. Mən də təmkinimi pozmadan dedim ki, bu xəbərləri yerlərdəki müxbirlərimizə istinadən vermişik. Bu xəbərin dəqiqliyinə zərrə qədər də şübhəmizin olmadığını açıqladım. Amma onu da bildirdim ki, bütün hallarda dövlət orqanlarının yaydığı xəbərlər doğru olsa, o zaman həm bütün Azərbaycan xalqından, həm də bura toplaşan vətəndaşlardan üzr istəməyə hazırıq. Onları birtəhər sakitləşdirdik. Yanlarında ziyalılar, bizi tanıyan adamlar var idi. Onlar da öz yoldaşlarını sakitləşdirərək bizim qeyrətli Azərbaycan vətəndaşları olduğumuzu söylədilər. Dedilər ki, biz yalan yazıb təxribatla məşğul olmarıq. Üstündən iki gün keçəndən sonra qadağalara baxmayaraq Ağdamdan adamlar gəldi, faciənin miqyası artıq hamıya bəlli oldu. Dövlət orqanları da məcbur qalıb Xocalı faciəsi ilə bağlı nisbətən fərqli məlumat verdilər. Bir qədər sonra Azərbaycan Respublikasının Milli Məclisində bu məsələ müzakirə olunarkən bizim qəzetin adı həmin qərara düşüb. O qərarda da göstərilir ki, "Səhər" qəzeti yeganə düzgün informasiya verən mətbuat orqanıdır. Bizim xoşbəxtliyimiz ondaydı ki, o zaman dünyanın demək olar ki, bütün aparıcı kütləvi informasiya vasitələri ilə əlaqəmiz var idi. "Səhər" qəzetinin adı ABŞ-ın, İn-



Azərbaycan Milli Kitabxanası

giltərənin, Almaniyanın, Yaponiyanın, Rusiyanın və başqa dövlətlərin rəsmi kataloqlarına daxil edilmişdi. Çox etibarlı informasiya mənbəyi kimi qəbul olunurdu. Biz də bu kanallardan istifadə edib informasiyalarımızı həmin ölkələr vasitəsilə bütün dünyaya yaya bilirdik. Xocalı faciəsi haqqında ilk məlumatlar bizim qəzet vasitəsilə çatdırıldı. Bundan çox qısa müddət sonra məxfi materiallar ələ keçirə bildik. 366-cı alayın komandiri Zarviqarovun gündəlyini əldə etdik. O gündəliklə bağlı məlumatları araşdırdıq. Mənim "366-cı alayın məhvi" adlı geniş məqaləm dərc olundu. Bu material rus dilində də ayrı-ayrı qəzetlərdə yayıldı. Rusiya, Ukrayna müstəqil mətbuatında da bunu dərc etdirdik. O zaman "Azərbaycan" nəşriyyatının direktoru Bahadır Qayıbovun ümumi redaktəsi ilə biz "Səhər" qəzetinin təcili olaraq Xocalıya həsr olunmuş xüsusi buraxılışını hazırladıq. Bu buraxılış ingilis və rus dillərində nəşr edildi. Sonra Azərbaycan dilində də buraxıldı. O buraxılış çıxandan cəmi bir həftə sonra Azərbaycana Latviyada yaşayan, milliyyətcə gürcü olan bir xanım gəldi. Bizim hazırladığımız xüsusi buraxılış onun köməyilə Latviyada latış dilində dərc olundu. Beləliklə, çox böyük tirajla, təxminən milyona yaxın tirajla Xocalı faciəsi haqqında həqiqət bütün dünyaya yayıldı. Artıq bunu Azərbaycanda da gizlətmək mümkün deyildi. Çünki insanlar bir-birilə əlaqə saxlayır, Bakıya meyitlər gəlirdi. İki uşaq meyitini də gətirib "Göy məscid"də qoymuşdular. Biz dərhal fotoqraf Şahini göndərdik o uşaq meyitlərin çəkdi. Bu gün o uşaq meyitlərinin şəkilləri Xocalı faciəsinin bir növ simvoluna çevrilib. O şəkilləri bizim fotomüxbirimiz Şahin Abbasəliyev çəkib. Biz Xocalı faciəsini jurnalist olaraq belə yaşadıq. 20 Yanvar, Xocalı, Qarakənd səmasında vertolyotun vurulması, Salatın Əsgərovanın öldürülməsi barədə ilk xəbərləri də məhz biz vermişdik. Bütün bunlar hamısı ağrılı-acılı, eyni zamanda unudulmaz hadisələrdir. Taleyin qismətindənmi, ya nədənmi bu hadisələri işıqlandırmaq bizim taleyimizə düşmüşdü.



## *"Axşamüstü "Səhər"ə zəng etdim"*

"Faciə barədə hönkürə-hönkürə baş redaktorun müavininə xəbər verdim"

*Şamil Sabiroğlu, jurnalist, müharibə veteranı*

- 1999-cü il 20 Yanvar faciəsindən sonra Azərbaycan komsomolunun birinci katibi Sahib Ələkbərovla görüşdüm. Bundan sonra məni 24 nəfərlik Şah İsmayıl Xətai adına könüllülər dəstəsinin komandiri kimi Xocalıya göndərdilər. Biz həm tikinti işləri ilə məşğul olur, həm də mərhum kapitan, Milli Qəhrəman Tofiq Hüseynovun rəhbərlik etdiyi Xocalı özünümüdafiə taboruna kömək edirdik. Aydın görünürdü ki, Qanlı Yanvar hadisəsindən sonra əhalidə ruh düşkünlüyü yaranıb. Bunu aradan.qaldırmaq üçün şəhər stadionunda 28 May Respublika gününü qeyd etdik. Bununla bağlı Xocalı rəhbərliyindən, çox çətinliklə Dağlıq Qarabağ üzrə Respublika Təşkilat Komitəsinin sədri V.Polyaniçkodan icazə aldım. Tədbir ermənilərin mövqeyini sarsıtdı və çox maraqla qarşılandı. Ən əsası isə stadionun üzərində üçrəngli bayrağımızı dalğalandırdım.

Bakını tərk edərkən bizə demişdilər ki, silahı Xocalıda alacaqsınız, Xocalıda isə soruşdular ki, silahınız hanı? Üstəlik Qarabağda xüsusi rejim olduğundan silah-sursat gəzdirmək qadağan olunmuşdu. Erməni daşnaklar isə bölgədə at oynadırdılar. Orada baş verənlərlə bağlı Xocalı aeroportunun komendantı mərhum Əlif Hacıyev çox gözəl videokadrlar çəkmişdi. Lakin onun şəhid olması kadrların itməsinə səbəb oldu. Mənimlə birlikdə Xocalıya gəlmiş könüllülər evlərində çəkmədikləri əziyyətləri çəkir, yuxusuz gecələr hesabına yoxdan var yaradırdılar. Qarabağda döyüşən ermənilərə mükafatlar verildiyi halda, bizimkiləri ruhdan salırdılar. 1991-ci ilin martında Xocalı şəhəri-



Azərbaycan Milli Kitabxanası

nin 12 nəfər şagirdini və 1 müəllimini (Səriyyə Müslümqızı) Bakıya gətirərək şəxsi vəsaitim hesabına onları idarə və müəssisələrə apardım. S.Müslümqızı çox sevinirdi, çünki Bakının bir çox təşkilatlarında olmuş, Qarabağda baş verənlərlə bağlı məlumat vermişdi. Mən eyni zamanda "Səhər" qəzetinin Qarabağ bürosu üzrə müxbiri kimi çalışırdım. Bir neçə məqaləmdə xəbərdarlıq etmişdim ki, Xocalıya kömək etməsələr, yerli əhalini böyük faciə gözləyir. Bu məsələ mənə bəlli olduğu kimi prezident Ayaz Mütəllibovun Qarabağ məsələləri üzrə nümayəndəsi Musa Məmmədova və qeyrilərinə də məlum idi.

1992-ci il yanvarın 28-də Ağdamdan Şuşaya uçan "Mİ-8" vertolyotunun vurulmasından sonra hava nəqliyyatının uçuşu dayandırıldı. Odur ki, 18 nəfər Xocalı sakinini başda şair Allahyar Xocalı olmaqla öz vəsaitim hesabına Bakıya gətirdim ki, vəziyyəti hakimiyyət orqanlarına çatdırsınlar. Lakin nəticəsi olmadı. Əlacsızlıqdan xocalıları Ağdama yola saldım. Binəqədi rayonu ərazisində yaşadığım üçün icra başçısı Ələsgər Hüseynovla görüşərək ondan kömək istədim. Fevralın 20-21-də zəruri ərzaq malları və geyim formaları ilə dolu 6 yük maşınının müşayiəti ilə Ağdama gəldik. Məqsədimiz yol açılan kimi Xocalıya getmək idi. Ağdam-Əsgəran yolunun açılması artıq neçənci dəfə idi ki, təxirə salınırdı. O zaman Bakıda da vəziyyət ürəkaçan deyildi. Azərbaycanın MDB-yə daxil olmasının əleyhinə çıxan qüvvələr etiraz mitinqləri təşkil edir, qarışıqlıq yaradırdılar. Fevralın 24-də mən Xocalı faciəsinin labüdlüyü barədə ictimai əsaslarla əməkdaşlıq etdiyim "İki sahil" qəzetinə məlumat göndərmişdim, lakin qəzet həftədə bir dəfə nəşr olunduğundan bu yazı faciə baş verən günün ertəsi dərc olundu. Faciə günlərində mən silahdaşlarımla birgə dağ yollarında, meşələrdə, qarlı-şaxtalı havada əl-ayaqlarını don vurmuş insanları, qanlarına qəltan edilmiş yaralıları xilas edir, meyitlərin çıxarılması prosesində yaxından iştirak edirdim. Dəhşətli mənzərələrlə qarşılaşırdım: kiminin



başının dərisini soymuşdular, kiminin əl-ayağını bağlayıb ağır işgəncə vermişdilər, kiminin cinsiyyət üzvünü kəsmişdilər və s.

Fevralın 26-da axşamüstü "Səhər" qəzetinə zəng etdim. Faciə barədə hönkürə-hönkürə baş redaktorun müavini Hidayət Elvüsala məlumat verdim. Bundan sonra "Səhər" qəzetində Xocalı ilə bağlı AzərTAC-ın rəsmi məlumatını çıxarıb mənim informasiyamı yerləşdirdilər. Ertəsi gün xəbər ildırım sürətilə yayıldı. Xocalıda xeyli adamın ölməsi rəsmi məlumatın təkzibi kimi qəbul olunduğu üçün bizi ermənilərə işləməkdə suçladılar. "Səhər" qəzeti Ali Sovetdə müzakirə obyektinə çevrildi, mənim şəxsiyyətimlə maraqlananların sayı çoxaldı.

Martın 3-də baş redaktor Məzahir Süleymanzadə ilə əlaqə saxladıqda o dedi ki, fotolar göndərib, faktlar təqdim edim. Əks təqdirdə onları sıxışdıracaqlar. Şəkilləri birtəhər Bakıya göndərdim. Martın 5-də Ali Sovetin növbədənkənar sessiyası çağırılan zaman H.Elvüsal "Azərbaycan qan içində boğulur" məqaləsini çap etdirdi. Bundan sonra redaksiyaya olan hücumlar səngidi. Faciənin törənməsində Ağdam-Əsgəran-Xocalı-Şuşa yolunun açılmaması və ölkədəki qarışıq vəziyyət mühüm rol oynadı.

Azərbaycan Milli Kitabxanası

## *"Əsgəran körpüsünün altı və ətrafı insan cəsədləri ilə dolu idi"*

*Seyidağa Mövsümlü, operator, Milli Ordunun keçmiş komandiri,*

"Qan yaddaşı", "Ağrılı yaddaş", "Xocalı-əsrin faciəsi", "Azərbaycan Ordusu", "Qara yanvar", "Salam, Azərbaycan əsgəri" sənədli filmlərinin müəllifi,

- Bu faciəni ömrüm boyu unuda bilməyəcəyəm. O mənim qəlbimə mismarla yazılıb. Bu faciə olmaya da bilərdi...

Faciədən əvvəl yollar kəsilmiş, əhali blokadada qalmışdı. Görünür, Azərbaycan xalqını qorxutmaq, əhali arasında vahimə yaratmaq, belə bir faciənin baş verməsini reallaşdırmaq kimlərəsə sərfəli imiş.

Əhaliyə elə işgəncə vermişdilər ki, mən o dəhşətli mənzərələri görən kimi elə oradaca saçım ağardı. Müdafiə Nazirliyinin operatoru kimi yenicə təyinat almışdım. Fevralın 26-sı səhər MN-ə işə gəldim. Ramiz Məlikov və Mirsaleh Axundov Xocalıda dəhşətli faciə baş verdiyini dedilər. Xəbəri eşidən kimi təcili Ağdama getməyi qərarlaşdırdım. Bizdə o vaxt kamera olmadığından Azərbaycan Dövlət Teleradio Komitəsinə müraciət etsəm də, onlar kamera vermədilər. Bir nəfərdən videokamera tapana kimi xeyli vaxt keçdi və nəhayət kamera tapıb təcili Ağdama yola düşdüm. Dövlət Teleradio Komitəsinin o vaxtkı sədri və məsul işçiləri bu faciəyə biganə yanaşmasaydılar, hadisə yerinə jurnalist qrupları göndərsəydilər, bizdə indi daha çox faktlar, informasiyalar olardı.

Ağdama axşam çatdım, dəhşətli mənzərənin şahidi oldum. Ana-bacıların fəryadı göyə bülənd olmuşdu. Hamının gözü Xocalı tərəfə zillənmişdi. Hərə öz adamını gözləyirdi. Faciənin ağrısını və ağırlığını o saat hiss etdim. Ağdam batalyonunun komandirlərindən biri Allahverdi Bağırovla Ağdam-Əsgəran arasındakı keçid məntəqəsinə yollandıq. Orada Əsgəran batalyonunun komandiri Vitalik adlı bir erməni ilə qarşılaşdıq. O, Yerevandan gəlmiş döyüşçü idi. Allahverdi ona bildirdi ki, biz həm meyitləri götürməli, həm də çəkiliş aparmalıyıq. Əvvəlcə razı olmadı. Çox cəhddən sonra Vitalik çəkilişə razılıq verdi. Bu şərtlə ki, iki erməni döyüşçüsü bizi axıra qədər izləməli, onların icazəsi olmadan istənilən şəkil çəkilməməli idi. Razılaşdıq və onların maşınlarına minib Xocalıya doğru irəlilədik. Bizimlə iki yük maşını da getdi. Maşında Ağdam və Xocalı özünümüdafiə batalyonunun bir qrup döyüşçüləri də var idi. Onlar meyitləri yığacaqdılar. Biz Əsgəran körpüsündə dözülməz hadisə ilə rastlaşdıq. Körpünün altı və ətrafı insan cəsədləri ilə dolu idi. Çoxlarının başı kəsilmiş, gözləri çıxarılmış, sifətlərinin dərisi soyulmuşdu. Onu çəkməyə icazə vermədilər. Əsgərlər meyitləri yığmağa başladılar. Çox dəhşətli mənzərə idi. Öldürülənlərin arasında körpə uşaqlar, qızlar, qocalar var idi. Bəzi meyitlərin ayaqlarına kəndir, məftil bağlayıb maşının arxasınca sürümüşdülər. Bir az qabağa gedəndə xeyli döyüşçü cəsədləri gördük. Onlar döyüş vəziyyətində idilər. Hiss olunurdu ki, bu döyüşçülər mülki əhalinin sağ-salamat xilas olması üçün axıra qədər vuruşublar. Aqil Quliyevin, Əlif Hacıyevin də meyiti onların arasında idi. Əlifin sırıqlısının ətəyi üzünə düşdüyü üçün ermənilər onun meyitini tanımamışdılar. Yoxsa meyitini verməyəcəkdilər. Çünki o, ermənilərə qan uddurmuşdu. Hətta onun başına qiymət də qoyulmuşdu. Bir az qabaqda ağsaqqal kişinin meyiti ilə rastlaşdıq. Onun qulağını kəsmişdilər. Başqa bir yerdə bir ailəni uşaqdan böyüyə qədər qırmışdılar. Erməni və rus hərbçiləri Xocalını işğal edəndə əhali xilas olmaq üçün dəstə-dəstə müxtəlif istiqamətlərə üz tutmuş və yollarda pusquda duran ermənilər bu biça-





Azərbaycan Milli Kitabxanası

rə insanların heç birinə aman verməmişdi. Təbii ki, gördüklərimin hamısını lentə köçürdüm. Sonra "Xocalı-əsrin faciəsi" sənədli filmini yaratdım. Onu Türkiyə, Fransa, Almaniya və başqa ölkələrə göndərdim. Yalnız bundan sonra çox çətinliklə Azərbaycan televiziyasında materialım efirə getdi. Bəzi lentləri isə indiyə qədər efirə özüm verməmişəm ki, camaatda qorxu hissi yaranar. Başı kəsilmiş, gözləri çıxarılmış insanların meyitinə hər adam baxa bilmir.



## *Xocalı faciəsinə hər şey açılıb deyilməyib*

*Qulu Məhərrəmli*

- Aydındır ki, həmin dövrün situasiyasını göz önünə gətirəndə Xocalı hansı vəziyyətdə idi. Orada tikinti işləri başlamış, müəyyən adamlar köçürülmüşdü, bütün respublika köməklik edirdi. Yəni bir yüksəliş var idi. Sonra Əsgəran tərəfdən yolun bağlanması get-gəli xeyli çətinləşdirdi, yalnız vertolyotla əlaqə var idi. Respublika rəhbərliyi həmin dövr üçün yolu açmağı bacarmırdı. Hərbi vəziyyət getdikcə çətinləşirdi. Xocalıya yaxın yerdə yerləşən yaşayış məskənləri olan Meşəliyə, Cəmilliyə ermənilər hücum etmiş, kəndləri dağıtmış, insanları məhv etmişdilər. O kütləvi qırğınlar Xocalıda böyük bir təhlükə yaradırdı. Məsələn, yanvarın əvvəllərində hadisədən təxminən ay yarım əvvəl mən orada jurnalist qrupu ilə çəkilişlər aparırdım. Əvvəla, Xocalı əhalisində çox böyük ruh düşkünlüyü var idi. Qəsəbədə belə bir atmosfer yaradılmışdı. Xocalıdan getmək əhval-ruhiyyəsi güclü idi. Ümumiyyətlə, respublikanın özündə düzgün informasiya siyasəti qurulmamışdı. Pis olan idi ki, Xocalıdan çoxlu yalançı informasiyalar gedirdi. Heç Xocalıya aidiyyəti olmayan, orada baş verməyən, şişirdilmiş informasiyalar çap olunurdu. Yanlış informasiya siyasəti aparılırdı ki, guya Xocalıda böyük bir ordu qurulub, guya camaat döyüşə çox böyük şəkildə hazırlaşıb, hərbi strateji nöqtələr mövcuddur. Əslində elə deyildi. Ölkə ictimaiyyətinə Xocalıdakı real vəziyyəti əks etdirən, real informasiyalar verilmirdi. O vaxt bizdə Dövlət Televiziyasının sədri Məmməd Murad idi. Bizi o ora göndərmişdi ki, gedin həqiqi vəziyyəti çəkin və gətirib burada göstərin. Bizim Xocalıya getməyimizin əsas səbəbi o idi. Yadımdadır ki, o vaxt Xalq Cəbhəsinin sədri Əbülfəz Elçibəy bu vəziyyətlə bağlı bəyanat vermişdi. Bu, mət-



Azərbaycan Milli Kitabxanası

buatda da çap olunmuşdu. Hökuməti tənqid edən bəyanat idi. Hesab edirəm ki, bizim getməyimiz də bir növ onunla bağlı idi ki, biz real vəziyyəti çəkək. M.Murad da o cür tapşırıq vermişdi ki, vəziyyət necədirsə, o cür də çəkib gətirin. Mən o materialları çəkib gətirdim və dalbadal iki reportajım getdi. Çalışdıq ki, oradakı vəziyyəti dəqiq göstərək. Yəni camaatın şikayətlərini verdik ki, yol bağlıdır, onlara heç bir kömək göstərilmir. Real vəziyyət barədə Azərbaycan ictimaiyyətinə məlumat verilmirdi. Hesab edirəm ki, bu çox yanlış idi. Orada özünümüdafiə batalyonu var idi. Onlar keşik çəkirdilər. Amma aydın idi ki, onlar heç bir variantda Xocalıya hücum olacağı təqdirdə onun qarşısını almaq iqtidarında deyildilər. Orada tədricən Milli Qəhrəman Aqil Quliyevin rəhbərlik etdiyi təxminən 30 nəfərə yaxın bir tağım formalaşmışdı. Bunların yaxşı silah təminatı yox idi. Məndə Aqil Quliyevdən alınmış müsahibə var. Orada A.Quliyev danışır ki, baxmayaraq ki, burada 30 nəfərdir, amma bunların cəmi 12 avtomatı var. Amma bununula yanaşı, o dövr, şərait üçün bunlar sözün həqiqi mənasında fanatiklər, qəhrəmanlar idilər. Bu bizim Milli Ordunun ilk hissələri idi. Məsələn, bunların kəşfiyyatı ərəfəsində biz həmin kazarmada bir neçə gün qalası olduq. Mən bu insanları yaxından müşahidə edə bildim. Tutaq ki, kəşfiyyata getməmişdən əvvəl bunların təlimatlandırılması, qoyulan tapşırıqların yerinə yetirilməsi üçün bunlara verilən göstərişlər idi. Baxırdım ki, burada əməlli-başlı peşəkar hərbçi ab-havası var, əsl döyüşçülərdir. O dövrdə bir neçə maraqlı əməliyyatlar keçirmişdilər. Amma bununla yanaşı, bütün hallarda Xocalı respublikadan böyük bir şəkildə aralı düşmüş vəziyyətdə idi. Yəni bunlara nə maddi, nə mənəvi, nə informasiya dəstəyi var idi. Təsəvvür edin ki, biz Xocalıda olanda çəkiliş qrupumuz ilk günlər bir evdə qalırdı. Hələ işıq yananda baxırdıq ki, Bakıda hansı atmosfer var, Xocalıda hansı atmosfer var. Mənim heç vaxt yadımdan çıxmaz ki, biz orada olanda görürdüm ki, Xocalıda un yox, çörək yox, camaat ərzaq sarıdan çətinlik çəkir. Amma bizim Dövlət Televiziyasının "Xəbərlər" proqramı xəbər verir ki, Xocalıdan təxminən 15-20 kilometr qıraqda - Ağcabədidə ət bayramı keçirirlər. Xocalıların özü bu cür qeyri-insani şəraiti müşahidə edirdilər. Yəni istər-istəməz bunlarda sanki atılmışlar, yadan çıxarılmışlar təəssüratı yaradırdı. Əlbəttə, çox şeylər demək olar, çox şeyləri təhlil etmək olar. Amma mənim təəssüratım bundan ibarət idi ki, baxmayaraq burada az sayda döyüşçülər var idi, onlar çox döyüşkən ruhda idilər. Ümumiyyətlə, əhalinin özündə bir ruh düşkünlüyü yaranmışdı. Hətta biz orada bəyanatlar eşidirdik, deyirdilər ki, gedib filan nazirin qapısında belə edəcəyik, filankəsi belə edəcəyik. O da hiss olunurdu ki, bunların arasında o atmosferi formalaşdıran insanlar var. İnsanları döyüşkən ruhdan çəkindirən faktorlar var idi.

Faciə baş verdi. Əlbəttə, çox qeyri-insani, antibəşəri bir hadisə idi. Deyim ki, oradakı döyüşçü hissələr lazım olan cəsurluğu, mərdliyi, döyüş hünərini göstərə bildilər, amma bununla yanaşı, qüvvələr həqiqətən qeyri-bərabər idi.

Xocalı faciəsi bizim XX əsr tariximizin ən fəlakətli, ən dəhşətli, ən acınacaqlı səhifəsidir. Bu barədə heç də hər şey axıra kimi açılıb, deyilməyib. Ora həqiqətən özbaşına qalmış bir yer idi. Məsələn, orada olan müddətdə vəzifəli adamların çoxusu şəhərə yığışmışdılar. Xocalının özündə insanları yaxşı səfərbər etmirdilər, müdafiə təşkil olunmurdu. Bunları da demək lazım idi. Bununla, yanaşı, əlbəttə respublika rəhbərliyinin də cəhdi hiss olunurdu. Yalnız vertolyot yolu var idi. Vertolyotla da hər kəs gəlib-getməyə ürək etmirdi, çünki ondan təxminən 2-3 ay qabaq Qarakənd səmasında vertolyot vurulmuşdu. Ondan sonra insanlar vertolyota minməyə də qorxurdular. Silah-sursat gətirmək, hərbi qüvvə yerləşdirmək çətin idi. O dövrdə, A.Quliyevin rəhbərlik etdiyi vzvodun qəhrəmanlığı mənim üçün tarixdir. Qeyri-bərabər döyüşdə bu insanların göstərdiyi hünər, qəhrə-




Azərbaycan Milli Kitabxanası

manlıq, cəsurluq mənim üçün tarixdir. Əlbəttə, o dövrdə satqınlıq da yox deyildi. O kənddə bir neçə ailə qarışıq ailələrdən ibarət idi. Onlar haqqında cürbəcür şayiələr gəzirdi. Hesab edirəm ki, Xocalı ilə bağlı çox məsələlər aydınlaşdırılmalı, çox şeylər üzə çıxarılmalıdır. Yəni tamam siyasi motivdən, siyasi tərəfkeşlik etmədən, ayıq başla bunları obyektiv şəkildə araşdırıb ortaya qoymaq çox vacibdir.



## *Məni əsirlərin arasından çıxarıb başımı kəsməklə qorxudurdular*

***Məmməd Nağıyev, Naftalan şəhərində yerləşən Xocalı poliklinikasının baş həkimi, Azərbaycan Respublikasının "Əməkdar həkimi"***

- Qarabağ müharibəsi başlanan gündən dinclik nə olduğunu bilməmiş, daima cəbhə bölgəsində mübarizə aparmışam. Tibb Universitetini bitirdikdən sonra Xankəndi şəhərinə təyinat almışdım. Ora işğal edildikdən sonra Cəmilli kəndinə, oradan isə Xocalıya gəlmişəm. Volski hakimiyyəti dövründə rusların tətbiq etdiyi "komendant saatı" xəstələrə tibbi yardım göstərməyimizə mane olurdu. 1990-cı il fevralın 13-də xəstəyə baxıb qayıdarkən yolda rus komendantı erməni müavini ilə birlikdə mənim maşınımı saxlatdırıb yoxlamağa başladı. Xəstəyə baxıb qayıtdığımı bildikdən sonra mənə dedi ki, bir də komendant saatı vaxtında xəstəyə baxmayım. Mənim gözlərimin qarşısına bu vəhşilər tərəfindən törədilmiş Qanlı Yanvar faciəsi gəldi və dedim: "Məni xəstəyə baxmağa çağırsalar, sizin komendant saatının vaxtında da gedəcəyəm. Çünki mənim canım sizin rus faşistlərinin Bakıda öldürdüyü yüzlərlə oğul-qızlarımızdan, o cümlədən həkimlərimizdən artıq deyil". Nəticədə məni Əsgəranda kameraya saldılar və 3 gün orada saxlandım. 15 noyabr 1991-ci il ildən Xocalı yerli özünümüdafiə taborunu təşkil etdik. Həmin gündən könüllü olaraq taborun tibb xidməti rəisi kimi fəaliyyətə başladım.

Vəziyyət get-gedə pisləşir, ermənilər getdikcə daha da azğınlaşırdılar. Onlar aramsız şəkildə Xocalını mərmi və güllə yağışına tuturdular. Küçələrdə hərəkət etmək, evlərdə xəstə və yaralılara baxmaq çox çətin idi. Ancaq ümidləri itirmək olmazdı. Nə qədər ağır da olsa onlara vaxtlı-vaxtında baş çəkir, imkan olduqca tibbi yardım göstərirdim. Faciə gününədək təkcə fevral ayı ərzində onlarla ağır yaralımız var idi. Xəstəxanamızın işləmə-



Azərbaycan Milli Kitabxanası

məsi, benzin qıtlığı, xəstə və yaralılarımızın hərəsinin öz evində olması, iki nəfəri çıxmaq şərtilə bütün tibb işçilərinin Xocalını tərk etməsi səbəbindən vəziyyətimiz olduqca ağır idi.

25 fevral 1992-ci il tarixdə misli görünməmiş o faciə gecəsi də bütün xəstə və ağır yaralılara baxıb Kamran dayıgilə gəldim. Saat 22.00 radələriydi. Onlarda bir qədər söhbət etdim. Mənim ermənilər tərəfindən Xocalının mühasirəyə alınması barədə informasiyam var idi. Təxminən 30 dəqiqə sonra hər tərəfi dəhşətli gurultu bürüdü. Ermənilər 366-cı rus motoatıcı alayının köməyi ilə şəhəri toplardan, BTR-lərdən, PDM-lərdən, tanklardan atəşə tutmağa başladılar. Şəhər od tutub yanırdı. Şəhid olanlarımızın və yaralananlarımızın sayı-hesabı yox idi. İmkan daxilində onlarla yaralıya tibbi yardım göstərib, ağır yaralıları xərəklərə yerləşdirib, təxminən gecə saat 2 radələrində 200 nəfərlə Xocalını tərk etməli olduq. Həmin gecə elə bil Allahın da rəhmi göyə çəkilmişdi. Soyuq bıçaq kimi kəsir, qatı qaranlıq və qarçovğun ayağı yalın, əyni çılpaq adamların vəziyyətini daha da dözülməz edirdi. Əksəriyyətin əli-ayağı donmuşdu. Erməni qatillərinin fikri təkcə Xocalını almaq yox, şəhər sakinlərini son nəfərinə kimi qırmaq idi. Heç kimə rəhm etmədən qocalara, hamilə qadınlara, uşaqlara atəş açır, olmazın vəhşiliklər törədirdilər. Bu atışmalarda neçə-neçə ağır yaralımız oldu və onlara da ilkin tibbi yardım göstərib (neçə nəfər ağır yaralının yarasını özümün və döyüşçü yoldaşlarımın köynəklərini cırıb sarıyırdım) Ağdam istiqamətinə yola salırdıq.

Çox müsibətlərdən sonra fevral ayının 27-də Dəhrəz kəndi yaxınlığında ermənilərlə yenidən qarşılaşdıq, atışma başladı. Yaralıların çoxluğundan mən artıq əlimdəki avtomatı döyüşçülərə verib ancaq yaralılarla məşğul olmağa başladım. Biz yaxındakı dərəyə doluşduq və buradan əks tərəfdəki meşəyə keçməyə başladıq. Bu zaman məndən qabaqda anası ilə gedən 10 yaşlı uşağı yaraladılar. Mən ermənilərin güllə atmasına baxmayaraq ona tərəf sürünüb yarasını sarıdım. Atəş artıq kəsilmiş, bizim



dəstədəkilər vuruşmanın mənasız olduğunu görüb təslim olmuşdular. Həmin vaxt mən onlardan aralanmışdım və istəsəydim çıxıb gedə bilərdim. Lakin bir tərəfdən yaralı uşaq, digər tərəfdən bir o qədər qadının, uşağın, qocanın əsir düşməsini, onların içərisində neçə-neçə yaralının olmasını nəzərə alıb mənə elə gəldi ki, onları bu vəziyyətdə qoyub getməyə mənəvi haqqım yoxdur. Ona görə də yaralı uşağı da götürüb camaatın yanına qayıtdım və əsirliyin bütün əzab-əziyyətini çəkməli oldum.

Əsirlikdə olduğum iki gün ərzində neçə-neçə ağır yaralımızın yarasını sarıyıb, qanaxmalarını dayandırmış, əli-ayağı donmuşlara yardım etmişəm. Əsirlikdə bizə elə əzab-əziyyətlər, işgəncələr verdilər ki, yazmaqla, deməklə o vəhşilikləri olduğu kimi təsəvvür etmək olmur. Hərbi formada olan cavanların hamısını seçib aparırdılar. Hətta bir ara məni çıxarıb başımı kəsməklə də qorxutdular. Hamı bir səslə mənə toxunmamalarını xahiş etdi. Xankəndində məni yaxşı bir həkim kimi tanıyan ermənilər də vardı yaraqlılar arasında. Hardasa insanın özünün də xeyirxah əməlləri düşmən qarşısında ona bəraət qazandırır. Çox əzab-əziyyətlərdən sonra bizi dəyişib əsirlikdən azad etdilər. Əsirlikdən azad olunan günün səhəri Ağdamda vaqonlarda təşkil olunmuş hospitala getdim və oradakı yaralılarımıza əlimdən gələn köməyi etdim. Baxmayaraq ki, özümün hər iki ayağımın pəncələrini don vurmuşdu.

1992-ci ilin may ayından Xocalı taborunun yenidən bərpa olunması ilə əlaqədar olaraq həmin taborda fəaliyyətimi davam etdirdim. 1993-cü ilin oktyabr ayına kimi əlahiddə piyada bölüyünün tərkibində "Qara qaya", Şelli, Naxçıvanik, Pircamal, Aranzəmin, Abdal-Gülablı, Bağmanlar, Fərrux, Papravənd döyüşlərində fəal iştirak etmişəm. 1995-ci il dekabr ayının 25-də Azərbaycan Silahlı Qüvvələri sıralarından tərxis olunmuşam. Göstərdiyim xidmətlərə görə təltif edilmişəm. Ancaq mənim üçün ən böyük mükafat düşmən tapdağı altında olan doğma torpaqlarımızın azad edildiyi gün olacaq.



Azərbaycan Milli Kitabxanası

## *Cavanlardan 12-13 nəfərini seçib güllələdilər*

***Brilyant Hacıyeva, Xocalı Rabitə Qovşağının keçmiş rabitəçisi***

- Bu hadisə heç vaxt yadımdan çıxmır, çünki o dəhşətləri unutmaq mümkün deyil. Faciənin baş verəcəyini 1984-cü ildən hiss edirdim. Həmin il ermənilər mənim qaynım Əlif Hacıyevi həbs etdilər. O, tutulandan sonra qayınatam Lətif Hacıyevi Elman Məmmədovun (Xocalının hazırkı icra başçısı, deputat) da çalışdığı kənd sovetinə çağırdılar. Mən də onunla getdim ora. Əlif də nahaqdan tutulması, bu prosesdə ermənilərin əli olması ilə bağlı hər yerə şikayət etdi. Onu istintaq etmək üçün gələn şəxslərdən biri erməni idi. Adı yadımdan çıxıb. Lakin istintaq qrupunun tərkibindəki azərbaycanlı polkovnik Əlifin azad olunmasının vacibliyini dedikdə erməni çox heyrətləndi. Çünki o vaxt belə sözlər danışmaq qorxulu idi.

Fevralın 25-də, yəni faciə baş verənə qədər əhalinin şəhərdən çıxmasını heç kim təmin etmədi. Bu elə də böyük problem olmamalıydı. Əsgəranla Xocalının arası o qədər də böyük məsafə deyildi. Yolların bağlanması, bir neçə gün əvvəl vertolyotun vurulması faciəyə ermənilər tərəfindən görülən hazırlıq idi. Biz hər gün o təhlükəni gözləyirdik. Başda oturanların da qeyrətinə bələd idik və bilirdik ki, harayımıza səs verməyəcəklər. Mən 25 fevral saat 16.30-da evdə olanda bir nəfər qız uşağı gəlib xəbər verdi ki, Əlif telefona çağırır. Qaçaraq yerimə gəldim. O mənə işdən bir addım o yana getməməyi tapşırdı. Əlif mühasirəyə alınmış Xocalının təhlükədə olduğunu söylədi. Mən birinci dəfə idi ki, Əlifin səsindən onun bikef olduğunu hiss edirdim. O mənə narahat olmamağımı və sonuncu dəqiqədə belə məni çıxaracağını bildirdi. Nəhayət, Şuşaya, Bakıya zəng etdim. Sanki Əzrayıl o gecə Bakıdakı məsul işçiləri harasa aparmışdı və heç



kim cavab vermirdi. Axırda Prezident Aparatından bir nəfər şəxs "bu qaraçıları qırsaydılar, canımız qurtarardı" deməklə cavab verdi. Saat 23.00-a yaxın ermənilər atəş açaraq hücuma keçməyə başladılar. Heç kim səsimizə səs vermirdi. Bizim qırılmağımız kiməsə lazım idi. Camaat gəlib poçta tökülmüşdü. Mən də ağlayır, qışqırır, telefonda səsləyirdim. Çayın bir tərəfindən camaat qaçaraq gəldi ki, ermənilər o biri tərəfdən qıra-qıra gəlir. Mən telefonla yalnız bunu deyə bildim: "Biz çıxdıq. Çayboyu camaatın qabağına çıxın. Bizi qırırlar". Təsəlli verirdilər ki, "Qorxmayın, gəlirik!" Bir qədər inamlı tərpənirdik ki, bizimkilər gələcəklər. Xocalıdan çıxdıqdan sonra millət getdikcə qırılırdı. Gecə Qarqar çayını keçib Kətik dağına sarı gedirdik ki, meşələrə dolub güllədən canımızı qurtaraq. Ağdam tərəfə keçmək niyyətimiz var idi. Kinolarda gördüyümüz dəhşətlərə o gecə canlı şəkildə şahid olduq. Sonradan Əlifi itirdik və onu bir daha tapa bilmədim. Qarın, yağışın yaratdığı çətinlik də bizə ikiqat əzab verirdi. Fevralın 26-sı səhər işıqlananda ermənilər milləti güllənin qabağına verdilər.

Həmin anda baş vermiş bir hadisə hələ də mənim yadımdan çıxmır. Bir nəfər cavan oğlanı güllə ilə vurdular. Anası ilə bacısı onu ağacın altına qoydular. Ana əlinin bir yerə çatmadığını görüb oğlunun ayaqqabısının bir tayını çıxararaq özü ilə yadigar olaraq götürdü. Qızının ağlamasına baxmayaraq ana birtəhər dözür, hələ üstəlik onu da sakitləşdirmək istəyirdi. Çünki ermənilər yaxınlıqda idilər və səsimizi eşidib gəlib bizi qıra bilərdilər. Ananın ürəyinin böyüklüyü mənə yaman təsir etdi. Yüzlərlə insan birtəhər çıxıb meşə ilə getməyə başladıq. Yolda soyuqdan, aclıqdan, susuzluqdan donan insanların sayı-hesabı yox idi. İnsan var idi ki, addım atmağa taqəti olmadığı üçün bir tikə çörək istəyirdi ki, yoluna davam etsin. Üç gün yol getdik. Camaat çaşırdı. Hardan getmək lazım olduğunu bilmirdi. Ermənilər Dəhrəz kəndi yaxınlığında bizi haqlayaraq atəş açmağa başladılar.



Azərbaycan Milli Kitabxanası

Bir neçə adam həlak oldu və meyitlər də orada qaldı. Bizimkilər müqavimətin faydasızlığını görüb təslim oldular. Hamımızı həmin kənddə həbs etdilər. Mən rabitədə işlədiyim üçün üzümü-gözümü bağlamışdım ki, tanımasınlar. Aradan heç yarım saat keçməmişdi ki, silahlı ermənilər içəri daxil oldular. Hamı qışqırıb-ağlayırdı. Ermənilər öldürülmüş silahdaşlarının heyfini almaq üçün hamımızı güllələmk istəyirdilər. Bir erməni isə stolun üstünə çıxaraq sağlam cavanlardan 12-13 nəfərini seçdi. Onları çölə çıxardıb avtomatdan atəş açarkən camaat qışqırdı. Təxminən 28 fevralda qadınları, uşaqları dəyişmək üçün oradan çıxardanda həmin şəxslərin izini-tozunu da görə bilmədik. İndiyədək də xəbər tuta bilməmişik ki, o insanların taleyi necə oldu. Sonda hamımızı gətirib Ağdama çıxardılar. Gələndə gördük ki, qohumların əksəriyyəti qırılıb. Çox dəhşətli hadisələr idi.



## *Türklərə qarşı erməni terraktları Xocalıda təkrarlandı*

Türklərə qarşı soyqırım siyasətini davamlı olaraq həyata keçirən erməni terror qruplarının Azərbaycan ərazisində törətdikləri qətllərin, talanların qarşısının alınmaması Ermənistanın dövlət strukturlarının məqsədyönlü fəaliyyətinin təzahürüdür. Bu etnik terrorizmin əsas hədəfləri, ilk növbədə metro, avtobus, körpü, təyyarə, diplomatik təsisatlardır. Erməni terrorunun tarixi başlanğıcı 1890-cı ildə yaradılan "Daşnaksütyun" Partiyası və onun fəaliyyət proqramını müəyyənləşdirən beynəlxalq şəbəkədir. "Daşnaksütyun"un əsas siyasi şüarı, platforması sosial-demokrat ideyasına dayansa da, məqsədləri terrora bağlıdır. Çünki bu terrorçu-siyasi təşkilatın niyyəti Türkiyə dövləti və ətraf bölgələrdəki torpaqlar hesabına "Böyük Ermənistan" dövləti yaratmaqdır. Yüz illərdir ki, türklər erməni terrorunun qurbanına çevriliblər. Keçmişdə Osmanlı dövləti, bu gün isə Türkiyə geopolitik və geostrateji səbəblərdən bir çox dünya dövlətlərinin ciddi təzyiqlərinə, təhdidlərinə məruz qalmaqdadır.

Tarixdə baş verən olaylar onu göstərir ki, Osmanlı dövlətini parçalamaq və dünya səhnəsindən silmək istəyənlər erməni faktorundan geniş istifadə etmişlər. Bu gün də eyni situasiya yaranır, bəzi ölkələr Türkiyəni diplomatik baxımından siyasi kəsərdən, gücdən salmağa çalışır, soyqrımda suçlayaraq anıt abidələri ucaldırlar. Bəzi Avropa dövlətlərinin parlamentlərində müzakirə obyektlərinə çevrilən, yalanlara bürünən "erməni soyqrımı" tanınmaqdadır. Tarixçilərin üzərinə düşən bu məsələdən siyasətçilər yararlanır, istədiklərini həyata keçirməyə nail olurlar. Lakin unutmaq lazım deyil ki, XIX əsr başdan-başa "ermənilərin qızıl dövrü" olmuşdur. Əksər millətlər türklərə minnətdar olmalıdır ki, yaşadıqları dövlətlərdən qovulan ermənilərə Osman-



Azərbaycan Milli Kitabxanası

lı dövləti yaşamaq imkanı verib, onların qanlı cinayətlərinin digər ölkələrə yayılmasının qarşısını alıblar.

Elə ki, Osmanlı dövləti zəifləməyə başladı, Avropa dövlətləri türk-erməni qarşıdurmasını yaradaraq, maraqlarını türklərə diktə etməyə başladılar. O Avropa ki, təxribatları daha dəqiq həyata keçirdikləri üçün erməniləri Osmanlı dövlətinin içərisinə daxil edib, onlardan dini, siyasi məqsədlər üçün istifadə etdi. Elə bunun nəticəsi idi ki, bir qədər sonra Şərqi Anadoludan başlayaraq İstanbula qədər gedib çıxan üsyanlarda, dağıdıcı hərəkətlərdə minlərcə türk və erməni məhv edildi. Anadoludan kənarda yaradılan "Qımçaq", "Ramqovar", Silahlılar Cəmiyyəti, Ermənistana Doğru Cəmiyyəti fəaliyyətlərində xalqı silahlı münaqişəyə doğru istiqamətləndirdi. Təbii ki, Osmanlı dövləti bu iğtişaşları, ermənilərin silahlı üsyanlarını aradan qaldırmalı idi. Bunun üçün 24 aprel 1915-ci ildə silahlı erməni daşnaklarına qarşı, dövlətin təhlükəsizliyini qorumaq naminə tədbir görüldü. Vətənə xəyanət edən 2345 silahlı erməni həbs edildi. Rusiya sərhədinə yaxın bölgələrdə ermənilərin daha fəal olduğunu görən Osmanlı dövləti gələcək üsyanların, qanunsuzluqların qarşısını almaq üçün bölgədəki ermənilərin bir qrupunu ölkənin daha sabit ərazilərinə köçürmək haqqında qərar verdi. Bu tarixi sənədi əsas gətirən ermənilər 1915-ci il 24 aprel gününü öz siyasi məqsədləri üçün "soyqrım" hadisəsi kimi yozurlar.

Ermənilərin Osmanlı Türkiyəsində törətdikləri qırğınlar, talanlar dünyanın müxtəlif ölkələrində çap olunan mətbuatın da diqqətindən yayınmayıb. Bu vəhşiliklər barədə rəsmi sənədlər, faktlar, xatirələr qorunub saxlanılır.

Ermənilərin vəhşiliklərini, qırğınların kütləviliyini öz gözü ilə görmüş alman generalı Bronzart Şellondorf 24 iyul 1921-ci ildə "D.A. Zentunq" qəzetinin 342-ci sayında yazır: "Ələ keçən sənədlərdən, bəyannamələrdən, silahların növündən aydınlaşdı ki, üsyan uzun zamandan bəri hazırlanmış, Rusiya tərəfindən təşkil



olunmuş, maddi cəhətdən təmin edilmişdir. Ermənilər cəbhədə ruslar tərəfindən əfilatəyə alınmış türk ordusuna cinahdan və arxadan təsir göstərməklə kifayətlənməyərək, ərazidəki müsəlmanları da məhv edirdilər. Şahidi olduğum erməni zülmü, sonralar türklərin adına çıxarılan günahlardan daha çox və daha dəhşətli idi".

Sözügedən qəzetin 1921-ci il 297-ci sayında digər bir alman zabiti o günləri xatırlayaraq belə yazır: "Ermənilərin türklərə qarşı etdikləri zülmlərdən, qırğınlardan çox az danışılır. Məsələn, dəfələrlə kəndin bütün türk sakinlərinin gözləri ermənilər tərəfindən çıxarıldı".

Bu hadisədən 80 il sonra Xocalıda da dinc əhali eyni tale və aqibəti yaşadı. Girov götürülən insanlar qətlə yetirildikdən sonra onların gözləri çıxarılmış, cəsədləri üzərində elə təhqiramiz hərəkətlər etmişlər ki, bu da 1915-ci ildə türklərə qarşı törədilənlərin təkrarıdır. Erməni mentaliteti, əxlaqı terrorçuluqdan dolayı davranışları, intiqam hissləri əsrin sonlarında da dəyişməyib.

Türk düşmənliyini beyinlərinə yeridən ermənilər XX əsrin ortalarında siyasi fəallıqlarını bərpa edərək yenidən Türkiyə və dünyanın müxtəlif ölkələrində yerləşən diplomatik korpuslara qarşı terraktlar törətməyə başladılar. Qurgen adlı bir erməni 27 yanvar 1973-cü ildə ABŞ-ın Santa-Barbara şəhərində Türkiyənin Los-Ancelesdəki konsulu Mehmet Baydar ilə konsul Bahadır Dəmiri qətlə yetirdi. 1975-ci ildən başlayaraq ermənilər 1915-ci ildə olduğu kimi mütəşəkkil qaydada təşkilatlanaraq davamlı terror aktları törətdilər. Beləliklə, separatçılar 21 ölkənin 38 şəhərində 39 silahlı, 70 bombalı, biri isə işğal formasında olmaqla üst-üstə 110 terror hadisəsi törətdilər. Bu qanlı olaylarda 42 türk diplomatı ilə yanaşı, 4 əcnəbinin də həyatına son qoyulmuş, 15 türk və 66 əcənbi yaralanmışdı. Bir qədər sonra isə erməni terrorçuları 1980-ci ildən başlayaraq PKK terror təşkilatı



Azərbaycan Milli Kitabxanası

ilə əlaqəyə girdi. 1984-cü ildə PKK səhnəyə çıxarıldı, "Asala" terror təşkilatı arxa plana keçdi.

"Asala"nın fəaliyyətinin bir istiqaməti keçmiş sovet imperiyası dönəmində bu imperiyanın tərkibində olan türkdilli xalqlara qarşı təxribatlar, terraktlar törətməkdən ibarət olub.

Sovet imperiyasının dağılması ərəfəsində erməni terrorizmi istiqamətini dəyişərək, Azərbaycan türklərinə qarşı işğalçı siyasətin silahına çevrildi. "Qarabağ ermənilərinin müstəqilliyi uğrunda mübarizə" pərdəsi altında həyata keçirilən siyasi etirazlar, aksiyalar xarici erməni diasporunun nəzarəti altında münaqişəyə gətirib çıxarıdı. "Daşnaksütyun", "Asala", "Maq", "Erməni ittifaqı", "Ermənistan Azadlıq Cəbhəsi" bir araya gələrək Qarabağdakı erməni separatçılarına güc, maliyyə və silah dəstəyi verdilər. Sovet imperiyasının son günlərini duyan Ermənistan dövləti Azərbaycanda məskunlaşmış ermənilərin yerləşdiyi ərazilərə İran, Livan, Fransa, ABŞ, Rusiya və Yunanıstandan terrorçular gətirərək bölgədəki vəziyyəti qırğınlar törətməklə öz xeyirlərinə dəyişdilər.

Fransa həbsxanasından azadlığa buraxılmış ABŞ vətəndaşı, məşhur beynəlxalq terrorçu Monte Melkonyan 1990-cı ildə "Artsax işi"nə kömək məqsədilə Ermənistana gəlmiş, rəsmi səviyyədə dövlət orqanlarının rəhbərləri ilə görüşmüşdü. Çox keçmədi ki, bu beynəlxalq terrorçu Dağlıq Qarabağa terraktlar törətmək, quldur dəstələrinin yaradılması işinə yardım üçün göndərildi. "Asala"nın liderlərindən olan Melkonyan beynəlxalq terrorçu Karlosun tələbəsi olub ki, qətllər törətməyi, insanları vahiməyə salan qəddar hərəkətləri icra etməyi yaxşı bilirdi. O, öz həmfikirləri arasında partlayıcı qurğular üzrə mütəxəssis kimi də tanınırdı. Beynəlxalq terrorçu Dağlıq Qarabağdakı terraktların müəllifi olaraq, Azərbaycan türklərinin qətllərinin təşkilatçısı kimi ad çıxarmışdı. Qarabağda döyüş zamanı öldürülən Melkonyanın dəfnində demək olar ki, rəsmi Yerevanın bütün "demokratik liderləri" iştirak etmişdilər.



Faktlar və hadisələrin təhlili göstərir ki, Xocalı soyqırımı beynəlxalq erməni terror qruplaşmalarının törətdikləri qanlı faciədir. Osmanlı Türkiyəsində 1915-ci ilin 24 aprelində baş verən erməni iğtişaşları tarixi eynilik etibarı ilə 1988-ci ilin fevralında Azərbaycanda baş vermiş erməni separatçılarının hərəkətlərinin inkasına oxşayır. Xocalı türk soyqırımı salnaməsinin bir səhifəsidir. Beynəlxalq erməni terror qrupları dünyanın müxtəlif ölkələrində türklərə qarşı etmiş olduqlarını Xocalıda da həyata keçirdilər. Xocalı türkün ağrısı, yarasıdır. Avropa dövlətlərində qondarma "erməni genosidi" müzakirə mövzusuna çevrilirsə, nədən türkün başına gətirilən müsibətlər, minlərlə insanın qətli unudulur?

Bu məsələyə daha geniş çevrədə baxmalı, türk dövlətləri erməni hiyləsinin baş tutmamasına çalışmalıdılar. Faktlar, gerçəkliklər dünyaya çatdırılmalı, erməni daşnaklarının törətdiklərinin cavabı sorulmalıdır.

Azərbaycan Milli Kitabxanası

## *"Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

*Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin, obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.*

*Azərbaycan xalqına qarşı dəfələrdə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.*

1813-cü ildə 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək, ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.



"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçiriblər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edildi, minlərlə kiçik azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər.

Birinci Dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı kommunası tərəfindən ümumən Bakı quberniyası azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başladı. Həmin günlərdə ermənilərin törətdiyi cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərinin, məktəblərin, xəstəxanaların, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsinə xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası



Azərbaycan Milli Kitabxanası

1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə fövqəladə instintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər nazirliyində xüsusi qurum yaradıldı. 1919-1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülər soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətinin daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr, 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür - Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş Sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərində milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. "Yazıq, məzlum erməni xalqı"nın surətini yaradaraq, əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi.



Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-nin digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirlir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideyalara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırım siyasəti özünün siyasi hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən anti-Azərbaycan təbliğatına, Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermə-



Azərbaycan Milli Kitabxanası

nilərin qeyri-konstitusion qərarını və Moskvanın əslində bu vilayəti xüsusi idarəetmə komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarılmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq, 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə qurtardı.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladı avantürist hərəkatın başlanğıcı olaraq bu gün 1 milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır.

Azərbaycanın XİX-XX-ci əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edib.



Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə qərara alıram:

1. 31 Mart azərbaycanlıların soyqırımı günü elan edilsin.

2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının prezidenti.**
**Bakı şəhəri, 26 mart, 1998-ci il.**

Azərbaycan Milli Kitabxanası

## *Beynəlxalq cinayət faktı*

*Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunun Ekspert Şurası toplaşaraq, 19 fevral 2002-ci ildə Xocalı faciəsinin soyqırım faktı kimi dünya ictimaiyyətinə çatdırılmasını təmin edən qətnamə qəbul etdi. Xocalı faciəsinin beynəlxalq cinayət olaraq Ermənistanın Azərbaycana qarşı soyqırım siyasətinin tərkib hissəsi olması sənəddə ətraflı izah edilir. Sənədin əhəmiyyətini nəzərə alaraq Ekspert Şurasının üzvü V.İbayevin toplantıdakı məruzəsi ilə birlikdə kitaba daxil etməyi məqsədəuyğun sayırıq.*

Azərbaycan xalqının tarixində soyqırımı kimi siyasi və hüquqi qiymətini almış hadisələr tarixi kökü etibarı ilə bir zamanlar Osmanlı imperiyasının torpaqlarının bölüşdürülməsi - Şərq məsələsinin həyata keçirilməsi üçün uydurulmuş, əslində mövcud olmayan "erməni məsələsi" ilə bağlıdır. Şərq məsələsinin həyata keçirilməsindən bəhrələnmək istəyən erməni millətçiləri XVIII əsrin sonlarından başlayaraq Türkiyə, XIX əsrdən isə Azərbaycanın torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq xülyasına düşmüş və bundan sonra məqsədlərinə çatmaq üçün müxtəlif yerlərdə milli zəmində qırğınlar törətmişlər.

Rusiya və İran arasında bağlanmış Gülüstan və Türkmənçay müqavilələrindən sonra ermənilər kütləvi şəkildə Azərbaycan torpaqlarında məskunlaşdırılmışlar. Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı 1905-1907-ci illərdə, 1918-ci ildə qırğınlar törədilməklə soyqırımı siyasəti həyata keçirilməyə başlanmışdır.

Ermənistan dövləti tərəfindən azərbaycanlılara qarşı aparılan etnik təmizləmə siyasəti SSRİ-nin yarandığı ilk illərdən başlanmışdır. Belə ki, Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması ilə Azərbaycanda ermənilərin



milli azlıqda olması probleminin öz həllini tapmasına baxmayaraq, həmin dövrdə Ermənistan SSR ərazisində yaşayan azərbaycanlılara muxtariyyət verilməməsi tarixi ədalətsizlik kimi qiymətləndirilməli idi. Qarabağın dağlıq ərazisində yaşayan 80 minlik erməni əhalisinə muxtariyyət verildiyi halda, həmin dövrdə Ermənistanın 580 minlik, həmçinin Gürcüstanda yaşayan 600 minlik azərbaycanlı əhalisinə muxtariyyət verilmədi.

Bundan sonra ermənilərin Azərbaycana qarşı millətçi-separatçı siyasəti aşağıdakı istiqamətlərdə həyata keçirilirdi:

- Dağlıq Qarabağı Azərbaycan SSR-dən qoparmaq;
- Azərbaycan SSR-in ərazilərinə yiyələnmək;
- Ermənistan SSR-dən azərbaycanlıların köçürülməsinə nail olmaq.

Hazırda Ermənistan adlanan əzəli Azərbaycan torpaqlarından etnik təmizləmə siyasətinin tərkib hissəsi kimi azərbaycanlıların 1948-1953-cü il deportasiyası təşkil edilir.

1948-1952-ci illərdə xaricdən gələn ermənilərin yerləşdirilməsi bəhanəsi ilə 150 mindən çox azərbaycanlı əhalisi öz vətənindən çıxarıldı.

Azərbaycanlıların Ermənistandan köçürülməsi Ermənistan ərazisindəki azərbaycanlıların qədim məskənləri olan dədə-baba torpaqlarının boşaldılması siyasətinin həyata keçirilməsi üçün təşkil olunmuşdur. Bu haqsızlığa uzun müddət heç bir siyasi qiymət verilməyibdir. Yalnız Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci il tarixli fərmanı ilə həmin ədalətsizliyə hüquqi qiymət verildi.

Ermənistanda həyata keçirilən etnik təmizlənmənin yeni kütləvi dalğası SSRİ-nin süqutunun son illərinə təsadüf etdi. 1988-ci ilin qışından başlayaraq Ermənistanda azərbaycanlılara qarşı etnik təmizləmə başlandı. "Azərbaycanlılarsız Ermənistan" şüa-



Azərbaycan Milli Kitabxanası

rı altında həyata keçirilən etnik təmizləmə nəticəsində Ermənistan hakim dairələrinin himayəsi və razılığı əsasında hazırkı Ermənistan adlanan dövlətin ərazisindən 40897 azərbaycanlı məcburi qaydada deportasiya olundu. Təkcə 3 gün ərzində - 1988-ci ilin noyabr ayının 27-dən 29-dək Ermənistan SSR-in Quqark, Spitak və Stepanavan şəhərlərində 33 nəfər azərbaycanlı öldürülmüşdü. Ümumiyyətlə, Azərbaycan Respublikası Prokurorluğunun məlumatına əsasən, 1988-1989-cu illərdə Ermənistanda aparılan etnik təmizləmə dövründə 216 nəfər azərbaycanlı öldürülmüşdür. Onlardan 49 nəfəri divan tutulmaqdan qorxub qaçarkən dağlarda donmuş, 41 nəfər qəddarlıqla döyülməkdən ölmüş, 35 nəfər uzun işgəncələrdən sonra öldürülmüş, 115 nəfər diri-diri yandırılmış, 16 nəfər güllələnmiş, 10 nəfər təhqirlərə dözməyib infarktdan ölmüş, 2 nəfər erməni həkimləri tərəfindən xəstəxanada öldürülmüş, 3 nəfər suda boğulmuş, bir nəfər asılmış, bir nəfər əzablardan qurtarmaq üçün özünü öldürmüş, bir nəfər elektriklə öldürülmüş, iki nəfərin başı kəsilmiş, 29 nəfər qəsdən avtomobil altına salınmaqla öldürülmüş, 3 nəfər xəstəxanada olarkən tibbi xidmət göstərilməməsi nəticəsində ölmüş, 8 nəfər oğurlanmış və xəbərsiz itkin düşmüşdür. Həyatdan məhrum edilmiş azərbaycanlıların yeganə günahı onların azərbaycanlı olmaları idi. "İnsan Hüquqlarının Ümumi Bəyyanamə"sinin 2-ci maddəsinə əsasən isə hər bir şəxs irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və digər əqidəsindən, milli və sosial mənşəyindən, əmlak, sosial mövqe və digər vəziyyətindən asılı olmayaraq bütün hüquq və azadlıqlara malik olmalıdır. Lakin yuxarıda göstərilənlər insan hüquq və azadlıqlarının pozulmasının adi halı deyildi. Əsrin əvvəllərindən başlayaraq plana uyğun surətdə azərbaycanlılara qarşı həyata keçirilən "etnik təmizləmə", soyqırımı idi.

Ermənistan tərəfindən azərbaycanlılara qarşı soyqırımı təkcə Ermənistan ərazisində deyil, eyni zamanda Azərbaycan ərazilə-



rində də davam etdirilirdi. Bu da bir daha təsdiq edir ki, azərbaycanlılara qarşı soyqırımı siyasəti Ermənistanın dövlət siyasətinin tərkib hissəsidir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə Azərbaycan xalqına qarşı törədilmiş ən amansız cinayətlərdən biri də 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə baş vermiş Xocalı genosidi idi. Həmin gecə Ermənistan Respublikasının silahlı qüvvələri öz havadarları və bir qrup muzdlu dəstələri ilə birlikdə Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda yerləşən Xocalı şəhərinə hücum edərək heç bir günahı olmayan mülki əhalinin şəhəri tərk edə bilməmiş hissəsini də qəddarlıqla qətlə yetirmişlər. Şahidlər təsdiq edirlər ki, həmin gecə onlarla qadın, 2 yaşından 15 yaşınadək uşaq və qoca güllələnmiş, bəzi meyitlərdə bir neçə xəsarət yerləri aşkar edilmişdir ki, onlardan biri yaxın məsafədən baş nahiyəsinə yetirilmiş odlu silah xəsarətləri olmuşdur. Bu da onu göstərir ki, yaralılar sonradan odlu silahla öldürülmüşdür. Bir neçə uşaq meyitinin qulaqları kəsilmişdir. Yaşlı qadının sifətinin sol yanağının dərisi soyulmuş, qoca kişinin qafa sümüyü çıxarılmışdır. İlk dəfə 28 fevral 1992-ci ildə hadisə yerinə vertolyotla gələnlər 500 metr radiusda ərazinin meyitlərlə örtüldüyünü görmüşlər.

Xocalı sakini Canan Orucov çoxsaylı insan tələfatı, xüsusən qadın və uşaqların öldürülməsi barədə məlumat vermişdir. Onun 16 yaşlı oğlunu güllələmiş, 23 yaşlı qızını əkiz uşaqları ilə birlikdə və ikinci 18 yaşlı hamilə qızını girov götürmüşlər.

Səriyyə Talıbova adlı şəxs göstərmişdir ki, erməni döyüşçüsünün qəbri üstündə 4 nəfər mesxet türkünün və 3 azərbaycanlının başını kəsmişlər. Valideynlərinin yanında uşaqlara işgəncə vermiş və onları öldürmüşlər. Milli hərbi geyimdə olan azərbaycanlı əsgərin gözlərini oymuşlar.

Xocalıda mülki əhalinin tələf edilməsinin planauyğun surətdə həyata keçirilməsini təsdiq edən faktlardan biri də odur ki, əha-

linin bir hissəsi zorakılıqdan qaçıb qurtarmaq istəyərkən qabaqcadan xüsusi olaraq düzəldilmiş pusqularda qətlə yetirilmişdir. Xocalı İcra Hakimiyyəti başçısı Elman Məmmədovun məlumatına görə, Naxçıvanik kəndi ərazisində Xocalıdan qaçan əhali avtomat, pulemyot və başqa silahlardan gülləbaran edilmişdir. Xocalılara qarşı həmin hərəkətlər ermənilərin niyyətinin məhz soyqırımı cinayətini törətməyə yönəlmiş olduğunu göstərir.

Xocalı sakini Sənubər Ələkbərova Naxçıvanik kəndində qadın, uşaq və qoca meyitlərindən yaranmış təpəni heç vaxt unutmayacağını bildirib. Həmin kənddə ermənilərin qurduğu pusquya düşdükdən sonra onun əri, iki qızı - Sevinc və Hicran öldürülmüş, özü isə yaralanmışdır. Orada 200 nəfər azərbaycanlı girov götürülmüşdür. Cəmil Məmmədov da girov düşmüş azərbaycanlılardan olmuşdur. Onun dırnaqlarını çıxarmış, təpiklə sifətinə xəsarət yetirmiş, nəvəsini isə ondan alıb götürmüş, anası və qızı xəbərsiz itkin düşmüşdür. Uşaqların zorla bir qrupdan alınıb başqa bir qrupa verilməsi də soyqırımı cinayətinin obyektiv cəhətini təşkil edən əlamətlərdəndir.

Soyqırımı hadisəsindən sonra cinayətin baş verdiyi yerdə olmuş fransız jurnalisti Can İv Yunet demişdir: "Mən müharibələr haqqında, alman faşistlərinin qəddarlığı haqqında çox eşitmişəm. Ancaq ermənilər 5-6 yaşlı uşaqları, mülki əhalini öldürməklə onları ötüb keçiblər".

"İzvestiya" qəzetinin müxbiri V.Bulıx göstərmişdir ki, Xocalı hadisələri zamanı gözləri oyulmuş, qulaqları kəsilmiş, qafa sümükləri çıxarılmış, başları kəsilmiş meyitlərin şahidi olmuşdur.

Azərbaycan Müdafiə Nazirliyi tibbi xidmətinin rəisi Xanlar Hacıyev xidməti işi ilə əlaqədar çox ölüm və əzablarla qarşılaşsa da, Xocalı hadisələri zamanı törədilmiş vəhşiliklərdən dəhşətə gəlmişdir. Donmuş qızın üzünün bıçaqla kəsilməsi, döyüşçünün bağırsaqlarının çıxarılaraq qarışdırılması bu cür vəhşiliklərə misaldır.



Mayor Leonid Kroveç özü 200 meyit müşahidə etdiyini, onunla bir yerdə olan polis nəfərinin 4 yaşlı uşağının meyitini tapıb, başının əzildiyini gördükdə, ağlını itirməsinin şahidi olmasını təsdiq etmişdir.

Moskva "Memorial" hüquq-mühafizə mərkəzinin Xocalı şəhərinin işğalı zamanı insan hüquqlarının kütləvi pozulması faktları barədə məlumatında göstərilir: "Qaçanlar ermənilərin pusqusuna düşmüş və güllələbaran edilmişlər... Dörd gün ərzində Ağdama 200 meyit gətirilmiş, onlarca meyitə təhqirə məruzqalma əlamətləri olmuşdur. Dörd meyitin başının dərisinin soyulduğu və bir meyitin başının kəsildiyi qeydə alınmışdır. Ağdamda 181 meyit (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) dövlət məhkəmə - tibbi ekspertizasından keçirilmişdir. Ekspertlərin rəyi ilə müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin - qəlpə yaraları səbəb olmuş, 10 nəfər küt alətlə vurulmaqla öldürülmüşdür... Ağdamda sanitar qatar jurnalında qeydiyyatdan keçirilənlərin 598 nəfərində xəsarət və donma faktları müşahidə olunmuşdur. Orada diri adamın baş dərisinin soyulması faktı qeydə alınmışdır.

Ermənistanın Azərbaycana təcavüzü nəticəsində minlərlə insan həyatdan məhrum edilmiş, şikəst olmuş, 900 yaşayış məntəqəsi dağıdılıb talan edilmiş, mülki əhalinin ümumi sahəsi 9 milyon kv.m. olan mülkləri dağıdılıb yandırılmışdır. Dağıdılmış və əmlakı aparılmış yaşayış evlərinin ümumi dəyəri on milyardlarla dollar həcmindədir.

### *II. Xocalı soyqırımının beynəlxalq cinayət kimi səciyyəsi*

Beynəlxalq cinayət - ayrı-ayrı dövlətlərin hüquq və qanuni mənafelərini, beynəlxalq səviyyədə tanınmış insan hüquqlarını kobud və ya kütləvi şəkildə pozan, hüquqi tərkibi beynəlxalq hüquq normalarında müəyyən olunmuş, beynəlxalq hüquqa zidd olan əməllərə deyilir. Beynəlxalq hüquq elmində "beynəlxalq



Azərbaycan Milli Kitabxanası

cinayət" və "beynəlxalq xarakterli cinayət" kateqoriyaları fərqləndirilir. Soyqırımı cinayəti beynəlxalq cinayət kateqoriyasına aiddir. Həmin cinayətlərin əsas tərkibləri İkinci Dünya müharibəsindən sonra yaradılmış beynəlxalq hərbi tribunalların (Nürnberq və Tokio) Nizamnaməsində ifadə olunmuşdur. Sonradan həmin cinayət tərkibləri Yuqoslaviya və Ruanda beynəlxalq cinayət tribunallarının nizamnamələrində və Beynəlxalq Cinayət Məhkəməsinin Statusunda təkmilləşdirilməklə bir daha təsdiqini tapmışdır. Nürnberq Tribunalı Nizamnaməsində beynəlxalq cinayətlər üç qrupa ayrılmışdır:,

* sülh əleyhinə cinayətlər;
* müharibə cinayətləri;
* insanlıq əleyhinə cinayətlər.

İkinci Dünya müharibəsindən sonra beynəlxalq birlik genosidi müstəqil beynəlxalq cinayət kimi fərqləndirdi. Nürnberq Tribunalı Nizamnaməsi və hökmlərində soyqırımı termini işlədilməmişdir.

Nürnberq Tribunalı Nizamnaməsinin təsnifatına görə, soyqırımı insanlıq əleyhinə cinayətlərə daha yaxındır. Lakin soyqırımı insanlıq əleyhinə cinayətlərdən müəyyən əhali qrupuna qarşı repressiyanın miqyasına və dəqiq ifadə olunan məqsədinə görə fərqlənir. Soyqırımı müəyyən mənada müharibə cinayətlərinə də oxşardır. Belə ki, həmin cinayətin törədilməsi hərbi əməliyyatların aparılması vaxtı ilə üst-üstə düşə bilər. Lakin soyqırımı müharibə cinayətlərindən də məqsədinə görə fərqlənir, həm də soyqırımı dinc dövrdə də törədilə bilər (məsələn, Kombocada Pol Poto öz xalqına qarşı soyqırımı həyata keçirmişdi). Məhz həmin əlamətlərinə görə Yuqoslaviya və Ruanda Tribunalları nizamnamələrində, Beynəlxalq Cinayət Məhkəməsi Statusunda soyqırımı cinayəti müharibə cinayəti və insanlıq əleyhinə cinayətlərdən ayrılmışdır.

Soyqırımının hüquqi məzmunu hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə törədilən aşağıdakı hərəkətlər təşkil edir:

* bu cür qrup üzvlərinin öldürülməsi;
* belə qrup üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi;
* hər hansı qrup üçün qəsdən onun tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan həyat şəraitinin yaradılması;
* bu cür qrupda doğumun qarşısını almağa yönəldilmiş tədbirlərin görülməsi;
* uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi.

Soyqırımı cinayəti üçün xüsusi niyyətin olması zəruri ünsür sayılır. Bu, soyqırım cinayətini obyektiv cəhətinə görə oxşar beynəlxalq cinayətlərdən fərqləndirir. Soyqırımı cinayətini təşkil edən əməllərdən hər biri öz xarakterinə görə şüurlu, bilərəkdən və iradə ilə diktə olunan əməllərdir. Həmin əməllər heç bir halda təsadüfən və ehtiyatsızlıq nəticəsində törədilə bilməz. Eyni zamanda, həmin əməlləri törətmək niyyəti və onların mümkün nəticələrinin ümumən dərk edilməsi əməlin soyqırımı kimi tövsifi üçün kifayət deyildir. Burada cinayətkarın fikrinin xüsusi istiqamətini və ya əməlin neqativ nəticələri ilə bağlı olan konkret niyyətini ortaya çıxarmaq tələb olunur.

Qabaqcadan xüsusi düzəldilmiş pusqulardan qaçıb canını qurtarmaq istəyən azərbaycanlı mülki əhalinin avtomat, pulemyot və başqa silahlardan güllədaran edilməsi məhz soyqırımı niyyətini sübut edir.

Həmin cinayətin azərbaycanlı milli qrupuna qarşı yönəlməsi də göz qabağındadır.

Soyqırımı cinayətini təhlil edərkən onun əsas üç ünsürünün mövcud olması aydınlaşır:

* tanınan milli, etnik, irqi və ya dini qrupun olması;
* bu cür qrupu tamamilə və ya qismən məhv etmək niyyətinin olması (mens rea);





Azərbaycan Milli Kitabxanası

* tanınan qrupla bağlı genosid hərəkətlərdən hər hansı birinin törədilməsi (astus reus).

Deməli, soyqırımı aktı hökmən milli, etnik, irqi və ya dini qrupa qarşı yönəlməlidir. Başqa qrupa, məsələn, siyasi və ya sosial qrupa qarşı yönələn bu cür hərəkətlər genosid kimi qiymətləndirilə bilməz.

Soyqırımı anlayışı qadağan olunmuş əməlin ümumi nəticələrinə dair konkret niyyətin olmasını tələb edir.

Soyqırımı cinayətinin tövsifedici əlaməti kimi niyyət özündə bir neçə cəhəti birləşdirir:

- niyyət, təsadüfi, bu və ya digər konkret qrupa məxsus olan bir, yaxud bir neçə şəxsin deyil, qrupun məhv edilməsindən ibarət olmalıdır. Fərdin şəxsiyyəti yox, məhz müəyyən qrupa mənsubluğu soyqırımın qurbanlarını təyin etmək üçün həlledici meyardır;
- niyyət, qrupun bir qrup kimi, özü-özlüyündə, başqasından fərqlənən bir ayrıca qurum kimi məhv edilməsindən ibarət olmalıdır. Soyqırımı bütöv insan qrupunun mövcudluğu hüququnu tanımaqdan imtinadır. Adamöldürmə (hemosid) isə ayrı-ayrı insan varlıqlarının yaşamaq hüququnu tanımaqdan imtina kimi səciyyələnir. Deməli, astus reus (qadağan olunmuş əməl) bir adamla məhdudlaşa bilər, lakin mens rea (niyyət) qrupun mövcudluğu əleyhinə yönəlməlidir;
- niyyət, qrupun "tamamilə və ya qismən" məhv edilməsindən ibarət olmalıdır;
- niyyət məhz, milli, etnik, irqi və ya dini qruplardan birinin məhv edilməsindən ibarət olmalıdır.

Soyqırımı cinayətinə görə məsuliyyətin ortaya çıxması üçün müəyyən qrupun məhv edilməsindən ibarət son nəticənin əldə olunması tələb olunmur. Bunun üçün həmin cinayətin obyektiv cəhətini təşkil edən əməllərdən hər hansı birinin müəyyən qrupun bir qrup kimi tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi kifayətdir.



Genosidin obyektiv cəhətinə aid olan məhvetmə anlayışı qrupun fiziki və ya bioloji vasitələrlə fiziki məhv olunmasını bildirir. Burada söhbət qrupun milli, din, dil, mədəni və ya digər özünəməxsusluğunun məhv olunmasından getmir. Soyqırımı cinayətinin obyektiv cəhətinə "mədəni genosid" aid deyildir.

"Barselona Trastion Kase" işi üzrə qərarında BMT-nin Beynəlxalq Məhkəməsi soyqırımı aktlarının qadağan olunması ilə bağlı öhdəlikləri erga omnes öhdəliklər adlandırmışdır.

Beynəlxalq Məhkəmə Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın əsasında duran prinsipləri beynəlxalq adət hüququnun bir hissəsi, bütün dövlətlər üçün məcburi xarakter daşıyan normalar kimi tanımışdır.

Soyqırımı cinayətinin olduğu kimi qiymətinin verilməsi və beynəlxalq hüquq normalarının tələb etdiyi kimi onu törədənlərin layiqli cəzalarını alması zəruridir.

### *III. Xocalı soyqırımının beynəlxalq cinayət kimi hüquqi əsasları*

Xocalı soyqırımının beynəlxalq cinayət kimi tövsifi üçün hüquqi əsaslarla aşağıdakılar hesab olunmalıdır:

1) BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya (Konvensiya 1951-ci ildə qüvvəyə minmişdir);

2) Nürnberq Hərbi Tribunalının Nizamnaməsi (Nizamnamədə birbaşa soyqırım cinayəti göstərilməsə də, həmin cinayəti təşkil edən əməllər insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri kimi nəzərdə tutulmuşdur);

3) Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalı Nizamnaməsi (mad.4).



Azərbaycan Milli Kitabxanası

4) Ruanda Beynəlxalq Cinayət Tribunalı Nizamnaməsi (mad.1);

5) Beynəlxalq Cinayət Məhkəməsinin Statusu (mad.6);

6) Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (mad.103);

7) Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında"26 mart 1998-ci il tarixli Fərmanı.

***IV. Xocalı soyqırımının beynəlxalq hüquqi nəticələri***

Beynəlxalq hüquq soyqırımı cinayəti ilə əlaqədar aşağıdakıları müəyyənləşdirmişdir:

1. Soyqırımı cinayəti törətmiş şəxslərin cinayət mühakiməsi və cəzalandırılması labüddür. Beynəlxalq hüquq soyqırımı cinayətinin anlayışını müəyyən etməklə yanaşı, həmin cinayəti törətmiş şəxslərin məsuliyyətini də müəyyənləşdirir. Belə ki, Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın 5-ci maddəsinə əsasən iştirakçı dövlətlər soyqırımı cinayətini törətməklə təqsirli olan şəxslərin cəzalandırılması üçün təsirli tədbirlər görməlidirlər. Konvensiyanın 6-cı maddəsinə əsasən həmin şəxslər dövlətin ərazisində səlahiyyətli məhkəmələrdə mühakimə olunmayıbsa, beynəlxalq məhkəmə tərəfindən mühakimə edilməlidirlər.

2. Soyqırımı cinayətinin təkcə icraçıları deyil, soyqırımı törətməyə sui-qəsd, soyqırımına birbaşa və açıq təhrikçilik, soyqırımına cəhd və soyqırımında iştirak etmək də cinayət məsuliyyəti doğurur.

3. Soyqırımı cinayəti törətmiş şəxslərə universal yurisdiksiya prinsipi tətbiq olunmalıdır. Ənənəvi olaraq milli məhkəmə orqanlarının yurisdiksiyası dövlətin ərazisində cinayət törətmiş şəxslərlə məhdudlaşır. Hazırda beynəlxalq hüquq beynəlxalq cinayətlərin dövlətin ərazisindən kənarda törədilməsindən, cinayəti törədənin və ya zərər çəkmişin həmin dövlətin vətəndaşı olmamasından, eyni zamanda həmin cinayətlərin ölkənin dövlət



maraqlarına ziyan vurub-vurmamasından asılı olmayaraq milli məhkəmə orqanlarına həmin cinayətlərlə bağlı yurisdiksiyanı həyata keçirməyə imkan verir. Hətta beynəlxalq hüquq milli məhkəmə orqanları üzərində bu cür öhdəlik qoyur, yəni universal yurisdiksiya tələb edir.

Yurisdiksiyanın universallığı aut yudisare, aud dedere (ya cəzalandır, ya da ver) prinsipindən irəli gəlir.

Bu prinsipə müvafiq olaraq dövlət müharibə cinayətini törətməkdə şübhəli bilinən və ya bu cinayətin törədilməsi barədə əmr vermiş şəxsi axtarmalı və vətəndaşlıq mənsubiyyətindən asılı olmayaraq məhkəmə məsuliyyətinə almalıdır.

4. Soyqırımı cinayətini törətməkdə əmrin icrası istinad şəxsi cinayət məsuliyyətindən azad etmir.

Dövlətin aktları onun vəzifəli şəxslərinin fəaliyyəti olduğundan, təqsirə görə yalnız dövlətə sanksiya tətbiq edilməsi ilə kifayətlənmək olmaz. Belə hallarda cinayətkar əməlin təşkilatçıları, rəhbərləri, icraçıları - konkret fiziki şəxslər də cəzalandırılmalıdır.

Soyqırımı cinayəti törədilməsinə görə dövlətin cinayətkar əmrlər verən, bu əmrləri icra edən vəzifəli şəxsləri də məsuliyyət daşıyır.

Cinayətkar əmr verən şəxsin məsuliyyəti şübhə doğurmur. Çünki vəzifəli şəxsin əməli iki tələbi-tabeliyində olan şəxsin hüquqauyğun davranışını təmin etmək və hüquqamüvafiq fəaliyyət göstərmək tələbini pozur.

Nürnberq Hərbi Tribunalı Nizamnaməsinin 8-ci maddəsi ilə müəyyən edilmişdir ki, müqəssirin hökumət sərəncamı və ya rəisin əmrinə görə fəaliyyəti onu məsuliyyətdən azad etmir, lakin tribunal ədalət mühakiməsinin maraqları tələb etdiyi hallarda bunu, cəzanı yüngülləşdirmək üçün əsas hesab edə bilər.

Yuqoslaviya Beynəlxalq Tribunalının Nizamnaməsində də tabelikdə olan şəxslərin öz cinayətkar hərəkətlərini hökumətin və



Azərbaycan Milli Kitabxanası

ya yüksək, vəzifəli şəxsin əmri əsasında törətməsi onların məsuliyyətini aradan qaldıran hal kimi nəzərdə tutulmamışdır.

Beynəlxalq Cinayət Məhkəməsinin Statusuna əsasən Məhkəmənin yurisdiksiyası altına düşən cinayətlərin, hökumətin, mülki və ya hərbçi rəisin əmri ilə törədilməsi, aşağıdakı hallar istisna olmaqla, şəxsi cinayət məsuliyyətindən azad etmir:

- müvafiq hökumətin və ya rəisin göstərişini yerinə yetirmək bu şəxsin qanuni vəzifəsidirsə;
- bu şəxs əmrin qeyri-qanuniliyini bilməmişdirsə;
- əmr açıq-aşkar qeyri-qanuni olmamışdırsa.

Statusa əsasən, soyqırımı cinayətinin və insanlıq əleyhinə cinayətlərin törədilməsi haqqında əmrlər açıq-aşkar qeyri-qanunidir.

5. Soyqırımı cinayətinin törədilməsinin qarşısının alınması üçün tədbir görməməyə görə rəhbər şəxs məsuliyyət daşıyır.

Komandirin məsuliyyət prinsipi onun tabeliyində olan şəxs tərəfindən beynəlxalq humanitar hüququn pozulmasının qarşısını almaq və ya aradan qaldırmaq üçün tədbir görmədiyi hallara şamil edilir.

Cinayət hüququnda tədbir görməməyə görə cinayət məsuliyyətinin sərhədləri dəqiqləşdirilmiş və məsuliyyət konkret hallardan asılı olaraq meydana çıxır. Beynəlxalq humanitar hüquq pozuntusunun qarşısının alınması üçün komandirin açıq surətdə tədbir görməməsi Cenevrə Konvensiyalarında ciddi pozuntu kimi müəyyənləşdirilmiş və cinayətlərin qarşısının alınması sisteminin bir hissəsini təşkil edir. Tabeliyində olan şəxslərin ciddi pozuntu törətməsi rəisin də həmin cinayətlərə görə məsuliyyətini yaradır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı təkcə birbaşa beynəlxalq cinayət törətmiş şəxslər deyil, həm də həmin cinayətlərin qarşısını almaq üçün tədbir görməmiş mülki hakimiyyət və hərbi rəis heyəti də cinayət məsuliyyəti daşıyır.



6. Soyqırımı cinayətlərinə cinayət məsuliyyətinə cəlbetmə müddəaları tətbiq edilmir.

BMT Baş Məclisinin 26 noyabr 1968-ci il tarixli 2931 (XXIII) saylı qətnaməsi ilə qəbul edilmiş "Müddətin müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərə tətbiq edilməməsi haqqında" Konvensiyasının 1-ci maddəsinə əsasən müharibə cinayətləri törədildiyi vaxtdan asılı olmayaraq, onlara cinayət məsuliyyətinə cəlbetmə müddəti tətbiq olunmur.

Azərbaycan Respublikası CM-nin 75.5 maddəsinə əsasən Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş sülh və insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri törətmiş şəxslərə müddət barədə müddəalar tətbiq olunmur. Həmin cinayətləri törətmiş şəxslər cinayətin törədilməsindən asılı olmayaraq cinayət məsuliyyətinə cəlb olunmalı və məhkum edilməlidirlər. Bu müddəa ona əsaslanır ki, həmin cinayətlər nəticəsində Beynəlxalq Birliyə və bəşəriyyətə vurulmuş ziyan öz ağırlığına görə istisna təşkil edir və əgər həmin cinayəti törətmiş şəxs ədalətli məhkəmə qərarına əsasən cəzalandırılmasa, ödənilə bilməz.

Beynəlxalq cinayətlərə məsuliyyətə cəlbetmə müddətinin tətbiq olunmaması ona dəlalət edir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı törədilmiş beynəlxalq cinayətlərdən nə qədər vaxt ötsə də, həmin cinayətləri törətmiş şəxslər cinayət məsuliyyətinə alınmalıdırlar.

7. Soyqırımı cinayətinə görə qanunun retroaktiv tətbiqinə yol verilir.

Dövlətdaxili qanunvericilikdə nəzərdə tutulmamasından asılı olmayaraq beynəlxalq aləm tərəfindən qəbul edilmiş hüquq prinsiplərinə əsasən cinayət sayılan hər hansı əmələ görə cinayət məsuliyyətinə cəlbedilmənin zəruriliyi Nürnberq Hərbi Tribunalının Nizamnaməsində və həmin Tribunalın qərarlarında ifadəsini tapmış, beynəlxalq hüququn prinsipləri kimi tanınmış



Azərbaycan Milli Kitabxanası

müddəalarda nəzərdə tutulmuşdur.

Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 15-ci maddəsinin 2-ci hissəsində göstərilir ki, bu maddədə heç nə hər hansı bir şəxsin törədilərkən beynəlxlaq aləm tərəfindən qəbul olunmuş hüquq prinsiplərinə əsasən cinayət olan hər hansı bir əməlinə, yaxud xətasına görə məhkəməyə verilməsinə və cəzalandırılmasına mane olmur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı törədilmiş bir sıra cinayətlər onların baş verdiyi dövrdə Azərbaycan Respublikası Cinayət Məcəlləsində beynəlxalq cinayət kimi ifadəsini tapmamışdı. Lakin bu, heç də həmin cinayəti törədən şəxslərin cinayət məsuliyyətini istisna etmir. Çünki yuxarıda qeyd olunan beynəlxalq cinayətlərə görə məsuliyyətin zəruriliyi barədə müddəa artıq Beynəlxalq Birlik tərəfindən qəbul edilmiş və beynəlxalq hüququn adət norması kimi fəaliyyət göstərir. Ona görə də azərbaycanlılara münasibətdə törədilmiş vəhşiliklər beynəlxalq aləm tərəfindən qəbul olunmuş hüquq prinsiplərinə müvafiq olaraq beynəlxalq cinayət kimi tanınmış və həmin cinayət əməllərinə görə heç nə həmin cinayəti törətmiş şəxsləri cinayət məsuliyyətindən azad edə bilməz.

8. Soyqırımı cinayətini törətmiş şəxslər cinayət məsuliyyətinə cəlb edilməsi üçün tələb edən dövlətə verilməlidir.

Beynəlxalq hüquq və cinayət hüququnda cinayətkarların verilməsi dedikdə, cinayət törətmiş və ya onu törətməkdə şübhəli hesab edilən şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi və ya ona münasibətdə ittiham hökmünün icra olunması üçün bir dövlət tərəfindən başqa dövlətə verilməsi başa düşülür. Müharibə cinayəti törətmiş şəxslərin verilməsi ilə əlaqədar beynəlxalq səviyyədə bağlanmış müqavilələrdə nəzərdə tutulan məsələlər milli qanunvericilikdə də öz əksini tapmışdır. "Müddətin müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərə tətbiq edilməməsi haqqında" Konvensiyanın 2-ci maddəsinə müvafiq olaraq



iştirakçı dövlətlər müharibə cinayəti törətmiş şəxslərin beynəlxalq hüquqa müvafiq olaraq təhvil verilməsi üçün şərait yaradılmasına yönəldilmiş qanunvericilik və digər xarakterli bütün lazımi daxili tədbirləri görməyi öhdələrinə götürürlər. BMT Baş Məclisinin qəbul etdiyi Müharibə cinayətləri törətməkdə müqəssir olan şəxslərin aşkara çıxarılması, həbs edilməsi, təhvil verilməsi və cəzalandırılmasına dair beynəlxalq əməkdaşlığın prinsiplərində də müharibə cinayətləri törətmiş şəxslərin verilməsi barədə müddəalar öz əksini tapmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı beynəlxalq cinayət törətmiş şəxslərin tələb olunması və mühakimə edilməsi üçün hüquqi baza mövcuddur. Həmin hüquqi əsaslara söykənərək soyqırım cinayəti, müharibə cinayətləri və insanlıq əleyhinə cinayət törətmiş şəxslərin axtarılıb tapılması, tələb olunması və mühakimə edilməsi istiqamətində fəaliyyət canlanmalıdır.

### *Xocalı faciəsi beynəlxalq cinayət olaraq Ermənistanın Azərbaycan xalqına qarşı apardığı məqsədyönlü soyqırımı siyasətinin tərkib hissəsidir*

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə Azərbaycan xalqına qarşı həyata keçirilmiş ən dəhşətli cinayətlərdən biri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki Xocalı şəhərində ermənilərin törətdiyi tarixdə insanlığa qarşı görünməmiş vəhşilikdir. Bir gecənin içində yüzlərlə günahsız insan xüsusi qəddarlıqla məhv edilib. Xocalı şəhərinin işğalının faciəli nəticəsi bunlardır: 613 nəfər, o cümlədən 106 qadın və 63 uşaq qətlə yetirilib, 487 nəfər şikəst olub. 1275 adam erməni əsirliyinin dəhşətlərindən keçib, 150 nəfər itkin düşüb, şəhərin özü isə yerlə-yeksan edilib. Bu faciənin nəticəsində onlarca uşaq, qadın və qoca güllələnib. Ermənistanın silahlı qüvvələri və muzdlular bütöv ailə-



Azərbaycan Milli Kitabxanası

ləri məhv edib, insanları amansçızcasına qətlə yetirmişlər: adamların dərisi soyulub, qulaqları kəsilib və başlarının dərisi soyulub çıxarılmışdır.

### *I. Xocalı soyqırımının beynəlxalq cinayət kimi səciyyəsi*

Soyqırımın hüquqi məzmunu BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya ilə müəyyən olunmuşdur. Hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə törədilən aşağıdakı hərəkətlərdən ibarətdir:

- bu cür qrup üzvlərinin öldürülməsi;
- belə qrup üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi;
- hər hansı bir qrup üçün qəsdən onun tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması;
- bu cür qrupda doğumun qarşısını almağa yönəldilmiş tədbirlərin görülməsi;
- uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi.

Soyqırımı cinayəti üçün xüsusi niyyətin olması zəruri ünsür sayılır. Bu, soyqırımı cinayətini obyektiv cəhətinə görə oxşar beynəlxalq cinayətlərdən fərqləndirir. Soyqırımı cinayətini təşkil edən əməllərdən hər biri öz xarakterinə görə şüurlu, bilərəkdən və iradə ilə diktə olunan əməllərdir. Həmin əməllər heç bir halda təsadüfən və ehtiyatsızlıq nəticəsində törədilə bilməz. Eyni zamanda, həmin əməlləri törətmək niyyəti və onların mümkün nəticələrinin ümumən dərk edilməsi əməlin soyqırım kimi tövsifi üçün kifayət deyil. Burada cinayətkarın fikrinin xüsusi istiqamətini və ya əməlin neqativ nəticələri ilə bağlı əvvəlcədən mövcud olan konkret niyyəti ortaya çıxarmaq tələb olunur.

Qabaqcadan xüsusi olaraq düzəldilmiş pusqulardan qaçıb ca-



nını qurtarmaq istəyən azərbaycanlı mülki əhalinin avtomat, pulemyot və başqa silahlardan güllәbaran edilməsi məhz soyqırımı niyyətini sübut edir.

Həmin cinayətin azərbaycanlı milli qrupuna qarşı yönəlməsi də danılmaz faktdır.

Soyqırımı cinayətini təhlil edərkən onun üç əsas ünsürünün mövcud olması aydınlaşır:

- tanınan milli, etnik, irqi və ya dini qrupun olması;
- bu cür qrupu tamamilə və ya qismən məhv etmək niyyətinin olması (mens rea);
- tanınan qrupla bağlı soyqırımı hərəkətlərindən hər hansı birinin törədilməsi (aktus reus).

Deməli, soyqırımı aktı hökmən milli, etnik, irqi və ya dini qrupa qarşı yönəlməlidir. Başqa qrupa, məsələn, siyasi və ya sosial qrupa qarşı yönələn bu cür hərəkətlər soyqırımı kimi qiymətləndirilə bilməz.

Soyqırımı anlayışı qadağan olunmuş əməlin ümumi nəticələrinə dair konkret niyyətin olmasını tələb edir. Soyqırımı cinayətinin tövsifedici əlaməti kimi niyyət özündə bir neçə cəhəti birləşdirir:

- niyyət, təsadüfi, bu və ya digər konkret qrupa məxsus olan bir, yaxcud bir neçə şəxsin deyil, qrupun məhv edilməsindən ibarət olmalıdır. Fərdin şəxsiyyət yox, məhz müəyyən qrupa mənsubluğu soyqırımı qurbanlarını təyin etmək üçün həlledici meyardır;
- niyyət, özü-özlüyündə, başqasından fərqlənən bir qrupun məhvindən ibarət olmalıdır. Soyqırımı bütöv insan qrupunun mövcudluğu hüququnu tanımaqdan imtinadır. Adamöldürmə (hemosid) isə ayrı-ayrı insan varlıqlarının yaşamaq hüququnu tanımaqdan imtina kimi səciyyələnir. Deməli, aktus reus (qadağan olunmuş əməl) bir adamla məhdudlaşa bilər, lakin mens rea (niyyət) qrupun mövcudluğu əleyhinə yönəlməlidir;



Azərbaycan Milli Kitabxanası

- niyyət, qrupun "tamamilə və ya qismən məhv edilməsindən ibarət olmalıdır;

- niyyət məhz, milli, etnik, irqi və ya dini qruplardan birinin məhv edilməsindən ibarət olmalıdır.

Soyqırımı cinayətinə görə məsuliyyətin ortaya çıxması üçün müəyyən qrupun tamamilə və ya qismən məhv edilməsindən ibarət son nəticənin əldə olunması tələb kimi qoyulmur. Bunun üçün həmin cinayətin obyektiv cəhətini təşkil edən əməllərdən hər hansı birinin müəyyən qrupun tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi kifayətdir.

Soyqırımı cinayətinin obyektiv cəhətinə aid olan məhvetmə anlayışı qrurun ən müxtəlif vasitələrlə cismən məhv olunmasını bildirir.

"Barselona Trastion Case" işi üzrə qərarında BMT-nin Beynəlxalq Məhkəməsi soyqırımı aktlarının qadağan olunması ilə bağlı öhdəlikləri erga rmnes öhdəliklər adlandırmışdır. Beynəlxalq Məhkəmə Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyasının əsasında duran prinsipləri beynəlxalq adət hüququnun bir hissəsi, bütün dövlətlər üçün məcburi xarakter daşıyan normalar kimi tanımışdır.

### *II. Xocalı soyqırımının beynəlxalq cinayət kimi tanınması üçün əsas verən hüquqi sənədlər*

1. BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması Haqqında Konvensiya.

2. Nürnberq Hərbi Tribunalının Nizamnaməsi (Nizamnamədə birbaşa soyqırımı cinayəti göstərilməsə də, həmin cinayəti təşkil edən əməllər insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri kimi nəzərdə tutulmuşdur).

3. Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsi (mad.4).



4. Ruanda Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsi (mad.1).

5. Beynəlxalq Cinayət Məhkəməsinin Statusu (mad.6).

6. Azərbaycan Respublikası Cinayət Məcəlləsi (mad.103). 7. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı.

### *III. Xocalı soyqırımının beynəlxalq hüquqi nəticələri*

Beynəlxalq hüquq soyqırımı cinayəti ilə əlaqədar aşağıdakıları müəyyənləşdirmişdir:

1. Soyqırımı cinayəti törətmiş şəxslərin cinayət mühakiməsi və cəzalandırılması labüddür.

2. Soyqırımı cinayətinin təkcə icraçıları deyil, soyqırımı törətməyə sui-qəsd, soyqırımına birbaşa və açıq təhrikçilik, soyqırımında iştirak etmək də cinayət məsuliyyəti doğurur.

3. Soyqırımı cinayəti törətmiş şəxslərə universal yurisdiksiya prinsipi tətbiq olunmalıdır.

4. Soyqırımı cinayətini törətməkdə əmrin icrasına istinad, şəxsi cinayət məsuliyyətindən azad etmir.

5. Soyqırımı cinayətinin törədilməsinin qarşısının alınması üçün tədbir görməməyə görə rəhbər şəxs məsuliyyət daşıyır.

6. Soyqırımı cinayətlərinə cinayət məsuliyyətinə cəlbetmə müddətləri tətbiq edilmir.

7. Soyqırımı cinayətinə görə qanunun retroaktiv tətbiqinə yol verilir.

8. Soyqırımı cinayətini törətmiş şəxslər cinayət məsuliyyətinə cəlb edilməsi üçün tələb edən dövlətə verilməlidir.

Beləliklə, ermənilər tərəfindən Xocalı əhalisi olan etnik azərbaycanlılara qarşı törədilmiş bütün əməllər beynəlxalq hüquq sənədlərinə uyğun olaraq soyqırımı kimi qiymətləndirilir və beynəlxalq hüquq prinsiplərinə görə bəşəriyyətə qarşı cinayət sayılır.



Azərbaycan Milli Kitabxanası

## *Son söz əvəzi...*

Tarixi faciələrimizdən olan Xocalı soyqırımı barədə ümumiləşmiş şəkildə kitab ortaya qoymaq istəyim xeyli vaxt idi ki, məni rahatsız etmişdi. Faciənin ildönümü yaxınlaşdıqca, qəzetlərdə Xocalı soyqırımına o qədər də önəm verilməməsi, hər halda unutqanlığımızın, faciələrimizdən hələ o qədər də mükəmməl dərs almamağımızın əlamətidir. Belə sönük fəaliyyətin başqa adı yoxdur.

"Biz türklər tarix yazmırıq, tarix yaradırıq" deyimi təfəkkürümüzdə əks-səda doğursa da, heç olmasa, erməni terrorunun bizim taleyimizə yazdıqlarını gələcək nəslə çatdırmaq üçün bir iş görməliyik. Ən azı dünya "erməni həqiqətləri"ni siyasi müzakirəyə çıxaranda bizim də bu masaya qoyulası, həqiqət yükünü özündə daşıyan bir para yazılarımız olmalıdır. Sözümüzü sənədlərə, faktlara, dəlillərə söykəyib, erməniləşmiş bəzi dünya siyasilərinə deməliyik. Düzdür, bu baxımdan bir neçə sanballı araşdırmalarımız, kitablarımız var. Ancaq bunlar çox azdır. Düşmənlərimizin taktikasını, strategiyasını, yalanlarını təkrar edəcəyimizi heç düşünmürəm də. Yox, tarixən türklərin öz yolu, öz sözü, öz əməli olub. Gəlin, bu əmələ sadiqlik göstərərək mental dəyişikliklərə uğramadan, mərdi-mərdanə, erməni terrorunun hələ əsrin əvvəlində Qafqazda böyük faciəyə, fəlakətlərə yol açdığını söyləyək. Mirmövsüm Nəvvabın acı salnamələrinə, Məmməd Səid Ordubadinin "Qanlı illər"inə, Azərbaycan dövlətinin arxivində olan sənədlərə, sübutlara əsaslanaq. Son illər Vilayət Quliyevin, V.Qazıyevin, Budaq Budaqovun, Nəsiman Yaqublunun, Şirməmməd Hüseynovun, Səriyyə Müslümqızının, Allahyar Xocalının araşdırmalarını, Azərbaycan türklərinə qarşı törədilən məqsədyönlü erməni terrorunun mahiyyətini açıqlayan yazılarını oxuyaq, təhlil edək. Lazımlılarını,



əsaslandırışlmış faktları dünyanın ixtiyarına buraxaq. Onlara düşünmək imkanları yaradaq. İndi dünyada müasir hərbi infrastrukturdan daha çox təbliğatın soyuq müharibəsi təsirli iş görür. Bu fəaliyyəti erməni daşnakları dünyanın hər tərəfinə səpələnmiş həmmillətləri, diaspora təşkilatları ilə daha əhatəli qurublar. Bəşəriyyətə qarşı cinayətlərdə bulunanlar, heç nədən ortaya "erməni məsələsi" qoyur, təbliğatın bütün vasitələrindən istifadə edirlər. Guya, 1915-ci ilin 24 aprelində türklər ermənilərə qarşı soyqırım siyasəti həyata keçiriblər. Tarixi faktlar, mənbələr bu erməni yalanlarını alt-üst etsə belə, yenə də separat düşüncəlilər fəaliyyətlərini dayandırmaq istəmirlər. Halbuki biz fakt olaraq ermənilərin Qafqazda Azərbaycan türklərinə qarşı 1905-ci ildə törətmiş olduqları soyqırımı faktlarını cəmi 3-4 kitab materialı kimi istifadə etmişik. 1918-ci ilin mart qırğınında təkcə Bakıda 30 min azərbaycanlı türkünün ermənilər tərəfindən qətlə yetirilməsini, cəsədlərinin yandırılıb kül olmasını son 10 ildə ortaya çıxarmışıq. Artıq yetər. Əməli işə, fəaliyyətə keçməyin zamanını ümummilli lider Heydər Əliyev 1998-ci ildə imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanla göstərdi. İstiqamətlər, yollar aydın olduğundan, nədən biz Azərbaycanın soyqırım həqiqətlərini yazıb dünyaya çatdırmayaq?!

Xocalı faciəsi bütün türk dünyasının yarası, ağrısıdır. Bu ağrını türkdilli xalqlar birgə yaşamalı, hiss etməlidir. Azərbaycan parlamentinin Xocalı soyqırımına dair qəbul etdiyi hüquqi-siyasi sənədlər ilk növbədə türk dövlətlərində müzakirəyə çıxarılıb, soyqırım aktı kimi qəbul edilməlidir. Bu, sərt mühakimə deyil. Sadəcə, milli təəssübkeşlikdən doğan mülahizədir.

Mən bu kitabı nəşrə hazırlayan zaman yüzlərlə qəzet nüsxələrini vərəqlədim, onlarca kitabı, hüquq-mühafizə orqanlarının istintaq materiallarını oxudum. Millətin bu ağrı-acısını yaşayan, bu hissləri, faktları yazıya alan bütün millət övladlarına, qələm əhlinə təşəkkürlərimi yetirirəm. Faciənin motivini

bədii sözün əhatəsində əridənlər də, faktın interpretasiyasına çalışanlar da, məsələyə sırf tarixi nöqteyi-nəzərdə yanaşanlar da var. Kimsə zehni, idrakı imkanları səviyyəsində Xocalı soyqırımına yanaşıbsa, həmin insanların fəaliyyətini yüksək qiymətləndirmək lazımdır.

Xocalı soyqırımından kitab yazmağı xalqın tarixi faciələri fonunda özümün ən mühüm vətəndaşlıq və övladlıq borcum sayıram. Bu mövzuya müraciət etməyimin bir səbəbi də var: hərdənbir "Şərq" qəzetinin redaksiyasına öz yazılarını təqdim edən, milli vətənpərvərlik ruhunda yazılar yazan, əslən Xocalıdan olan Səriyyə Müslümqızının yaşamış olduğu faciələr. Xocalı qırğınında anasını, yaxın qohumlarını itirmiş bu məğrur türk xanımının çöhrəsində Xocalı faciəsinin portreti dərc olunub. Sanki Xocalının bir ümumiləşmiş obrazıdır Səriyyə. Erməni məşəqqətlərini, qəddarlığını gözləri ilə görmüş bu xanım faciədən aram-aram danışır.

Başı kəsilmiş insanlar, süngülərə taxılmış körpələr, cəsədləri təhqir olunmuş ana və bacılarımız, üz-gözündən nalə duyulan ahılların qətli erməni terrorunun bəşəriyyət üçün böyük təhlükələr törədəcəyinin nişanəsidir. Dünya bu vəhşiliklərə, qəddarlıqlara susmamalıdır.

Həqiqət yalandan ayırılmalıdır!...





Azərbaycan Milli Kitabxanası













Azərbaycan Milli Kitabxanası





Azərbaycan Milli Kitabxanası









Azərbaycan Milli Kitabxanası











Azərbaycan Milli Kitabxanası







# Türkün Xocalı soyqırımı

Kitabdakı şəkillər "Səhər" qəzetinin arxivinə və Şamil Sabiroğluna məxsusdur.

**Koorektor:** Kəklik Abbasova

**Dizaynerlər:** Edqar Hənifəyev, Vidadi Baxşiyev

*Yığılmağa verilmiş 07.01.2005.*
*Çapa imzalanmış 19.02.2005.*
*Şərti çap vərəqi 11. Sifariş № 34.*
*Kağız formatı 60x84 1/16. Tiraj 500.*

*Kitab **"Şərq"** qəzeti redaksiyasının kompüter mərkəzində yığılıb, səhifələnmiş və **"Nurlan"** nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
*Direktor: **prof. N.B.Məmmədli***
***E-mail: nurlan1959@rambler.ru***
*Tel: 497-16-32; 850-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*

Azərbaycan Milli Kitabxanası


Karabağ'daki Milliyet muhabiri Rehber Beşiroğlu bu fotoğrafları ağlayarak çekti

Milliyet
Halk Gazetesi

4 MART

Ermeniler kana doymuyor. Karınları deşilmiş bebekler...Süngülenmiş kadınlar...
Gözleri oyulmuş, kulakları, burunları kesilmiş erkekler...Cesetler...cesetler...

# Katliamı gördüm

BEBEĞE KAN EMZİRDİLER

BUGUN

BU VAHŞETİ GÖRMEZLİKTEN GELMEK DE VAHŞETTİR

DEMİREL: 'Yürek parçalayıcı'

İNÖNÜ: 'Dünya seyrediyor'

BM'de ilk Türkçe konuşma

Senatör'ün isyanı

ALTAN ÖYMEN

Milliyet'ten Müziksever'lere Armağan

SEVİLEN ŞARKILAR
BİR MÜZİK GAZETESİ GİBİ

HADİ BAKALIM



Azərbaycan Milli Kitabxanası

Azərbaycan Milli Kitabxanası